**Şəlalə Məhyəddin qızı**

# QARANLIQDAN İŞIĞA

**«Nasir» nəşriyyatı**
**Bakı – 2012**

Şəlalə Məhyəddin qızı. «Qaranlıqdan işığa». Bakı, «Nasir» nəşriyyatı, 2012, 192 səh.

Bu kitab dünya şöhrətli göz cərrahı, Azərbaycan oftalmologiyasının banisi professor Ümnisə Musabəylinin 110 illik yubileyinə həsr olunub.

Kitabda alimin elmi fəaliyyəti ilə bağlı xatirələr toplanıb.

*Kitabın işıq üzü görməsində maddi və mənəvi köməklik göstərən həmyerlilərimiz, iş adamı Dağlar Səfərova və «Nasir» nəşriyyatın direktoru Famil Kərimova minnətdarlığımızı bildiririk.*

M 087 – 2012

© «Nasir» nəşriyyatı,2012

# ÖN SÖZ

Qeyri-adi zəka sahibləri bilik və bacarıqlarını elmin inkişafına sərf edəndə daha çox fayda verir, onların əməyinin nəticəsində daha çox insan bəhrələnir. Ömrü boyu insanlara nur verən akademik Ümnisə Musabəyli də belə insanlardan biri idi. O, təkcə Azərbaycanda, keçmiş Sovetlər İttifaqında deyil, dünyada sevilib-seçilən nadir oftalmoloqlardan biri kimi tanınırdı. Hətta onu dövlət başçıları səviyyəsində müxtəlif ölkələrə dəvət edir, böyük hörmət və ehtiram göstərirdilər. Təkcə bu faktın özü onun çox böyük nüfuza malik olduğunu şərtləndirən amillərdən biridir. Odur ki, Ü.Musabəylinin gözlərinə şəfa verdiyi insanlar arasında adi vətəndaşlardan tutmuş yüksək rütbəli məmurlar, dövlət başçıları da olub.

Beynəlxalq səviyyəli simpoziumlarda, elmi konfranslarda etdiyi çıxışlar da həmişə maraqla qarşılanır, böyük əks-səda doğururdu. Sağlığında «Ümnisə xanım» adlı sənədli film çəkilmiş, elmi məqalələri dünyanın bir çox nüfuzlu jurnallarında çap olunmuşdur. Ümnisə xanım neçə insanın gözünə nur vermişdi, neçə təşəkkür məktubu almış, haqqında neçə xatirə yazılmışdı? Bunu rəqəmlə ifadə etmək qeyri-mümkündür.

Artıq Ümnisə xanımın vəfatından 40 ilə yaxın vaxt keçir. Buna baxmayaraq, o, indi də ehtiramla yad edilir, böyük məhəbbətlə xatırlanır. Vaxtilə onunla birlikdə çalışan iş yoldaşlarından, dərs dediyi tələbələrdən, müalicə etdiyi insanlardan kimisi onun haqqında məqalə, kimisi xatirə, kimisi şeir, kimi də hətta elegiya və poema da yazmışdır.

Jurnalist Şəlalə Məhyəddin qızı həmin yazıların və xatirələrin bir çoxunu arayıb-axtarıb taparaq bu kitabı ərsəyə gətirmişdir. Kitaba çəkilən zəhməti görmək üçün onun mündərəcatına nəzər salmaq kifayətdir.

Ümnisə Musabəyli Azərbaycan təbabətinə nə kimi yeniliklər gətirib, dünya tibb elminə hansı töhfələri verib, xəstələri necə müalicə edirdi, necə dərs deyirdi, tələbələrinə hansı tövsiyələrini verirdi, anadangəlmə kor olan insan gözlərini açanda nə kimi hisslər keçirdirdi? Kitabda bu və ya digər suallara ətraflı cavab verilir.

Kitabın üstün cəhətlərindən biri də oradakı insan mənəviyyatını zənginləşdirən faktların çoxluğudur. Bu da Ümnisə Musabəylinin özünün daxili aləminin zənginliyindən, yüksək əxlaqi xarakterindən irəli gəlirdi. Başqa sözlə desək, Ümnisə xanım təkcə qeyri-adi istedadı ilə deyil, yüksək insani əxlaqi dəyərləri ilə də xatirələrdə silinməz izlər qoyub. Onu əbədiyaşar edən  də budur. Bu isə o deməkdir ki, kitabdan görüb götürüləsi, öyrəniləsi çox şey var.

Bütün hallarda kitaba əsl qiyməti oxucu verir. Bu kitab da mənalı, düşündürücü, insanları xeyirxah əməllərə çağıran, onların daxili aləmini, mənəviyyatını zənginləşdirən kitabdır. Bütün dövrlərdə belə kitablara ehtiyac olub. Bundan sonra da olacaq. Odur ki, oxucular tərəfindən bu kitabın böyük maraqla qarşılanacağı şübhəsizdir. Müəllif üçün isə bundan böyük sevinc payı ola bilməz.

**Rüstəm RÜSTƏMOV,**
**əməkdar jurnalist**

## ÜMNİSƏ MUSABƏYLİNİN HƏYATINDAN QISA FRAQMENTLƏR

Gecə birə işləyirdi. Şəhər bəlkə də çoxdan yuxuya getmişdi. Bərkdən döyülən qəfil qapı səsi gecənin sakitliyində əks-səda yaratdı. Səsə qonşular da diksindi.

- Xeyir ola, bu vaxt?

Ümnisə xanım dodaqaltı pıçıldadı:

- Kimdir görəsən?

Çevrilib professora baxdı. Həmişə gülərüzlü olan həyat yoldaşını elə bil ilk dəfə görürdü. Ərinin rəngi bəyazımış çöhrəsi və nigaran baxışları onu ildırım kimi vurdu. Dağdan ağır sandığı kişinin birdən-birə yazıqlaşan görkəmi nəzərindən qaçmadı. Hərəkətsiz qaldığını görüb, özü qapıya yaxınlaşdı. İçəri daxil olan bir neçə şəxs bircə kəlmə soruşdu:

- İsmayılzadə İbrahim?

- Bəli.

- Yığışın, bizimlə getməlisiniz.

- Hara?...

- ...

Susmuş və zəhmli baxışlardan, dilindən qəfil çıxan sualdan  İbrahim müəllim daha da pərt oldu. Həmişə cəsarəti, dilavərliyi ilə seçilən Ümnisə xanım da susmuşdu. Bu sualın cavabı yox idi.

Ötən il minlərlə qapısı döyülən insanlar nəyin qurbanı olduğunu bilmədikləri halda gedər-gəlməzə yola salınmışdılar. Tanıdıqları bu insanların aqibəti hamının başına gələ bilərdi. Xüsusilə ziyalıların, milləti canı-qanı qədər sevdiyi şəxslərin alın yazısına çevrilirdi. Bu dəfə İbrahim İsmayılzadə hədəfə alınmışdı.

Almaniyada birgə oxuduqları, ən yaxın dostu Əlirzanın tutulması xəbərini eşidəndən sonra bu anı hər gün gözləyirdi. Sorğu-suala tutulacağı şübhəsiz idi.

Güclü tufanın, amansız fırtınanın caynağından xilas olmağa çalışan iri gövdəli ağactək o da yıxılmamağa çalışdı. Yerdən ayağının üzüldüyünü hiss eləsə də, təmkinini pozmadan, taqətdən düşən dizlərini, keyləşmiş qollarını güclə açaraq körpə qızını bağrına basdı. Səs-küyə yuxudan oyanan, qorxu içərisində çaş-baş qalan, gələn "dayılar"ı tanımayan balaca Dilarə nə baş verdiyini anlamasa da, atasının öpüşlərindən məmnun halda həmişəki kimi nazlanmağa başladı. "Qonaq"larla evdən çıxan atasının arxası ilə baxan anasını ağlayan görəndə isə dodaqlarını büzdü. Ana-bala bir-birlərinə sarmaşdılar. Hər dəfə ağlayan qızını sakitləşdirən ananın bu gün özünün hıçqırması balacanı heyrətdə qoydu. Donuq gözlərini mat-məəttəl ona dikdi. Kiçik ovucları ilə anasının islanmış üzünü, göz yaşlarını silməyə başladı, əllərini boynuna dolayıb, bərk-bərk qucaqladı.

Həmin gün Ümnisə xanımın həyatına yazılan ən dəhşətli gecə oldu. Yoldaşının taleyindən nigaran qaldı, onun başına nə gələcəyini bilmirdi. Tanış olduqları günü, tələbəlik illərini xatırladı. Hər ikisi həkim idi. Ən yaxşı təbib olmaq uğrunda mübarizə aparırdılar, təkcə sənətləri ilə yox, həm də alimlik səviyyəsi ilə öyünürdülər.

- Birdən onu da güllələyərlər?!.

Qorxu, təlaş ürəyinə soxuldu, vücudunu titrətdi, həyatı qədər sevdiyi, ən əziz bir insanı itirmək təhlükəsiylə üzləşdiyini hiss etdi...

Professor İbrahim İsmayılzadə həmkarları kimi 1938-ci ildə həbsə alındı. Müxtəlif bəhanələr səsləndi. Təqsirkar olduğunu isbatlamağa çalışdılar. Axırda əlacsız qalıb, onu "Trotskinin tərəfdarı" adlandırdılar. Tutarlı dəlil olmadığından istintaq prosesi iki il çəkdi. Məhkəməsi isə 15 dəqiqə. Bu müddət ərzində, dəmir barmaqlıqlar arasında yaşayan Azərbaycan alimi, nəhayət, Sibirə sürgünə göndərildi. Həyatının növbəti 10 ilini ailəsindən, doğmalarından, el-obasından ayrı yaşamağa məhkum edildi… İbrahim İsmayılzadənin repres-

siyaya məruz qalmasına səbəb bəlkə də onun vaxtilə Azərbaycan Demokratik Respublikasında Parlamentin deputatı seçilməsi faktı idi. Millətini azad görmək istəyən insanların sırasında adı çəkilən ziyalı oldğu üçün qara siyahıya alınmışıdı...

Uşaqlıq dostu Əlirza Atayevlə Almaniyaya oxumağa göndərilən İbrahim İsmayılzadə repressiyanın neçə-neçə günahsız qurbanlarından biri idi. Sürgün həyatında da hər an ölümünü gözləyən minlərlə insanlardan biri...

* * *

Ümnisə xanım ağlı, dərin zəkası ilə ətrafından seçilirdi. Hələ Tağıyevin Qızlar seminariyasında təhsil alanda onu digər uşaqlardan qeyri-adi bacarığına görə fərqləndirirdilər. Ali təhsildəki uğurları isə onun əl-qolunu açmış, elmin bütün sirlərinə yiyələnmək həvəsi onu mükəmməl alimlik səviyyəsinə qaldırmışdı.

Ailənin düşdüyü faciə onun həyat mübarizəsini daha da alovlandırdı. İbrahim uzaqlara aparılsa da, o özünü ərinin yanında hiss edir, onun çətin günlərində ən yaxın könül sirdaşı idi.

Ümnisənin “Sən evinə qayıdacaqsan, görərsən!”-sözləri İbrahimin yaddaşında əks-səda yaratdı. “Ümidini üzmə, səbrli ol, hər qaranlıq gecənin bir aydın səhəri olur” kəlmələri həyat boyu qulaqlarında səsləndi...

* * *

Ümnisə xanımın başı elmə qarışdı, elmin ən dərin qatlarına qədər irəlilədi. Sonda isə elmi tapıntıları, yeni fikirləri ilə alimlər arasında zəka sahibinə çevrildi. Dünyanın müxtəlif ölkələrinə dəvətlər aldı, oftalmoloqların elmi tədbirlərinə qatıldı. Hara getdisə, harda söz dedisə, dəyərli fikir sahibi oldu. Hər yerdə sevildi.

İllərlə həsrətində olduğu İbrahimin yoxluğunu ona, qismən də olsa, xəstələri unutdurdu. Həyat sevgisindən insanlara işıq payladı. Qaranlıqlardan qurtulmaq istəyənləri nur dünyasına qərq elədi...

Ümnisə xanım zamanı öz dünyasına salmışdı. Həm elmi sahədə uğurlar bir-birini əvəzləyir, oftalmologiya aləminə dəyərli əsərlər bəxş edir, bu sahədə kadrların artmasına çalışır, öz biliyini istedadlı tələbələrə bəxş edir, həm də sorağını eşidib onun yanına gələn yüzlərlə insanın gözündə cərrahiyyə əməliyyatı apararaq, tutulan gözləri açır.

* * *

Ümnisənin səmada qıy vurduğu, qartal təki zirvələrdə qanad açdığı məqamlarda, İbrahim əli-qolu bağlanmış, azadlığa həsrət qalmış anlarında, qəfəsə qısılan quşa bənzəyirdi. Qartal cüssəli bir quşun xırda balaca məkandakı çırpıntıları qol-qanadı qırılmış quşa yaşamağı zillət etdiyi kimi, bu Azərbaycan aliminin də zindan həyatı bütün amalını çilikləmişdi. Usta yanında köməkçi işləyən, divar hörgüsü ilə məşğul olan İbrahim İsmayılzadə ömrünün bir neçə ilini ağ xalata, kitab dəftərə, yazı-pozuya həsrət qalır...

Günlərin birində "ekzema"dan əziyyət çəkən Azərbaycanın rəhbəri Mir Cəfər Bağırov eşidəndə ki, Almaniyada təhsil almış, yeganə mütəxəssis olan İbrahim İsmayılzadə adlı bir həkim onun dərdinə əlac edə bilər. Tələsik onu sürgündən geri qaytarırlar. Bu dəfə də ona hara aparıldığı deyilmir. Bakıya çatanda elə fikirləşir ki, yəqin güllələnmək üçün gətirilib. Ancaq rəhbərin yanına aparılanda məsələdən hali olur. Nəzarət altında öz missiyasını yerinə yetirir. Bağırovun dərisindəki yaranı sağaldır. Onu yenidən sürgünə yollayırlar.

Bu dəfə isə İbrahimin həkimlik məharəti dilə-dişə düşür. Sürgündə "baş həkim" kimi fəaliyyət göstərir. Dustaqxanada məhbusun "baş həkim" olması onun həyat tablosuna daha qarışıq ilmələr atır. Xəstələri ona göz verib, işıq verməyən

nəzarətçiləri olur. Heysiyyatı ilə oynayan bu insanların ayağına xırda bir daş dəyəndə, barmağına tikan batanda həkimdən tezliklə sağaltmağı tələb edirlər, "yoxsa həyatından keçməli olacaqsan" deyib, onu ölüm qorxusu ilə hədələyirlər. Əlində iynə dərmanın olmadığı həkim xəstələrini ancaq el yolu ilə, türkəçarəylə, ərazidəki bitkilərin gücünə müalicə etmək məcburiyyətində qalır...

* * *

İbrahim İsmayılzadə qürbət həyatından, dözülməz şəraitdən çətinliklə də olsa, yaxa qurtara bilir. Uzun müddətdən sonra vətəninə qayıdan alimin burada da taleyi yenə gətirmir ki, gətirmir... Ona paytaxtda yaşamağa icazə verilmir. Məcburiyyət qarşısında qalıb, Gəncəyə - qardaşının yanına sığınır. Bu şəhərdə də həkim işsiz qalır. Şəxsi həyətyanı sahədə, torpaqda çalışaraq qədərinə boyun əyir. Kədərini isə qızı Dilarənin tətil zamanı yanına gəlməsi, ata-qız başa-başa qaldığı məqamlarda unudur. Əslində Dilarə üçün də bu görüş ürək açan idi. Anasının gərgin fəaliyyətindən darıxan qızcığaz, özünü atasının yanında xoşbəxt hiss edir, sanki tənhalıqdan qurtulmuş sayılırdı. Nəhayət, İbrahim İsmayılzadənin Bakıya qayıtmasına razılıq verilir...

Professor İbrahim İsmayılzadə çox az insanlardan biridir ki, ölümün pəncəsindən xilas edilib. Pepressiya illərindən sağ qurtulan dəyərli alim qalan bütün ömrünü Azərbaycan elminin inkişafına həsr edir. Gözəl həkim, böyük alim xeyli sayda mütəxəssis yetişdirib, tibb aləminə bir-birindən dəyərli tədqiqat işləri, qiymətli əsərlər bəxş edib.

Azərbaycan Sovet Ensiklopediyasının IV cildində, 549-cu səhifədə alim haqqında deyilir: "İsmayılzadə İbrahim Məmməd oğlu (25.10. 1898-ci il) Gəncədə doğulub, (21.10.1962.) Bakıda vəfat edib. Azərbaycan SSR-da dermoto-venerologiyanın banilərindən biridir. 1929-cu ildə Tibb elmləri doktoru, 1932-ci ildə professor, 1960-cı ildə Azərbaycan SSR –nin

əməkdar elm xadimi adına layiq görülüb. 1922-ci ildə 1-ci Moskva Dövlət Universitetinin Tibb fakültəsini bitirib. 1923-25-ci illərdə Berlin, Heydelberq və Münhen dermoto-veneroloji klinikalarında ixtisasını artırmışdır. 1925-ci ildən Azərbaycan Dövlət Tibb institutunda assistent, elmi katib, dekan və prorektor vəzifələrində çalışmışdır. Tədqiqatı əsasən, ölkə patologiyasına, dəri xəstəliklərinin naftalanla müalicəsinə həsr olunmuşdur. Abşeron neft məhsullarında ilk dəfə onkogen faktorunu tapmışdır. 1948-ci ildən ömrünün sonuna kimi Respublika Dermatoloqlar Cəmiyyətinin sədri olub...” (ASE, cild IV, səh 549).

Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun www.adhti.edu.az saytında yazılıb: “İsmayılzadə İbrahim Məmməd oğlu Ə.Əliyev adına ADHTİ-nin dəri-zöhrəvi xəstəlikləri kafedrasının müdiri işləyib. 1960-cı ildə Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülüb. 1948-ci ildə dermatologiya üzrə Azərbaycanda ilk tibb elmləri doktoru, əməkdar elm xadimi, professor İbrahim Məmməd oğlu İsmayılzadə kafedraya ikinci professor seçilmişdir. I Moskva Tibb Universitetini bitirdikdən sonra 1923-1925-ci illərdə Almaniyanın mərkəzi şəhərlərində (Berlin, Münhen, Heydelberq və s.) 2 illik təkmilləşməyə göndərilmişdir. Almaniyanın dünya şöhrətli alimi Tsumbuşla dostluq etmiş, onunla birgə elmi iş aparmışdır. Prof. İ.M.İsmayılzadə dəri və uroloji xəstəliklərin naftalanla müalicəsini ətraflı öyrənmiş və bu mövzuya həsr olunmuş monoqrafiya nəşr etdirmişdir. Abşeronun sənaye neftinin onkoloji xassələrini 1929-cu ildə məhz professor İ.M.İsmayılzadə öyrənmişdir və onun doktorluq dissertasiyasının əsasını təşkil etmişdir.

Prof. İ.M.İsmayılzadənin Azərbaycan dilində tədrisin təşkilində böyük əməyi olmuşdur. Onun Azərbaycan dilində nəşr etdiyi bir neçə dərs vəsaiti və latın-rus-azərbaycan dilində tibbi terminoloji lüğəti həkimlərə böyük kömək etmişdir.

Alimin elmi əsərləri institun, respublikanın və Moskvanın jurnallarında dərc olunmuşdur....”.

* * *

Ümnisə Musabəyli isə Azərbaycan Oftalmologiyasının banisidir. Anadangəlmə kor doğulan uşaqların gözlərini dünyada ilk dəfə cərrahiyyə yolu ilə açan Azərbaycan alimi. Səsi-sorağı dünyanın hər tərəfindən eşidilən Qutqaşının (İndiki Qəbələ) alim qızı. Musabəyovlar nəslinin daha bir şan-şöhrət sahibi, alim övladı.

Zirvələri fəth edən bu yeganə alimin xidmətlərindən nəinki Azərbaycan oftalmoloqları, eyni zamanda dünya səhiyyəsi bəhrələnib.

Azərbaycan Sovet Ensiklopediyasının VII cildində alimin elmi fəaliyyəti qeyd olunub. (ASE, VII cild, səh 95).

O, Azərbaycan elminə dəyərli alimlər bəxş etməklə, özündən sonra qoyduğu kadr potensialı ilə oftalmologiyanın problemlərini həll edərək dünyasını dəyişib. İncə duyğulu, həssas qəlbli insan olaraq, xəstələrlə mədəni davranış qaydalarını təcrübədə öz fəlsəfi prizmasından tətbiq edib. Əməliyyatdan öncə xəstənin psixoloji hazırlığına önəm verən həkim sonda hər şeyin yaxşı qurtaracağına əmin olan yeganə cərrah idi ki, heç vaxt uğursuz nəticə ilə üzləşməyib.

Alimlər danışır ki, Ümnisə Musabəyliyə həkimlik Tanrı tərəfindən verilmiş istedad olub. O yeri gələn anda elmin hüdudlarından kənara çıxaraq özü əmin olduğu və istədiyi kimi əməliyyatlar aparıb. Anadan kor doğulan uşaqların gözünə işıq verməsi xəbəri bütün SSRİ-yə yayılanda, onun yanına nəinki ittifaqın hər yerindən, hətta xaricdən də xəstələr gəlməyə başladı...

O vaxtlar İttifaqın ən tanınmış Oftalmologiya mərkəzi Odessa idi. Bu tibb ocağının həkimləri Azərbaycan aliminin praktikasına üstünlük verdiyindən, Ümnisə xanımı dəfələrlə

öz klinikalarına dəvət edirdilər. Elə buranın sakini olan, anadangəlmə kor doğulan Slavik adlı bir uşağı Odessanın özündə əməliyyat edərək gözünü açması da sübut edir ki, o, dünyada bu əməliyyata imza atan yeganə cərrah olub. ( Bu barədə Respublika Dövlət Elm və Texnika Sənədləri Arxivində, "Ümnisə Musabəylinin şəxsi fondu"nda sənədlər var )

Azərbaycan Tibb Universitetinin arxiv sənədləri arasında Ümnisə Musabəylinin 1926-33-cü illəri əks etdirən şəxsi qovluğunda soyadı öz əli ilə Musabəyli yazılıb. Tərcümeyi-halının üstündəki şəklinin altında da qələmlə Musabəyli qeydini aparıb (bax, şəkil, arxiv sənədləri). Sonrakı vaxtlar, məlum səbəblərdən bir neçə il Musabəyova kimi təqdim olunsa da, ömrünün sonuna kimi əvvəlki soyadını əziz tutub, yeri düşən məqamlarda özünü olduğu kimi təqdim edib.

Onun tələbələrindən biri olmuş professor Mübariz Allahverdiyev xatirələrində yazır: "Ümnisə xanımın daxilində böyük Azərbaycançılıq eşqi yaşayırdı, hara gedirdisə, orada fəxrlə millətini təmsil edir, azərbaycanlı olması ilə öyünür, bütün çıxışlarında ölkəsinin adını iftixarla açıqlayırdı". Bu fikirlər Respublika Dövlət Elm və Texnika Sənədləri Arxivindəki Şəxsi fondunda da öz əksini tapıb. "Ümnisə Musabəylinin şəxsi fondu" başlıqlı yazıda arxivin direktoru Şahsuvar Haşımov sənədlərin dili ilə danışır. Alim Yaponiyada çıxışa bu cümlələrlə başlayır. "Mən gündoğar ölkəyə qonaq gəlmişəm, bilirsinizmi haradan, dünyanın gündoğar ölkəsindən, odlar diyarı Azərbaycandan gəlmişəm...".

* * *

Ümnisə Musabəyli dünya şöhrətli alim olub. O dəfələrlə xarici ölkələrə səfər edib, gördüklərini qeydə alıb. Bu səfərlərin fonunda bir neçə kitabı işıq üzü görüb. Bir neçə dəfə Amerikanın ayrı-ayrı ştatlarında olan Azərbaycan oftalmoloqu zəngin təəssüratlara köklənərək "Amerikalılara qonaq" (1962-ci il, ABŞ səyahətləri haqqında) kitabında maraqlı

məqamlara toxunub. O, mötəbər konfranslarda iştirak etməklə yanaşı, olduğu ölkələrin ictimai-siyasi həyatı ilə də yaxından maraqlanıb.

Tibb dünyasında Azərbaycan aliminin yenilikləri sensasiya doğurduğundan, elmi tədbirdən sonra qəzetlərə çağırılan Ümnisə Musabəyli haqqında Amerika mətbuatında bir neçə yazı işıq üzü görür. Kaliforniyanın paytaxtı Sakramento şəhərinin gözəlliyi, sakit məkan olduğu, buranın maraqlı görüntüləri onun yaddaşında xoş hisslər oyadır. Kitabda "Sakramento-Bi" qəzetinin redaksiyasında olması, qəzetin çap prosesini izləməsi, müxtəlif ştatlarda çəkilən şəkillər verilib.

Afrika, Asiya ölkələri göz həkimlərinin 1-ci (Qahirə, 1958), 2-ci (Tunis, 1960), 3-cü (İstanbul, 1964), 4-cü (Beyrut, 1968) konqreslərinin iştirakçısı olub. Bu konqreslər haqqında yazdığı kitabdan bəzi sətirlər: "...1958-ci il yenicə başlamışdı. Mən qış tətilini Bakı ətrafında, Mərdəkan sanatoriyasında bir neçə gün dincəlmək qərarına gəldim. Hətta bir neçə gün kitabların üzünü açmamaq, təbiətlə baş-baş qalmaq barədə fikirləşirdim ki, tibb bacısı mənə telefona çağırıldığımı söylədi. Səhiyyə nazirliyindən zəng vurmuşdular.

-"Şad xəbərimiz" var, - dedilər mənə. – "Siz, Afrika, Asiya ölkələri göz həkimlərinin konqresində iştirak edəcək oftalmoloqların nümayəndə heyətinin rəhbəri təyin edilmisiniz. Konqresdə Azərbaycan oftalmoloqlarının traxoma ilə mübarizəsi haqqında çıxış edəcəksiniz. Razısınız?"

- Əlbəttə, razıyam....təbii ki, sevindim. Mən istirahəti yarımçıq qoyub, təcili evə qayıtdım və səfərə hazırlaşdım..".

* * *

"Musabəyovlar haqqında bir neçə kəlmə, yaxud əziz xalam Ümnisə Musabəyova ilə bağlı xatirələrim" başlıqlı yazıda professor Çingiz Əfəndiyev deyir: "Xalam öz sənətinin vurğunu idi. Hətta öz qızından, ailəsindən və özündən də çox peşəsini sevirdi. O həmişə xəstəyə öz doğması kimi yaxınlaşıb.

O qədər sadə, təvazökar insan idi ki, ünsiyyət qurduğu insanla asan dil tapır, onun qəlb yoldaşına çevrilirdi. O, qaranlıq gözlərə işıq verəndə sevincindən yerə-göyə sığmırdı. Təsadüfi deyil ki, onun yanında olmuş yüzlərlə xəstə uzun illər boyu Ümnisə xanıma minnətdarlıq məktubları yazırdılar. Bu məktublara, aldığı ordenlərindən və medallarından deyərdim ki, daha çox dəyər verir, ən böyük hədiyyə hesab eləyirdi, adına yazılan məktubların hamısını da saxlayırdı...»

Ümnisə Musabəyli öz intellektual səviyyəsi, mədəni dünyagörüşü, gənclərə qayğısı ilə cəmiyyətdə nüfuz sahibi olmuşdu. Mehriban xasiyyəti, zəngin mütaliəsi sayəsində hər yerdə söz demək, iradə nümayiş etdirmək gücünə malik idi.

Alimin həmyerlisi, professor Dursun Hüseynov Qəbələdən yetişən bu ziyalı xanımla fəxr edərək "Mənalı Ömürlər" kitabında yazır: "Ümnisə Süleyman bəy qızı Musabəyli 1902-ci ildə Qəbələ mahalının Qutqaşın qəryəsində qulluqçu ailəsində anadan olub. 1926-cı ildə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsini bitirib. 1930-cu ildən Göz xəstəlikləri klinikasında assistent, 1932-ci ildən dosent işləyib. 1935-ci ildə namizədlik, 1936-cı ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Məşhur Sovet – Azərbaycan oftalmoloqu idi. 1957-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. 1967-ci ildə Azərbaycan EA-na müxbir üzvü seçilib. 1945-ci ildən ömrünün sonuna kimi N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasına rəhbərlik etmişdir...

Yaxın Şərq və Afrika ölkələrində əhalini traxomadan xilas etmək məqsədi ilə yaradılan ekspedisiyanın rəhbəri olmuş, xaricdə xeyli sayda cərrahiyyə əməliyyatı aparmışdır. Həmin ekspedisiya zamanı katarakta olan İndoneziyanın ilk prezidenti Əhməd Sukarnonun da gözlərini əməliyyatla açır...

"Göz xəstəlikləri" adlı Azərbaycan dilində çap olunan ilk dərsliyin müəllifidir...".

...Ümnisə Musabəyli haqqında yazılan bu kitabın arayaərsəyə gəlməsini ən çox istəyən alimlərdən biri professor Dursun Hüseynov olub. Onunla yaxın ünsiyyətdə olan **«Nasir» nəşriyyatının direktoru** ***Famil Kərimov*** bildirdi ki, alimin bu xanımın elmi və ictimai fəaliyyəti ilə bağlı kifayət qədər maraqlı söhbətləri var. Əfsuslar olsun ki, onunla görüşmək və həmin materialları əldə etmək mümkün olmadı. Dünyasını dəyişən alimin şəxsi arxivindəki qiymətli faktların heç biri ilə tanış ola bilmədim.

Dursun Hüseynovun tələbəsi, professor Məhbubə Vəliyeva öz müəlliminin ona necə dəyər verdiyini xatırlayaraq, bəzi kitablardakı yazılarını təqdim etməklə yardımını əsirgəmədi. Elmi rəhbəri olmuş bu insanın illər boyu Ümnisə xanımdan söz açmasını, onu gənclərə örnək saymasını dilə gətirərək, hər iki alimi xoş xatirələrlə yada saldı. Yeri gəlmişkən, kitabda "Haqqında çox eşitdiyim Ümnisə xanım Musabəylinin əziz xatirəsinə" adlı məqalədə ATU-nun "Əczaçılığın texnologiyası və təşkili kafedrası"nın müdiri, əczaçılıq elmləri doktoru elmi dərəcəsinə layiq görülən ilk və yeganə azərbaycanlı qadın professor, əməkdar müəllim Məhbubə Vəliyevanın maraqlı qeydləri yer alıb. Həmin məqalə kafedra əməkdaşları adından alimin 110 illik yubileyinə həsr olunub…

"Azərbaycan Səhiyyəsinin tarixi" kitabında Ümnisə Musabəyli haqqında yazılıb. "...Alimin elmi fəaliyyətində qlaukoma və traxomanın diaqnostikası, klinikası və müalicəsi, hamiləlik patalogiyası və başqa xəstəliklər zamanı görmə orqanının zədələnməsinin tədqiqinə dair məsələlər əsas yer tutur. Oftalmologiya üzrə latın-rus-azərbaycan terminoloji lüğətin, göz xəstəlikləri barədə bir neçə dərsliyin və bəzi göz xəstəliklərinin diaqnostikası və profilaktikasına dair metodik tövsiyyələrin, 3 monoqrafiyanın və 200-yə yaxın elmi məqalənin müəllifidir. Azərbaycanda Oftalmologiya elminin banilərindən biridir..." (Azərbaycan Səhiyyəsinin Tarixi. Azərbaycan nəşriyyatı, 2002-ci il, səh 152-153).

"Göz xəstəlikləri kafedrası"na rəhbərlik edən ilk Azərbaycan alimidir. ATU-nun "Oftalmologiya" kafedrasının "atueye.com" saytında yazılıb: "Azərbaycanda göz xəstəlikləri kafedrası 1922-ci ildə yaranıb, qısa müddət ərzində kafedraya Y.K.Varşavski rəhbərlik edib. Azərbaycanın iqlim şəraitinə uyğunlaşa bilmədiyindən onu tez bir zamanda tanınmış xadim K.X.Orlov əvəz edib. 1923-cü ildən 1945-ci ilədək kafedra professor A.Q.Trubinin rəhbərliyi altında fəaliyyət göstərib. 1945-ci ildən 1974-cü ilədək kafedraya ə.e.x., Azərbaycan SSR EA-nın müxbir üzvü, professor Ümnisə Süleyman qızı Musabəyova rəhbərlik edib.

Tədris işini təkmilləşdirmək məqsədilə kafedra hər il mühazirə, həm də praktik dərslər üçün illüstrasiyalı materiallar, şəkillər, diapozitivlər, aparatlarla təchiz olunurdu. Kafedranın rəngli filmləri də vardır ki, bunlardan biri professor Ü.Musabəyova ilə Azərbaycan film kinostudiyasının birgə işi sayəsində yaranmışdır. Bu göz almasının quruluşu, refraksiya, akkomodasiya və optik şüşələrin seçilməsindən bəhs edən rəngli film mühazirədir... 1945-ci ilədək kafedraya rəhbərlik edən professor A.Q.Trubin gözəl klinisist olmaqla gözün embriologiyasını, teratologiyasını və morfologiyasını da çox mükəmməl bilirdi. Bu hal özünü onun məşhur alman arxivində nəşr olunan tədqiqat və məqalələrində əks etdirməklə yanaşı, tələbələrinin işlərində də nəzərə çarpır (S.İ.-Vəlixan, X.O.Bulac, Q.K.Qambay və başqaları). Azərbaycanda traxoma xəstəliyi ləğv edilənə qədər kafedranın əməkdaşlarının, demək olar ki, bütün tədqiqatları bu problemə həsr olunmuşdur. Baxmayaraq ki, Azərbaycan Dövlət Universitetinin tibb fakültəsi artıq 1930-cu ildən sərbəst instituta çevrilmişdir, dərslər 1932-ci ilədək yalnız rus dilində aparılırdı. Lakin, getdikcə dərslərin Azərbaycan dilində də aparılması labüd oldu və 1932-ci ildən etibarən oftalmologiya üzrə mühazirələri dosent Ü.Musabəyova oxumağa başladı. Bu dövlət əhəmiyyətli tədbir oftalmologiya sahəsində milli kadrların

yetişməsi üçün yol açmaqla yanaşı latın-rus-azərbaycan tibb terminologiyasının, eləcə də Azərbaycan dilində dərsliklərin yazılması üçün şərait yaratdı. 1934-cü ildə Ü.Musabəyova oftalmologiya üzrə terminologiya lüğəti tərtib etdi. 1935-ci ildə isə 20 çap vərəqi həcmində Azərbaycan dilində ilk "Göz xəstəlikləri" dərsliyini yazdı. 1972-ci ildə isə onun oftalmologiya üzrə mühazirələri nəşr olundu. 1977-ci ildə Ü.Musabəyova və R.M.Axundovanın müəllifləri olduqları "Refraksiya, akkomodasiya və optik şüşələrin seçilməsi" kitabı çap olundu.

Ü.Musabəyovanın rəhbərliyi ilə kafedranın kollektivi oftalmologiyanın çox vacib problemi - görmənin fiziologiyası və onun qorunması ilə məşğul olmuşdur. Bu tədqiqatlar görmə orqanlarının vacib funksiyası-akkomodasiyanı öyrənməyə həsr olunmuş və bir çox nəzəri, praktik suallara cavab tapılmışdır. Məktəb yaşlarında yaxındangörmənin qarçısını almaq üçün yeni tədbirlər hazırlanmışdır. Akkomodasiyanın rəng duyğusuna, binokulyar görməyə və s. təsiri öyrənilmişdir.

Katarakta zamanı cərrahi müdaxilənin problemləri və bulanmış bülluru xaric etdikdən sonra gözün dioptik aparatında baş verən dəyişiklikləri də diqqətə layiq işlərdən olmuşdur.

Professor Ü.Musabəyova Beynəlxalq oftalmoloqların 1958-ci ildə Brüsseldə keçirilən XVIII konqresinə nümayəndə seçilmiş və bütün 5 Avroasiya göz həkimlərinin konqreslərində məruzələrlə çıxış etmişdir. 1960-cı ildən Avroasiya konqresinin daimi heyətinin yeganə nümayəndəsi olub. O, həm də Azərbaycan oftalmoloqlarının ümumittifaq nümayəndə heyətinin üzvi olub...

Azərbaycanda dermatovenerologiyanın banisi olan professor İbrahim İsmayılzadənin ölümündən sonra Ümnisə xanım yaxınlarına vəsiyyət etmişdi ki, onu həyat yoldaşının yanında dəfn etsinlər. Öz İstəyi ilə yaxın sirdaşının, əqidə-məslək dostunun yanında torpağa tapşırılıb. Allah hər iki alimin ruhunu şad eləsin.

**Şəlalə Məhyəddin qızı**

## AKADEMIK ZƏRİFƏ ƏLİYEVA

Zərifə Əliyeva professor Ümnisə Musabəylinin sevimli tələbəsi olub. Azərbaycan oftalmologiyasına uğurlar gətirən bu iki xanımın bir-birinə doğma münasibəti müəllim-tələbə sevgisindən boy ataraq, ana-bala səviyyəsinə qədər yüksəlmişdi. Ümnisə xanım Zərifənin hər uğuruna sevinirdi.

Professor Tamara Hüseynova danışır ki, "...Mən Tibb İnstitutunda oxuyurdum. Şahidiyəm ki, Zərifə xanımın traxomanın müalicəsində tətbiq etdiyi dərman preparatına aid elmi mövzusu müzakirə olunanda Ümnisə xanım sevincindən qanad açırdı. Gənc alimin tədqiqatları ürəyincə olduğundan onun müəllim sevinci çöhrəsindən hiss olunurdu ".

Zərifə Əliyeva da müəllimi kimi elmin aktual sahələrinə nüfuz edir, oftalmologiyanın ən çətin problemlərini öyrənirdi. O sevdiyi sənətin bütün sirrlərini açmağa çalışır, mükəmməl alim olmaq istəyirdi. Göz həkimi olmaq, qaranlıq aləmə işıq salmaq arzusu ilə Tibb İnstitutuna daxil olmuşdu...

Görkəmli Azərbaycan yazıçısı və publisisti Hüseynbala Mirələmov "Akademik Zərifə Əliyeva" kitabında yazır: "...Dövlət imtahanları başlamışdı, əla oxuyanlar da, bir o qədər yaxşı oxumayanlar da həyəcanlı, narahat idi. İmtahan hamı üçün imtahandır.

Zərifə suallara cavab verdikcə professor Ümnisə Musabəyovanın üzünün güldüyünü hiss edirdi. Gənc tələbə müxtəlif göz xəstəlikləri, onların müalicəsi və profilaktikası haqqında elə ətraflı, dolğun və həvəslə danışırdı ki, elə bil bu sahədə uzun müddət işləmiş və təcrübə toplamışdı.

İmtahanlardan sonra professor Zərifəni yanına çağırdı və dedi: "Həkimlik, ümumiyyətlə çox gözəl, xeyirxah peşədir. Ancaq tibb elmlərində ən xeyirxah oftalmologiya elmidir. Mən istəyirəm ki, sən oftalmoloq olasan". Professorun təklifi Zərifənin arzuları ilə üst-üstə düşürdü. Qız özü çoxdan bu haqda fikirləşirdi..."

Akademik Püstəxanım Əzizbəyova xatirələrində danışır: "... 1949-50-ci illərdə bu nəcib və şərəfli ixtisas üzrə ordinatura keçir, 1950-1953-cü illərdə isə aspiranturanı bitirir. Zərifə xanım 1960-cı ildə "Traxoma xəstəliyinin sintomisin və onun başqa terapiya metodları ilə əlaqəli müalicəsi" mövzusunda elmi işini uğurla müdafiə edərək oftalmologiya üzrə tibb elmləri namizədi alimlik dərəcəsi alır. 1976-cı ildə Moskvada çox çətin bir mövzuda "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərində görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsi alır, 1977-ci ildə professor, 1983-cü ildə isə akademik seçilir...".

Professor A.İmaməliyev akademik Zərifə Əliyeva haqqında öz xatirələrində yazır. "Tibb institutunun oftalmologiya kafedrasının rəhbəri, professor Ümnisə xanım Musabəyova mənim işlədiyim klinikaya müalicəyə gəlmişdi. Növbədən sonrakı boş vaxtlarda onunla söhbətləşərdik. O, mənə öz tələbələrindən danışardı. Həmişə söhbətinin əvvəlində də, sonunda da Zərifə xanımdan söz açardı. Professor Zərifəni istedadlı həkim və alim, həssas yoldaş, əməksevər insan kimi səciyyələndirirdi. Deyirdi ki, Zərifə xəstəni müalicə edəndə onun ağrılarını özü də yaşayır, özgəsinin ağrı-acısını və sevincini dərindən duymaq və bunları özününkü kimi qəbul etmək Zərifə xanımın adamlarla ünsiyyətdə başlıca keyfiyyəti idi...".

Daima fəhlələrlə təmasda olan alim həmişə öz elmi nəticələrini təcrübədə sınaqdan keçirərdi. O, tez-tez respublikanın iri sənaye müəssisələrində fəhlə və qulluqçular qarşısında çıxışlar edərdi. Buna görə də istehsalçılar arasında yaxşı tanınırdı. Get-gedə onun bu araşdırmaları respublika miqyasını aşmağa başlayırdı və vaxt gəldi ki, həmin elmi işlər yeni mərhələyə keçdi. Bu mərhələdə Zərifə xanım sənayenin tibbi problemlərini Moskva alimləri ilə birgə həll etməyə başladı. Azərbaycan aliminə təntənəli şəkildə akademik M.P.Averbax

adına mükafat təqdim olundu. O, həmin ali mükafata layiq görülmüş ilk qadın alim idi...

Professor Nazim Əfəndiyevin xatirələrindən oxuyuruq: "Mən özümü xoşbəxt insan sayıram. Çünki A.A.Abbasov, Sona xanım Axundova, Sona xanım Vəlixan, Ümnisə xanım Musabəyova kimi təcrübəli və dərin bilikli klinistlər mənim müəllimlərim olmuşlar. İnstitutda çalışdığım zaman özümə çoxlu dost-tanış tapmışdım. Bunlardan biri də Zərifə xanım Əliyeva idi. Zərifə xanım yaddaşımda həqiqətən də silinməz izlər buraxmışdır. Bu, ilk növbədə dərin hörmət və minnətdarlıq duyğularıdır. Zərifə xanım işgüzarlığı, xeyirxahlığı, qayğıkeşliyi, nəcibliyi, istiqanlılığı və qeyri-adi nikbinliyi ilə min adamın içində seçilirdi. O, əsl dost idi və yalnız şad günümüzdə deyil, həm da qəmli anlarımızda Zərifə xanım bizim hamımıza öz kömək əlini uzadırdı. O, nadir adamlara məxsus olan natiqlik qabiliyyətinə və söz duyğusuna malik idi. Yəqin elə buna görə də institutumuzda təntənəli yığıncaqların aparılmasını, yubiley günlərinin qeyd olunmasını bir qayda olaraq Zərifə xanıma həvalə edirdilər. Hər dəfə xəstələrə baş çəkərkən və ya məsləhət saatlarında mən onun parlaq klinik bacarığının şahidi olurdum. Zərifə xanımın elmi fəaliyyəti, ilk növbədə onun düzgün klinik düşüncəsinə və həkim intiusiyasına əsaslanırdı. O, çox oxuyur və həmişə tibbi yeniliklərdən, təbabətə dair təzə çap olunan ədəbiyyatlardan xəbərdar olurdu və istər alim, istərsə də həkim kimi düşüncələri də məhz dərin savadına əsaslanırdı. Zərifə xanım xəstələrə qarşı olduqca diqqətli idi, onları səbirlə dinləyir, xahişlərinə, şikayətlərinə axıra qədər qulaq asırdı. O deyirdi: "Gərək həmişə özünü xəstənin yerinə qoyasan, gərək xəstə həmişə həkimin yanından xoş duyğularla getsin".

Professor Q.M. Nəsrullayeva Zərifə Əliyevanı uşaqlıq illərindən tanıdığını yazır: "...Hər ikimiz Azərbaycan Tibb İnstitutuna daxil olduq. Ali təhsilimizi bitirəndən sonra eyni ixtisası seçdik və düz 18 il mərhum professor Ümnisə Musabə-

yovanın rəhbərliyi altında Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda çiyin-çiyinə çalışdıq. Burada dostluğumuz daha da möhkəmləndi…

1964-cü ildən etibarən, o, görmə orqanlarının peşə patalogiyasına həsr edilmiş doktorluq dissertasiyası üzərində işə başladı. Üç il ərzində, 1967-ci ilə qədər dissertasiya işinin ayrı-ayrı fraqmentləri yerinə yetirildi, Bakı Şin Zavodunun müxtəlif sexlərində çalışanların görmə orqanlarının bir sıra funksiyaları öyrənildi. Sonradan iş yerini dəyişdiyi üçün dissertasiyasının yeni hissələrini də Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında yerinə yetirdi. Zərifə xanımın yüksək ixtisaslı mütəxəssis, alim kimi pedaqoji fəaliyyət sahəsində qazandığı uğurlar da həmin müəssisənin adı ilə bağlıdır. Qeyd etməliyəm ki, Zərifə Əliyeva böyük bir həyat yolu keçmiş, həkim-oftalmoloqdan Azərbaycan EA-nın akademiki, professor, Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdirliyinə qədər yüksəlmişdi. O, bütün bunlarla bərabər, həm də gözəl ictimai xadim idi…

70-ci illərin əvvəllərinə qədər N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunda professor Ümnisə Musabəyovanın rəhbərlik etdiyi “Göz xəstəlikləri kafedrası” Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun terapevtik şöbəsinin bazasında yerləşirdi. Zərifə xanım bu şöbənin böyük elmi işçisi idi. O vaxt şöbə ilə kafedra vahid bir tam kimi qaynayıb-qovuşmuş üzvi bir orqanizmə bənzəyirdi. Biz burada bir ailə kimi çiyin-çiyinə çalışırdıq. Kollektivimiz mehriban, sıx və möhkəm idi, müəllimlərimiz, yaşlı yoldaşlarımız bizim üçün məxsusi ənənələr qoyub getmişdilər. Ayda bir dəfə biz hamımız işdən sonra kollektivimizin bir üzvünün evində çay süfrəsinə toplaşardıq. Bu məclislərin sırasını hər ilin əvvəlində Zərifə xanımın böyük bacısı, Tibb İnstitutunun göz xəstəlikləri kafedrasında dosent işləyən Ləzizə xanım tərtib edirdi. Harada

yığışmağımızdan asılı olmayaraq, görüşlərimiz şən və maraqlı keçirdi. Kollektivimizin canı və qəlbi isə həmişə Zərifə xanım olardı. Taleyim mənə düz əlli il onunla ünsiyyətdə yaşamaq xoşbəxtliyi bəxş edib…".

Professor Nurlana Əliyevanın "Mənəviyyat tariximizin örnəyi" məqaləsində akademik Zərifə Əliyevanın dolğun portreti əks olunub. Məqalədə deyilir: "…1947-ci ildə Zərifə xanım nəhayət ki, Tibb İnstitutunu bitirmək barədə diplomunu aldı. Hələ tələbəlik illərində görkəmli həkim, institutun müəllimi Ümnisə Musabəyova onun çalışqanlığını görüb göz xəstəlikləri üzrə ixtisaslaşmağı məsləhət bilmişdi. Həyat göstərdi ki, müdrik müəllimə yanılmamışdı. Zərifə xanım ömrü boyu öz elmi seçiminə sadiq oldu və nadir əsərləri ilə oftalmologiya elmini zənginləşdirdi...

Ailədə və cəmiyyətdə apardığı işlərin ağırlığına baxmayaraq, o, 140 elmi məqalə, bir necə monoqrafiya və kitab dərc etdirdi. Çoxillik elmi təcrübədən o bir qənaətə gəlmişdi: insanların xəstə gözlərinin müalicəsi çətin və ağrılı bir proses idi. Ona görə göz xəstəlikləri sahəsində profilaktika metodikalarına artıq əhəmiyyət verməyə başladı. Bu, uzaqgörən və müasir bir elmi nəticə idi, oftalmologiyanın gələcək inkişafını qabaqlayırdı. Onun 70-ci illərdən sonrakı bütün elmi axtarışları bu nəticə ilə bağlı oldu. Zərifə xanım göz xəstəliklərinin profilaktikası üçün öz metodikasını hazırladı və bu metodika ona oftalmologiyada şöhrət gətirdi. O, gənc vaxtlarından axtardığı elmin böyük yolunu tapmışdı. Bu həm də Azərbaycan tibb elminin nailiyyəti idi. Bütün bunlar 1983-cü ildə Zərifə Əliyevanın Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi ilə elmi etirafını tapdı. Onun alim şöhrəti artıq Azərbaycanın sərhədlərini çoxdan aşmışdı...".

Professor Zəhra Quliyeva xatirələrində yazır: "Tale məni həyatda Heydər Əliyevlə qarşılaşdırdı. Bu dahi şəxsiyyət həyatıma mayak kimi yaşıl işıq yandırdı, yüksəlişimdə, cəmiyyətdə mövqe tutmağımda həmişə mənə qayğı göstərdi.

Rektor təyin olunmağım, komitə sədri olmağım Heydər Əliyevin mənə göstərdiyi etimadın, qayğının, münasibətin təzahürüdür.

Özümü xoşbəxt sayıram, ona görə ki, Heydər Əliyevin həyat yoldaşı, gözəl insan, akademik Zərifə xanımla bir yerdə işləmişəm, dostluq etmişəm. Xoşbəxtəm ki, mənəviyyatca yüksək, qüdrətli insanlarla birgə yaşamışam, çalışmışam, onları özümə arxa-dayaq saymışam...”.

Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb. “İridodiaqnostikanın əsasları” rəngli illüstrasiyalarla “Azərnəşr” tərəfindən, digər monoqrafiya isə “İridodiaqnostika” adı ilə 1988-ci ildə Moskvada nəşr edilib. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazıb.

Zərifə Əliyeva yaxşı alim olmaqla yanaşı, həm də gözəl həkim kimi də yadda qalıb. Xalçaçı rəssam Hacı Baladayı Hüseynov yazır: - “Atam Məhəmmədin hər iki gözü tutulmuşdu, anam isə mən dünyaya gələndə gözlərindən birinin nurunu itirmişdi. Onların hər ikisi Respublika Göz Xəstəlikləri İnstitutunda müalicə olunublar. Atamın gözlərini Ümnisə Musabəyova əməliyyat etmişdi, onun müalicə həkimi isə görkəmli oftalmoloq Zərifə xanım Əliyeva idi. Əməliyyatdan sonra gözlərində yaxşılaşma baş vermişdi. Zərifə xanım öz xoş, ümidverici sözləri ilə atamda yüksək əhval-ruhiyyə yaradır, onun gözlərinin sağalacağına inamını artırırdı. Evə yazıldıqdan sonra valideynlərim demək olar ki, hər gün bu gözəl insandan söz açar, şəfqət və mərhəmətindən danışardılar. Elə o zamanlarda mənim uşaq qəlbimdə Zərifə xanıma qarşı məhəbbət və ehtiram hissi baş qaldırmışdı. İllər ötdükcə bu məhəbbət daha da dərinləşirdi. 2005-ci ildə onun xalça üzərində portretini yaratmaq istədim. Yaratdım da. Mən onu

bütün məziyyətləri ilə təsvir etməyə çalışmışdım. Həmin iş hazırda Heydər Əliyev Fondunda saxlanılır"...

Professor Q.Ə.Adıgözəlova-Polçayevanın xatirələrindən oxuyuruq: "... Zərifə xanım öz həmkarları içərisində xəstələrə humanist münasibəti, onlara qayğıkeşliklə yanaşması ilə fərqlənirdi. Həkimlik fəaliyyətinin ilk günlərində biz onun bu xüsusiyyətini hiss etmişdik. Təsadüfi deyildi ki, professor Ü.S.Musabəyova ən şıltaq və ərköyün xəstələrin müalicəsini məhz ona tapşırırdı. Zərifə xanım xəstələrə hədsiz diqqət göstərirdi, onlar da bunu anladıqlarından ona müdrik bir insan və qayğıkeş həkim kimi böyük hörmət bəsləyirdilər. Zərifə xanım bu sadəliyini və qayğıkeşliyini ömrünün axırına qədər qoruyub saxlamışdı...".

Akademik Zərifə Əliyeva Azərbaycanda Oftalmologiyanın inkişafında misilsiz xidmətləri olan elm xadimidir. O, bu sahəyə dair sanballı tədqiqat əsərləri bəxş etməklə yanaşı, həm də respublikanın klinikalarını zəruri tibbi avadanlıqlarla təmin edib, ölkədə oftalmoloqların fəaliyyəti üçün geniş imkanlar yaradıb. Elqızının misilsiz xidmətlərini unutmayan qədirbilən xalqımız akademik övladının xatirəsini daima əziz tutur, məzarı hər gün tər çiçəklərlə bəzənir. Böyük alimin ruhu şad olsun.

**Şəlalə Məhyəddin qızı**

## ÜMNİSƏ MUSABƏYLİNİN YETİRMƏLƏRİ

...Ümnisə Musabəyli tələbələrini çox sevərmiş. İstedadlı uşaqlara özü yardımçı olur, onların təhsili ilə maraqlanır və əsl ziyalı kimi yetişməsindən ötrü hər cür köməklik göstərərmiş. Bu xanımın dəstəyi ilə üzləşən həmin tələbələr müəllimlərini xoş təəssüratlarla yada salırlar. O tələbələr ki, hazırda özləri kafedra müdirləridir, Azərbaycan elmini xarici aləmdə təmsil edir, tibbə, təbabətə yeniliklər gətirir, bir sözlə, Ümnisə Musabəylinin ideyalarını həyata keçirirlər.

Hələ tibb institutunun birinci kursunda oxuyarkən, 17 yaşında adi bir təsadüf nəticəsində Ümnisə xanımla rastlaşan və onun maraqlı söhbətlərini, ali insani xüsusiyyətlərini həyatı boyu unuda bilməyən ATU-nun Epidemiologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, əməkdar müəllim İbadulla Ağayevin "Vətən təbabətinə adı qızıl hərflərlə həkk edilən insan" başlıqlı yazısında alimin sadə tələbəyə verdiyi böyük qiymətdən danışılır. Onun üçün savadlı tələbə hər şey demək idi, gələcəyin aynası, sabahın dahi şəxsiyyəti…

Ümnisə Musabəyli dünya oftalmologiyasına şəxsiyyətlər bəxş edib... Professor Çingiz Cərullazadə yazır ki, " Tibb institutunu bitirib, Almaniyada əsgərlikdə idim. Həkim işlədiyim hərbi hissədə, Ümnisə xanımın tələbəlik illərində dediyi sözlərlə bir əsgəri "göz"lərinin köməyi ilə ölümün caynağından ala bildim. Bu mənim həyatını xilas elədiyim ilk "göz", "ilk xəstə" idi. Həmin andaca düşündüm ki, mən Ümnisə xanımın dediyi kimi oftalmoloq olmalıyam. Məzuniyyət alaraq, Ümnisə xanımın görüşünə tələsdim, ona istəyimi bildirdim və xeyir-duasını aldım...

Bu gün həyatda qazandığım bütün uğurlara görə Ümnisə xanıma minnətdaram".

Bir ildə dörd dəfə beynəlxalq konfranslarda iştirak edən, Katarakta barədə 20-dən artıq, beş dənə süni büllur və süni

büllurun gözə qoyulması üçün dörd materialın, qlaukoma, buynuz qişanın köçürülməsi istiqamətində, süni qüzeyli qişa barəsində xeyli sayda ixtiraların müəllifi olan Çingiz Cərullazadə dünyanın tanıdığı və bəhrələdiyi, adını fəxrlə çəkdiyimiz Azərbaycan alimidir. Alim öz müəllimini "Həyatıma düşən işıq" adlandırır və xatirəsini böyük ehtiramla anır...

Ümnisə Musabəylinin savadına güvəndiyi gənclərdən biri də Tamilla Ağayeva olub. "Ümnisə xanım nəinki həm böyük alim, həm də gözəl insan idi" adlı yazıda bu barədə daha ətraflı söhbət açılıb. Müəllif yazır ki, "...hər şeydən əvvəl Ümnisə xanım gözəl insan idi. Dilindən çıxan hər sözün ağası idi və heç vaxt kiminsə qəlbinə toxunacaq bir kəlmə işlətməzdi. O nəinki mənim Tibb institutunda ən çox sevdiyim müəllimim, həm də həyat mübarizəsini öyrəndiyim əsl qəlb yoldaşım idi..."

Tamilla Ağayevanın bədii duyumu və poeziya dili ilə danışması professorun xoşuna gələrmiş. O, zəruri olan bir mövzunu araşdırmağı tələbəsindən xahiş edir və bildirir ki, tibb elmində bu məsələnin öyrənilməsinə böyük ehtiyac var. Ümnisə xanımın verdiyi tapşırıq üzərində işləyən Tamilla Ağayeva bugünkü gündə də həmin aktual problem üzərində elmi fəaliyyətini davam etdirir. Nəticədə Azərbaycan aliminin yeni kəşfi dünyanın təbabət tarixinə daha bir həmvətənimizin adını böyük hərflərlə yazır.

Alimin yeniliyi nədədir? Haqqında yazılan məqalədən bəzi sətirlər: "...İndiyədək bütün xəstəliklərdə olduğu kimi, kataraktanın da inkişaf mexanizmi hüceyrə səviyyəsində tədqiq edilirdi. Büllur histokimyəvi, biokimyəvi, hüceyrə morfologiyasının dəyişiklikləri öyrənilirdi. Aparılan tədqiqatlar göstərirdi ki, katarakta zamanı büllur toxumalarında zülalların, qlükozanın, qlutationun, mikroelementlərin miqdarı azalır, metabolik proseslərdə iştirak edən fermentlərin aktivliyi zəifləyir. Ancaq nə üçün belə olur? Bu suala heç bir tədqiqatçı

cavab axtarmayıb. Bu suala Tamilla xanım Ağayeva "Katarakta - put k istine" kitabında cavab verir.

Doktor T.Ağayeva müəyyən edir ki, bu əlamətlərin meydana çıxmasına səbəb şəkər xəstəliyində toxumalarda müşahidə edilən oksigen çatmamazlığı - hipoksiyadır. Hipoksiyaya daha həssas olan damarsız buynuz qişasında təzə damarlar gözün digər qişalarına nisbətən daha erkən müşahidə olunur. Tamilla xanımın, buynuz qişasinda patoloji damarlanmaya qarşı təklif etdiyi patogenetik müalicə tədbirləri gözün digər qişalarında təzə damarların əmələ gəlməsinin və korluqla nəticələnməsinin qarsısını alır. İlk dəfə Tamilla Ağayevanın müşahidə etdiyi bu simptoma Moskvada Ümumittifaq Patentləşdirmə və Ekspertiza Elmi-Tədqiqat İnstitutu tərəfindən "Gözün diabetik dəyişikliklərinin ağırlıq dərəcəsinin göstəricisi simptomu" adlı müəlliflik şəhadətnaməsi verilir...".

Dəyərli oxucular, Tamilla Ağayeva ilə görüşümüzdən bir neçə gün sonra mətbuatda bu xəbəri oxudum: "Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin aparıcı elmi işçisi, tibb elmləri namizədi Tamilla Ağayevanın yazdığı "Katarakta - put k istine" monoqrafiyası Dövlət Mükafatına təqdim edilib". Bu sevindirici hadisə bir daha Ümnisə Musabəylinin uzaqgörənliyindən xəbər verir. Onun tələbəsinə həvalə etdyi problem ətraflı öyrənildiyi və təbabət üçün əhəmiyyətli olduğu üçün Tamilla Ağayevanın elmi nailiyyəti dövlətin ali mükafatına layiq görülür. Tamilla xanım həm də bədii duyumu ilə diqqət çəkən poetik misralar müəllifidir. Mətbuatda "Tamilla Şəfəq" imzası ilə tanınan şairə gözəl şeiriyyatı ilə seçilir və bu kitabda müəlliminə ithaf elədiyi bir neçə şeiri də yer alıb...

Kitabda Ümnisə xanım haqqında Professor Zəhra Quliyevanın da bir neçə xatirəsi verilib. Hər dəfə Ümnisə xanımı dərin məhəbbətlə xatırlayan alimin özünün də Azərbaycan oftalmologiyasında xidmətləri misilsizdir. Ancaq o, bunun

özülünün müəllimi tərəfindən qoyulduğunu, Ümnisə xanımın sayəsində oftalmologiya elminə gəldiyini, onun zəngin intellektindən bəhrələndiyini və bu elm dühasından örnək aldığını dilə gətirir.

Təcrübəli pedaqoq, istedadlı alim, bilikli həkim, mahir oftalmoloq-cərrah Zəhra Quliyeva Ümnisə Musabəylidən sonra uzun müddət oftalmologiya kafedrasına rəhbərlik edib. Sevimli müəllimi Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Ümnisə xanım Musabəylinin ənənələrinə sadiq qalaraq həkim və elmi-pedaqoji kadrların yüksək səviyyədə hazırlanması sahəsində əzmlə çalışıb. Dörd namizədlik dissertasiyasının elmi rəhbəri, 4 monoqrafiyanın, 160-dan artıq elmi məqalənin, "Göz xəstəlikləri" kitabının, 4 dərs vəsaitinin, 1 ixtira və 4 səmərələşdirici təklifin müəllifidir.

"Müəllimlər müəllimi, alimlər alimi, Milli Akademiyanın müxbir üzvü, tibb elmləri doktoru, professor Ümnisə xanım Musabəylinin xatirəsinə həsr edilmiş bir neçə kəlmə söz və fikirlərim" və "Oftalmologiyanın mayakı Ümnisə xanım" adlı xatirələri ayrı-ayrı illərdə yazılıb. Hər iki yazını oxucuların ixtiyarına verməyimizin səbəbi də odur ki, bu qeydlərdə əslində bir-birini təkrarlayacaq sözlər yoxdur. Zəhra xanımın sözləri ilə desək, Ümnisə xanım uca bir zirvədir və bu yüksəkliyə baxanda onun daha əlçatmaz olduğunu dərk edirsən...

Alimin yetirmələrindən olan professor Nazim Əfəndiyev (1926, 7 iyun - 1998, 5 yanvar) Azərbaycanın tibb tarixinə izi düşən simalardan biridir. Oftalmoloq alim on minlərcə əməliyyat aparmış, mikrocərrahi əməliyyatların yeni üsullarını işləyib hazırlamışdır. 150-yə yaxın elmi əsərin, o cümlədən 3 monoqrafiya, 3 ixtira, 20-dən artıq metodik tövsiyə, bir sıra səmərələşdirici təkliflərin müəllifidir. Onun işləri yaxın xaricdə aparıcı oftalmoloji müəssisələrdə tətbiq edilirdi. Daha çox isə, respublikada gözün mikrocərrahiyyə üsullarını ilk tətbiq edən yüksək oftalmoloq-cərrah kimi tanınırdı. Nazim Əfəndiyev də öz sevimli müəllimi Ümnisə Musabəyli ilə birlikdə

traxoma ilə mübarizə aparan alimlərdən biri idi. Mil, Muğan, Şirvan düzlərində, Abşeron torpağında bu xəstəliyin kökünü kəsənlər sırasında adı çəkilir...

Ümnisə xanımın tələbəsi olmuş Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının rəhbəri, professor Paşa Qəlbinur da bu fikri təsdiqləyir ki, "Təkrarsızdır Ümnisə xanım." Müəllimi haqqında deyir: "...Ali məktəbdə oxuduğum illərdə dünya şöhrətli alim, göz həkimi Ümnisə xanım Musabəyli mənim xeyirxahım, elmdə yeganə ümidgahım oldu. Onun şəxsiyyəti ilə sənəti ilahi bir vəhdətdə idi, bir-birindən ayrılmazdı. O, Azərbaycan oftalmologiyasının özü demək idi. Gözdə ilk cərrahiyyə əməliyyatını məhz Ümnisə xanımın məsləhəti ilə V kursda oxuyanda apardım. İndiyə kimi də o günü yaddan çıxara bilmirəm. Tələbə idim. Göz xəstəlikləri kafedrası ilə mütəmadi əlaqə saxlayırdım. İlk kursdan Ümnisə xanım Musabəylinin əməliyyatlarına gedib baxırdım. Bir dəfə çox yüngül bir əməliyyat vardı - qanadvari pərdənin kəsilməsi. Dedi ki, əlini yu, əməliyyatı apar. Dosent Vasilyeva vardı, tapşırdı ki, mənə assistentlik eləsin. Mənimçün olduqca gözlənilməz oldu. Uğurlu əməliyyatdan sonra sanki çəkisizliyə düşdüm: demək olar ki, bir neçə gün göylərdə uçdum.

- Müəllimlərinizi necə sıralayardınız ?- deyə soruşanda, böyük iftixar hissilə, "Oftalmologiya kafedrası"na rəhbərlik etmiş, tibb elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Azərbaycan oftalmoloqlarının hamısının böyük müəllimi - mərhum Ümnisə xanım Musabəylinin, onun iki layiqli tələbəsi olmuş akademik Zərifə xanım Əliyevanın, tibb elmləri doktoru, professor Zəhra xanım Quliyevanın, həmçinin Moskvadakı müəllimim akademik M.M.Krasnovun adlarını qürurla çəkirəm"...

...1969-cu ildə "Azərbaycanfilm" kinostudiyası "Ümnisə xanım" adlı sənədli qısametrajlı bioqrafik film çəkib. Vladimir Sinitsinin ssenarisi əsasında çəkilən filmin rejissoru

Zeynəb Kazımova, operatoru Əlibala Ələkbərovdur. Filmdə qısa da olsa, Ümnisə xanımın bütün yaradıcılıq sahələrinə toxunulub. Onun gözəl insan, istedadlı həkim, təcrübəli cərrah, alim və ictimai xadim kimi fəaliyyəti işıqlandırılıb. Hadisələr çalışdığı Mərkəzi Göz Klinikasında lentə alınıb. Kadrlarda həkimin xəstələrlə tanışlığı, cərrahiyyə əməliyyatı aparması, həkimlərlə söhbəti lentə aydın alınıb. Bu epizodlarla bərabər onun haqqında ictimai xadim kimi də söhbət gedir. Filmdən bəlli olur ki, o bir çox ölkələrdə olmuş, beynəlxalq konfranslarda, simpoziumlarda iştirak etmişdir. Ümnisə xanım kimi dəyərli bir simanın gələcək nəsillərə tanıdılması üçün bu film müasir dövrdə əvəzsiz sənəd tapıntısıdır.

Ümnisə xanım Qəbələnin qədim nəsillərindən olan Musabəyovların ziyalı nümayəndələrindən biridir. Bu nəslin yüzlərlə tanınmış siması tək Azərbaycanda deyil, dünyanın müxtəlif yerlərində ad-san qazanıblar.

Süleyman bəyin ailəsində dünyaya göz açan Ümnisə, Yusif, Əfruz dünya şöhrətli Azərbaycan alimləridir. Kimya elmlər doktoru, professor, Paris Beynəlxalq Elm tarixi və Fəlsəfə Akademiyasının müxbir üzvü Yusif Süleymanbəy oğlu Musabəyovun adı da ASE–na düşüb. Ölkəmizdən kənarda Yaroslavl şəhərinin mərkəzində Yusif Musabəyovun heykəlinin ucalması, kimyaçı alimin xatirəsinin əziz tutulması bu diyarda onun şöhrətindən xəbər verir. Hazırda Qəbələ rayon Tarix-Diyarşünaslıq muzeyində Musabəyovlar nəsli haqqında qiymətli materiallar var. Muzeyin direktoru, əməkdar mədəniyyət işçisi Xalis Məmmədov bu barədə zəngin faktlar toplayaraq xeyli sayda sənəd əldə edib. Kitabdakı bir neçə şəkil bu muzeydən, Xalis müəllimdən əldə edilib....

Ümnisə Musabəylinin 110 illiyi münasibəti ilə yazılan bu kitabda alimin elmi fəaliyyəti ilə yanaşı, onun ictimai xadim kimi fəaliyyətinə də nəzər salınır. Kitabda alimin zəkasından nurlanan, onun tələbi və təkidi ilə oftalmologiyaya qədəm qoyan və sonradan Ümnisə xanımın ideyalarını doğruldaraq,

özlərini elm aləmində təsdiqləyən yetirmələri müəllimləri ilə bağlı ən kövrək xatirələrini bölüşürlər.

Bu insanlar aradan uzun illər keçməsinə baxmayaraq Ümnisə xanımı dünən kimi xatırlayır, ən kiçik nüansı belə, olduğu kimi hafizələrində saxlayırlar. Professor Rafiq Əsgərov danışır ki, Ümnisə xanım unudulan müəllimə deyil, o kimə dərs deyibsə hamının yaddaşına əbədi yazılıb. "Yaddaşlara əbədi yazılan insan" adlı yazıda ATU-nun "İnsan anatomiyası" kafedrasının professoru, tibb elmləri doktoru, əməkdar elm xadimi Rafiq Əsgərovun kövrək düşüncələri öz əksini tapıb...

Dəyərli oxucular, Ümnisə xanım haqqında topladığım materiallar kifayət edərdi ki, bu faktlara əsaslanaraq müəllif kimi alimin fəaliyyəti ilə bağlı bəzi mülahizələr söyləyim. Ancaq qərara gəldim ki, onu yaxından görən, alimlə ünsiyyətdə olan insanların, onun tələbələrinin söhbətlərini olduğu kimi, nöqtəsinə, vergülünə toxunmadan, necə varsa, eləcə oxuculara təqdim edim. Düşündüm ki, dinlədiyim bu ziyalıların söhbətlərini öz dillərindən eşitmək daha inandırıcı olar və onların hər birinin həqəqətdə, reallıqda tanıdığı Ümnisə Musabəylinin şəxsiyyəti oxuculara, gənc nəsilə daha gözəl tanıdıla bilər.

Bu kitabın araya-ərsəyə gəlməsində müəllifə yardımçı olan bütün insanlara, kitabın çapını təmənnasız boynuna götürən **«Nasir» nəşriyyatının direktoru** ***Famil Kərimova***, şəxsi arxivindən aldığımız bir neçə fotoya və soykökü ilə bağlı yazıya görə tarixçi alim Ədalət Tahirzadəyə, Qəbələ Tarix və Diyarşünaslıq muzeyinin direktoru, əməkdar mədəniyyət işçisi Xalis Məmmədova, Qəbələ rayon icra hakimiyyətinin məsul işçisi Zahir Kərimova, "Ümnisə Musabəylinin şəxsi fondu" ilə bizi yaxından tanış edən Respublika Dövlət Elm və Texnika Sənədləri arxivinin direktoru Şahsuvar Haşımova, eyni zamanda, Ümnisə xanımla bağlı həmsöhbət olduğum dəyərli ziyalıların hamısına bir daha təşəkkürümü bildirirəm. Ümnisə

xanım haqqında danışan bu insanların hamısının bircə qayəsi budur ki, alimi gənc nəsilə tanıda bilək, Azərbaycan aliminin doğum gününü, yubileyini xatırlatmaqla, elm tariximizin bu əfsanəsini sabahkı nəsillərə tanıdaq…

Ümnisə xanım sənətini özündən də çox sevirdi. Bi fikirlər kitabdakı əksər yazılarda qeyd olunub. Çünki o özünü cərrahiyyə stolundan ayrı təsəvvür edə bilmirdi, qaranlıq aləmin nurlandırması missiyasını üzərinə götürən cərrah alim bu amalla yaşayır, yaradırdı. Günlərin bir günü fikirləşəndə ki, daha əməliyyat otağına girə bilməyəcək, kiminsə gözünə işıq verməyəcək, onun özünün gözlərində işıqlı aləm qaranlığa büründü. Deməк həyatının sonu imiş...Allah rəhmət eləsin.

Alimin ölümü təkcə tibb aləmində deyil, bütün el-obada ağır faciə sayıldı. Hamı Ümnisə xanımın itkisinə təəssüflənir, qüdrətli bir elm xadiminin yoxluğuna sarsılırdı. Həkim endokrinoloq Lalə Səlimxanova danışır ki, "1974-cü ildə birinci kursda oxuyurdum. Mühazirə vaxtı institun rəhbəri və dekan içəri girdi və göz yaşları içərisində bizə elan etdi: "Bu gün tibb elminə ağır faciə üz verib, dünya şöhrətli Ümnisə Musabəyli vəfat edib". Həmin günü, alimlərin göz yaşlarını ömrüm boyu unuda bilmirəm. Professor Dəmir Hacıyevin hönkürtüsü indi də qulağımdadır. Onu tanıyanların hamısı ağlayırdı, bütün institut Ümnisə xanıma yas saxlayır, auditoriyaların hər birində Ümnisə xanımın şəxsiyyətindən söz açılırdı... Böyük alimin ruhu şad olsun. Sağlığında əbədiləşən, ürəklərdə heykəlləşən Ümnisə xanımın əziz xatirəsi qarşısında bir daha baş əyirəm"....

**Şəlalə Məhyəddin qızı**

## ÜMNİSƏ XANIM MUSABƏYOVA - QƏBƏLƏ SULTANLIĞININ YADİGARI

Ümnisə xanımım ulu babaları yüzillər boyunca Qəbələnin ən adlı-sanlı sülalələrindən – sultanlardan olub və təəssüf ki, qanlı kommunist itticası illərində bu nəslin bütün davamçıları öz zədagan köklərini danmağa, bu haqda susmağa məcbur ediliblər, çünki hakimiyyəti qanla ələ keçirmiş tərbiyəsiz, nadan və savadsız muzdur və dilənçi balaları yüksək mədəniyyətli kübar insanları özlərinin allahsız və qaniçən "proletariat diktaturası"na ən böyük qorxu sayaraq onları kütləvi şəkildə məhv edirdilər. Bu zadəganların tarixi yazılmış əsərlər, soykötükləri yandırıldı, cırıldı, onlara məxsus bütün madd-mədəniyyət izləri aradan götürüldü, sonucda, o şəxslərin indiki nəsilləri əsl tarixi gerçəkliyi bütünlüklə unutdu. Ancaq nə yaxşı ki, Ulu Tanrı allahsız kommunistlərin Tarixi yerli-dibli məhv etməsinə imkan vermədi-bir çox dəyərli sənədlər indiyədək qorunub saxlanmaqdadır. Məncə, bu yazıda ortaya qoyulan faktların əksəriyyəti nəinki ümumən Azərbaycan oxucusuna və özəlliklə Qəbələnin adlı-sanlı ziyalılarına, hətta Ümnisə xanımın ən yaxın qohumlarına belə ilk dəfə bəlli olacaq.

Ondan başlayaq ki, Azərbaycan ədəbiyyatı və elminin üç korifeyi-Hacı ismayıl Qutqaşınlı (1809-1861), İbrahim bəy Musabəyov (1880-1942) və Ümnisə xanım Musabəyova (1902-1974) eyni nəsildən çıxıb və bu nəslin bizə bəlli ilk böyüyü Hacı Şəfi sultandır. Faktların şərhinə keçməzdən öncə bildirim ki, Hacı Şəfi sultan sonrakı Qəbələ sultanlığının patriarxıdır.

Qəbələ rayonunun Həmzəli kəndindəki qədim Şıx bab pirindən 1978-ci ildə tapdığım Hacı İsmayıl bəy Qutqaşınlı "Səfərnamə"sinin əlyazmasında görkəmli bu şəxs haqqında belə yazır: "Bu torpaqları mühafixət etməyə (qorumağa. – Ə.T.) nə qədər qanlar babamız töküb və özümüz nə qədər

zəhmət çəkmişik abadan etməyə. Bu saatda nəzərə Dəvəbatan sərkərdəsinin müqabilində şikəst olub (qarşısında məğlub olub. Ə.T.), tərki-vətən edib, əlhal (indi. –Ə. T.) nəslinin Ərəbistan və Şam məmləkətində vətən qərar tutmağı xatirimə gəldi”.

Xatırladım ki, Səfəvilərin adından imperiyanı idarə edən naibüssəltənə Nadir xan (sanrakı Nadir şah) Osmanlılara arxayın olaraq ona itaətdən boyun qaçırmış Qəbələ ağası Surxay xana (eləcə də Dağıstan xanlarına) “qulaqburması” verməkçün Təhmasib xan Cəlayirin başçılığı altında quzeyə 12 minlik qoşun yollamışdı. Həmin qoşun 1734-cü ilin 3 oktyabrında Qəbələ ilə Şamaxı arasında bir tərəfi dağa, o biri tərəfi meşəyə bitişik “Dəvəbatan” adlı yerdə Surxay xanın 20 minlik ordusunu darmadağın etdi (bu hadisədən A.A. Bakıxanovun “Gülüstani-İrəm”ində geniş danışılıb). Bu vuruşmada Surxay xanın qoşununda döyüşən Hacı Şəfi sultan yurdundan didərgin düşdü və ailəsini də götürərək Ərəbistana (indiki Suriyaya ) köçdü.

Sonrakı 25 ildə nələrin baş verdiyi haqqında sənədlər sussa da, 1759-da tarix səhnəsində yenə həmin Hacı Şəfi sultanın nəsli ilə-onun oğlu olan Qəbələ ağası Kəlbəli sultanla qarşılaşırıq.

Bir tarixi qaynaq yazır ki, urmiyalı sərdar Fətəli xan Əfşar “Şuşa qalası üstünə gəlib Qarabağ xanı Pənah xanı özünə tabe etməyə məşğul bulunduğu zaman (1759-da.- Ə.T.)...Şəki xanı Hüseyn xan, qutqaşınlı Kəlbəli sultan və sair Şəki böyükləri ilə hədiyyələr götürüb Fətəli xanın hüzuruna gələrək əczi-izhar edib mərhəmət və kömək dilədilər. Bu vasitə ilə Fətəli xan Şəki xanlığına Hüseyn xanı qoydu”.

Qəbələ ağası Kəlbəli sultan (Məhəmməd) Hüseyn xan Müştaqla çox yaxındı. Ancaq Şəki xanı gələcək qatili- əmisi Hacı Əbdülqadirlə düşmən olduqdan və Kəlbəli sultan da onun əmisinə tərəfdar çıxdıqdan sonra bu yaxınlıq yağılığa çevrildi, xanın qəzəbinə tuş gələn Kəlbəli sultan dustaq

edilərək, 1779-da öldürüldü. Ancaq hakimiyyətdə yenə onun övladları qaldı.

Kəlbəli sultanın varisləri haqqında ən inanmalı qaynaq “Kəlbəli Sultanovlar”ın Azərbaycan Mərkəzi Tarix Arxivində saxlanılan soykötüyü-nəsil şəcərəsidir; həmin soykötüyü “Nuxa qəzası Qutqaşın kəndinin” sakinləri Mehdi bəy və Alı bəy Sultanovların nəsillərinin bəylərdən sayılması haqqında 10 iyun və 2 iyul 1874-də verdikləri ərizəyə əsasən tərtib edilib.

Adı çəkilən soykötüyündən Kəlbəli sultanın dörd oğlunun: Əhməd sultan, Məhəmməd sultan, Nəsrullah sultan və (Hacı) Şəfi sultanın adları çəkilir və onların nəsilləri incəliklə sadalanır. (Qutqaşınlının qohumu Zabitə Mustafayeva bu sənətdə adı keçməyən İbrahim sultanın da Kəlbəli sultanın oğlu olduğunu mənə bildirmiş və demişdi ki, onun nəsli indi Türkiyədədi, ancaq bu fikri təsdiqləyəcək heç bir qaynaqla üzləşməmişəm).

Əhməd sultanın nəsli Kəlbəli sultan övladları içərisində ən qol-budaqlısıdır.

Ümnisə xanım Musabəyova da məhz bu nəsildən olduğuna görə onun üzərində ayrıca dayanıram.

Sözü gedən soykötüyündə Əhməd sultanın dörd oğlunun olduğu göstərilib, poriçik Hacı Bala bəy, praporşik Hacı Musa bəy, Əzim bəy, Hacı Ağarazi bəy (1824-?).Burada onların övladları da sadalanır:

1) Hacı Bala bəyin övladları: Qutqaşın naibi praporşik Hacı İbrahim bəy (1814-?), Hacı Nuh bəy, Hacı Qədir bəy, Əhməd bəy;

2) Hacı Musa bəyin övladları: Züleyxa xanım(1834-?), Zöhrəncə xanım (1837-?), Mehdi bəy (1837-?), Xacə xanım (1849-?), Yusif bəy (ölüb)

3) Əzim bəyin övladları: Şirin bəy (1846-?), Məhəmməd bəy (1854-?):

4) Hacı Ağarazi bəyin övladları: Ağasi bəy (ölüb), Abdulla bəy (1854-?), Ümnisə xanım(1862-?).

Beləliklə, bu gün əlimdə olan bütün yazılı və şifahi tutarqalara söykənərək bildirirəm ki, Ümnisə xanım Musabəyova Əhməd xanın kötükcəsidir - o, sultanın oğlu Hacı Musa bəyin oğlu, Sarya xanımla ailə qurmuş Mehdi bəyin (1837-?) oğlu Süleyman bəyin qızıdır.(Süleyman bəy Ümnisə xanımdan başqa Yusif, Fatma, Əfruz və Şamilin də atasıdır).

Yuxarıda dedim ki, görkəmli yazıçımız ilk Azərbaycan kinofilminə adı verilmiş "Neft və milyonlar səltənətində" kimi möhtəşəm bir əsərin müəllifi İbrahim bəy Musabəyov (1880-1942) da Əhməd Sultanın soyundandır. O, Ümnisə xanımın babası Mehdi bəyin (1837-?) oğlu, başqa sözlə, professorun dostdoğma əmisidir. İbrahim bəyin üç övladı olub: Mehdi bəy (uşaqkən ölüb), Sarya xanım (?-1924), Zemfira xanım (20.05.1912-də doğulub, bir neçə il bundan qabaq Astaranın Ərçivan kəndində dünyasını dəyişib).

İndiyədək verdiyim bilgidən aydınlaşır ki, Hacı Şəfi sultan və Kəlbəli sultan həm hacı İsmayıl bəy Qutqaşınlının, həm də İbrahim bəy və Ümnisə xanım Musabəyovların ortaq ulu babalarıdır. Onların kökü yalnız Kəlbəli sultandan sonra ayrılır. Beləki Kəlbəli sultanın bir oğlu Hacı Nəsrullah sultan H.İ.B.Qutqaşınlının atası, o biri oğlu - Əhməd sultansa Musabəyovların ulu babasıdır.

Yeri gəlmişkən, 1874 tarixli soykötüyündə Nəsrullah sultanın oğullarından yalnız poruçik Hacı Ağa bəy Qutqaşınlıyla, Hacı İsmayıl bəy Qutqaşınlının adları çəkilib. Ancaq mən Nəsrulla sultanın Hüseyn bəy Qutqaşınlı və Hacı Yəhya əfəndi Qutqaşınlı adlı oğullarının olduğunu da müəyyənləşdirmişəm.Hüseyn bəyin (?-1861/62) məzarı Hacı İsmayıl bəyin Qəbələdəki qəbrinin yaxınlığındadır və onun indi yox edilmiş başdaşını 1981-də şəxsən özüm oxumuş və estampını da çıxarmışam (indi də məndədir). Hacı Yəhya əfəndiyə gəlincə, onun fəlsəfi-əxlaqi mövzudakı "Hüsni-xülq" adlı türkcə

əlyazmasını (1844) taparaq mətbuatda dərc etdirmişəm. Hacı Yəhya əfəndi dünyasını dəyişəndən sonra həmin əsərin üzünü köçürmüş şagirdləri onu "islamın şeyxlər şeyxi", "bilicilərin və görkəmli adamların xaqanı", "müctəhidlərin varisi", "millətin və dinin alovu", "həzrət" adlandırıb, bu isə alimin öz dövründə çox nüfuzlu adamlardan biri olduğuna sübutdur.

Böyük Salman Mümtazın (1884-1941) araşdırmalarında Hacı İsmayıl bəyin Hacı Abdulla bəy adlı qardaşının da olduğu və onun öncə İstanbula, sonra Məkkəyə köçdüyü, orada uzun müddət yaşayaraq vəfat etdiyi bildirilir.

Beləliklə, buradək deyilənlərə belə yekun vurmaq olar: görkəmli alim Ümnisə xanım Musabəyova da öz yaxın qohumları Hacı İsmayıl bəy Qutqaşınlı və İbrahim bəy Musabəyov kimi çox qədim bir zadəgan nəslindən çıxıb və həmin nəsil Qəbələ torpağında ən azından üç yüz ildir yaşamaqdadır.

**Filoloq-mətnşünas, tarixçi, publisist, filologiya üzrə fəlsəfə doktoru, professor Ədalət Tahirzadə**

## MUSABƏYOVLAR HAQQINDA BIR NEÇƏ KƏLMƏ, YAXUD ƏZIZ XALAM ÜMNISƏ MUSABƏYLI ILƏ BAĞLI XATIRƏLƏRIM

Mən adlı-sanlı bir soyun, məşhur Musabəyovlar nəslinin nümayəndəsiyəm. Babam Süleyman bəy hüquqşünas idi. Sənəti ilə bağlı bir neçə yerdə yaşayıb. O, Qərbi Azərbaycanda ciddi cinayət işləri üzrə müstəntiq işləyərkən, xalam Ümnisə xanım dünyaya gəlib. Anam Əfruz xanım isə Ağdaşda doğulub. Ancaq harada işləsə də, babama öz doğma ata ocağı daha əziz idi...

Süleyman bəyin səkkiz övladı olub. Musabəyovlar ailəsində xüsusi nizam-intizam hökm sürürdü. Babamın əlində həmişə qamçı olardı. Atdan düşən kimi sürahının dirəyindən asırdı. Adi yemək mədəniyyəti, süfrə arxasında oturuşu-duruşu ilə seçilirdi. Tünd xasiyyətli insan olduğundan onun üçün açılan süfrədə çəngəli, biçağı öz yerində olmalı, hər şey nizamla düzülməli idi. Kimsənin cürəti tapılmazdı ki, sözünün üstünə söz qoya. Süleyman bəyin Qutqaşında (indiki Qəbələ) varlı mülkü olub. İnqilab gələndə o bütün varidatını satıb. O zaman deyirmişlər ki, Süleyman bəyin başına hava gəlib, varını-yoxunu dağıdır. Babam isə sonralar bizə deyirdi ki, əgər mən satmasaydım, gəlib əlimdən alacaqdılar. Sovet dövründə isə vəkilliklə məşğul olub.

Nənəm Məryəm xanım isə əsl xanım-xatın, uşaqlarına gözəl ana və mehriban ömür-gün yoldaşı idi. Bir vaxtlar Qori şəhərində işləyən babam Süleymanın ağlını başından alan Məryəm xanım ömrünün sonuna kimi əhdinə vəfalı, sevgisinə sadiqlik nümayiş etdirdi.

O, övladlarının ziyalı yetişməsi üçün öz üzərinə düşən bütün vəzifələri yerinə yetirib. Məsələn, nənəm Cənubi Qafqazın canişini Vorontsov-Daşkova məktub yazıb, xahiş eləyir ki, qızlarının təhsil alması üçün himayədarlıq etsinlər. Məktuba müsbət cavab verilir. Vəsilə, Fatma və Ümnisə Musabə-

yovalar H.Z.Tağıyevin tikdirdiyi məktəbdə, Qızlar seminariyasında təhsil alırlar...

Böyük xalam Vəsilə xanımın əri Yaqub bəy Axmetyev sovetlərə qarşı Zaqatalada üsyan etmiş üsyançıların qərargah müdiri idi. Onları məğlub etdilər, üsyanda iştirak edənləri isə cəzalandırmağa başladılar.

Həmin vaxt onların 2 yaşında Orxan adlı bir oğlanları var idi. Bir gün xəbər verirlər ki, Vəsilə xanımın axtarışda olan əri gecə evində olub. Xəbəri eşidən kimi gəlib xalamı aparırlar. Mənim nənəm Məryəm xanım bu işə baxan erməni komissarı Atayanın yanına gedir, ondan xahiş eləyir ki, qızının cavan yaşını, (Vəsilənin 21 yaşı var idi) ikiyaşlı körpə övladının olmasını nəzərə alsınlar. Həmin Atayan nənəmə deyur ki, “ xala, sən get, axşam qızın evə qayıdacaq”. Məryəm nənə evə qayıdır və axşam isə ailəyə qızın ölüm xəbəri verilir. Nargin adasında Vəsilə xanım güllələnir və çox ehtimal ki, dənizə atılır. Nə məzarı bəllidir, nə də əlavə məlumat yoxdur. Hər iki talesizin qara bəxti Orxandan da yan keçmir. 1942-ci ildə orduda xidmət edərkən, hospitalda vəfat edir...

(Yazıçı, jurnalist Şəmistan Nəzirli yazır: Kapitan Yaqub bəy Sadıq bəy oğlu Axmetyev - milliyyətcə tatardır. 1894-cü ildə Tiflisdə anadan olub. 1914-cü ilin sentyabrında Tiflisdəki kadet korpusunu bitirmişdir. 1917-ci ilə kimi Türkiyənin Ərzincan şəhərində yerləşən 39-cu diviziyanın Quba alayında xidmət etmişdir. 1918-ci ildə Azərbaycan Milli Ordusuna könüllü daxil olmuşdur. Bir il sonra Zaqatalaya komendant təyin edilmişdir. 1920-ci il iyulun 9-da Şəki və Zaqatalada bolşeviklərlə qarşı başlanan üsyanın başçılarından biri idi. Zaqatala qalasını tutan üsyançılar kapitan Yaqub bəyin başçılığı ilə on beş gün bolşeviklərə qarşı vuruşur. İyunun 20-də komendant - kapitan Yaqub bəy Axmetyev yaralanıb ələ keçmiş və bolşeviklər tərəfindən edama məhkum edilmişdir. Az müddət Zaqatala qalasında saxlanan mərd kapitan Yaqub bəy ağır yaralı halda kameranın divarına

yazmışdır: “Mən kapitan Axmetyev ölüm hökmü altında yatıram. Heç bir cinayət eləməmişəm. Vətənim Azərbaycanın azadlığı uğrunda bolşeviklərə qarşı vuruşdum. Müsavat zabiti olduğuma görə güllələnməyə məhkum olmuşam”. Həyat yoldaşı Vəsilə xanım Musabəyova Bakı rus-müsəlman qız məktəbində müəllimə idi. Bolşeviklər Yaqub bəyə edam olunması haqqında qərar oxuyanda, “Qorxma, mətin ol, nahaq axıdılan qanın intiqamını unutmarıq.” - deyə hayqırdığı üçün Vəsilə xanımı Cənub cəbhəsi tribunalının sədri cəllad Georgi Atarbekov (Atarbekyan) özü güllələmişdir. Qadına əl qaldıran nadan Atarbekyan sonralar da “fəxrlə” deyirmiş ki, Vəsilə xanım Musabəyovanı və əri Yaqub bəy Axmetyevi özüm güllələdim...Müəllif Ş. Məhyəddin qızı ).

Süleyman bəyin oğlu Əmirin də taleyi gətirməyib. Leninqradda ali təhsil alıb, elə orada da işləyirdi. 1942-ci ildə, müharibə dövründə maliyyə işləri üzrə komissar idi. Diviziyaların birində yoxlamada olarkən, orda mərmi partlayır, o da hadisə yerində ölüb. Həmin yerdə də dəfn olunur.

Xalam Fatma xanımın birinci ixtisası mühasib idi. 44 yaşında birdən-birə həkimlik sevdasına düşür. O zaman Ümnisə xanım əlaqədar orqanlara məktubla müraciət etdi və onun məktubuna müsbət cavab gəldi. Fatma xanımı Tibb institutuna qəbul etdilər. Tibb institutunu bitirdi və Ümnisə xanımın təkidlərinə baxmayaraq şəhərdən kənarda, kənddə çalışmaq istədiyini söylədi. Taleyini Kürdəxanı kəndinə bağladı. Əri Hacıbala Abbasov da həkim idi. Repressiya illərində onu və Ümnisə xanımın həyat yoldaşı İbrahim müəllimi qara siyahıya saldılar. Ancaq İbrahim müəllimdən fərqli olaraq, onu tez buraxdılar. 39-cu ildə vəfat etdi. İbrahim müəllimlə yaxın dost idilər. Onun ölüm xəbərini də İbrahim müəllimdən gizlətdik, ancaq 1944-cü ildə ölümünü eşitdi və çox sarsıntı keçirtdi...

Ailədə Fatma xanımdan sonra Ümnisə xanım idi....

Dayım Yusif də məşhur alim idi. Görkəmli kimyaçı, böyük alim Yusif Musabəyov Pedoqoji institutu bitirmişdi. Bir müddət Gəncədə işləyib, Kənd Təsərrüfatı institutunda dərs deyib. O ixtiraçı alim idi. Müharibə vaxtı onun elmi tapıntılarından istifadə edilib. Məsələn, quru spirti icad etmişdi. Cəbhədə yeməklərin qızdırılmasında və digər əhəmiyyətli işlərdə istifadə edilirdi.

O, Azərbaycandan kənarda yaşadı. Millətsevər insan idi, ölkədən gedəndə də ağlaya-ağlaya yola düşdü. Biz onu qatarla yola saldıq. Əvvəllər Saratovda işlədi, sonra Moskvada namizədlik və doktorluq dissertasiyalarını müdafiə etdi. Onu Yaroslavl universitetinə dəvət etdilər. Həmin universitetdə kafedra müdiri oldu. Son illər isə kimya tarixi ilə məşğul olmağa başlamışdı. Bu mövzuda bir neçə ciddi əsərləri çap olundu. Bəzi fransız alimləri haqqında kitablar yazdı. YUNESKO-nun müxbir üzvü seçilmişdi. 1966-cı ildə Parisdəki Beynəlxalq Elmi-Tarixi və Fəlsəfə Akademiyasının müxbir üzvü idi. .

Yaroslavlın fəxri vətəndaşı kimi, şəhərin mərkəzində onun heykəli ucaldılıb.Yusif dayımın oğlu da elmlər namizədi, kimyaçıydı. Cavan ikən dünyasını dəyişib. Peşəsi ölümünə səbəb olub. İş yerində kimyavi maddələrlə xeyli çalışır və evə qayıdarkən, yolda yıxılır. Keçdiyi yol isə daldada olduğundan, onu görən olmur, yıxıldığı yerdə donur. Biz onun dəfnində iştirak eləyəndə şəhərdə 37 dərəcə şaxta var idi. Həmin gün Musabəyovların ən ağır faciələrindən biri idi...

Anam Əfruz xanım da tanınmış alim olub. Elmlər namizədi idi, Torpaqşünaslıq institutunda laborotoriya müdiri işləyib. Onun doktorluq işinə maneçilik törətmək istəyənlərə qarşı amansızlıq etdi. Haqqını tələb edən, elmi axtarışlardan yorulmayan, əsl fədakarlıq nümayiş etdirən ziyalı olduğunu təsdiqlədi. Doktorluğu müdafiə edərkən ondan püşvət istədilər. O zaman mənim DTK-da yaxın dostum çalışırdı. Onun tapşırığı ilə həmin adama bağlama və istədiyi 500 manat

pulu göndərdik. Əfruz xanım ondan haqq uman həmin o insanı həbs etdirdi. Məhkəmənin gedişində məlum oldu ki, həmin rüşvətxor xüsusən azərbaycanlılara qarşı belə mövqe tuturmuş. 10 il həbsə məhkum edildi....

Qardaşım Yavuz dosentdir, hazırda İsraildə yaşayır. Mən bir müddət Türkiyədə çalışdım və Azərbaycandan kənarda yaşaya bilmədim. 10 ilə yaxın qonşu ölkədə olsam da, yenə də vətəndan ayrı yaşamağa alışa bilmədim. Yenidən öz doğma iş yerimə, Texniki Universitetə qayıtdım...

Əfruz xanım öz el – obasını sevən bir xanım idi. Musabəyovlarla bağlı hər nişanə onun üçün əziz idi. Hətta o bu nəsilə aid nə varsa, hamısı toplayıb, Qəbələ tarix diyarşünaslıq muzeyinə təqdim elədi ki,  bu məşhur nəsil haqqında məlumatlar tarixdən silinməsin. Qəbələdə, muzeydə Musabəyovlarla bağlı guşədə yetərincə məlumatlar toplanıb. Hətta anam bu nəsilə aid bütün qiymətli materialları o muzeyə etibar edib.

O, dəfələrlə deyirdi ki, azəri qızla ailə həyatı qurun, eldən-obadan qız alın ki, doğulan uşaq da əsil azərbaycanlı olsun. Milli əqidəli xanım idi və istəyirdi ki, yer üzünə səpələnən bütün Musabəyovlar bir-birini tanısın. Ən uzaq yerdə yaşayan qohumunu yada salır, çalışırdı ki, onunla da əlaqəni itirməsin. Bizə daim məsləhət verirdi ki, insan birləşəndə bütöv olur, siz bir-birinizə arxa olun, dayaq olun.

Prinsipiallıq bu nəslin qanında idi. Onlar özlərini hər sahədə göstərə bilirdilər. Sözlərini harda yaşamasından asılı olmayaraq yeritməyi bacarırdılar.

Süleyman bəyin sonuncu övladı olan Şamil dayım oğluna öz atasının adını qoyub və hazırda babasının adını daşıyan nəvə Süleyman Türkiyədə yaşayır. Onun qızına, yəni Şamilin nəvəsinə isə Ümnisə xanımın adı verilib....

Ümnisə xanım böyük alim idi. Elm aləminin tanınmış siması olduğu kimi, həm də gözəl insan idi. O, doğmalarını da unutmur, işlərinin çox olmasına baxmayaraq bizə, yaxınla-

rına imkan daxilində vaxt tapırdı. Tez-tez xarici ölkələrə gedir, cərrahi əməliyyatları çox olur, bununla bahəm bizimlə görüşə də zaman ayırırdı. Onun o gərgin həyat tərzindən çox şey öyrənirdik, həyatda uğur qazanmaqdan ötrü çalışmağın, durmadan zəhmət çəkməyin bəhrəsini biz Ümnisə xanımda görmüşdük və işgüzarlığı ilə hər birimizə stimul verirdi...

Xalamla biz çox yaxın idik. Xüsusən müharibə illərini yaxşı xatırlayıram. 1943-44-cü illərdə çox vaxt ona sığınardıq. Az-çox onun evində yeyəcək bir şey tapmaq mümkün idi. O zaman mənim 10 yaşım vardı. Axşamlar onlara gedirdik. Xalam bizə yumru qoğallar bişirirdi. Hətta yadımdadır ki, qardaşım qoğalı tez qurtarmasın deyə, onu fırlada-fırlada çox ehtiyatla yeyərdi. Onlar İçəri Şəhərdə, böyük bir mənzildə yaşayırdılar...

Xalam hamıdan çox məni istəyir, nəyə maraqlı olduğuma fikir verirdi. Mən uşaqlıqdan texnologiya ilə məşğul olurdum. 4-cü sinifdən radio həvəskarı olmuşam. Xalamın dünyagörüşü geniş idi. Bütün sahələrlə maraqlanırdı. Təbii ki, mən də ondan faydalanırdım...

Bizim kafedramız tətbiqi televiziya ilə bağlı olduğundan bizə bəzi obyektlər lazım idi. Yəni yayım televiziyası ilə yox, müxtəlif istiqamətlərdə, elmin, texnikanın ayrı-ayrı sahələrində televiziyanın tətbiqi ilə məşğul olurdu. Məni də tibb aləmi maraqlandırırdı ki, burada görəsən faydalı ola bilərmi?. Elə o vaxt xalam mənə iki ideya vermişdi. Birincisi göz dibinin yoxlanılması, orada məsələn televiziya qurğularından istifadə oluna bilər. Ya da sadə gözün irisində, iridodiaqnostikada tətbiqi mümkündür. Elə o vaxtdan üzü bəri, 70 ildən çoxdur ki, kafedra bu məsələni araşdırır. Hətta bu sahə ilə bağlı bir mütəxəssis kimi, Türkəyə dəvət olunmuşam. Bir müddət qonşu ölkədə bu sahəni inkişaf etdirmişəm.

İridodiaqnostikada televiziyanın tətbiqi bizə nə verir? Bilirik ki, televiziya insanla obyekt arasında bir vasitədir. Obyektin təsviri hansısa şəkildə ekranda canlandırılır və izləyici

onu müşahidə edir. Amma iridodiaqnostikada ola bilsin ki, bəzi şeyləri həkim görməyə bilər. Məsələn, bəzi fəsadlar olduğu halda irisin üzərində o ləkələr aydın görünməyə bilər. Biz texniki üsullarla onları daha aşkar hala gətirə bilirik. Hətta iridodiaqnostikadan başqa, maqnit-rezonans tədqiqatlarında da mən onu Türkiyədə tətbiq etmişəm. Bəzi xəstəlikləri maqnit-rezonans üsullarla yoxlayırlar, ancaq ekranda lazımi məlumatlar olmur. Onu deməli daha aşkar hala gətirmək mümkündür. Yəni bu ideyanı mənə Ümnisə xanım vermişdi ki, belə bir şey ola bilər?. Mən də dedim ki, texniki üsullarla biz o şəkilləri istənilən dərəcədə dəyişdirə bilərik, yəni aşkar olmayan şeyləri daha aşkar hala gətirə bilərik...

Mən Türkiyədə olanda bir dəfə bir göz həkiminə müraciət elədim. O məni müayinə elədi və sonra dedi ki, xocam, siz Azərbaycandansınız?.

- Dedim bəli. Bildirdi ki, mən Azərbaycanda oftalmologiya institutunda magistr olmuşam. Orada Ümnisə Musabəyovanın işləri ilə tanış oldum. Dedim, ancaq siz onun ideyalarına əməl etmirsiniz. Dedi necə? Xalam həmişə deyərdi ki, əgər sizin yanınıza bir xəstə gəlirsə, bu xəstənin yaşı 40-dan keçibsə, ilk növbədə, onun göz dibini yoxlamalısınız. Çünki hələ üzə çıxmayan xəstəliklər barədə göz dibində informasiya var. Və siz göz dibinə baxıb, qabaqcadan diaqnoz qoya bilərsiniz. Heç olmasa ekspres diaqnoz. Sonra şübhələnən sahənin ixtisaslı həkimi ilə xəstəliyin dəqiq diaqnozu təyin edilər...

Yadımdadır ki, bir gün xalam bizə gələndə gördü ki, mənim oğlumun dırnaqları lay-lay qopur.

Dedi ki, Fuad göstər barmaqlarını, biz də dedik ki, nə eləyirik, xeyri yoxdur. Dedi sabah gələrsən klinikaya, mən yoxlayacam. Mən qayıdıb dedim ki, dırnaq hara, göz hara?. Dedi yox, əlaqəsi var. Apardım uşağa xalam baxdı və dedi ki, belə bir şey var. Çəngəlvari vəz, "viloçkova jeleza". Bu oğlanlarda yetkinlik dövründə başlayır və inkişafda geriləmə

müşahidə olunur. Xalamın məsləhəti ilə endokrinoloqa müraciət elədik. Endokrinoloq diaqnozu təsdiqlədi və bir tabletka yazdı, iki günə getdi. Ümnisə xanımın həkimliyi yüksək səviyyədə idi.

Yaxşı yadımdadır. 1968-ci ildə mən namizədlik dissertasiyasını müdafiə eləyəndə "İnturist"də ziyafət verildi. Məslicə gələnlər Ümnisə xanımı tərifləməyə başladılar. Dedi ki, "yox, bu gün mənim günüm deyil, bu məclis Çingiz üçün təşkil olunub, bu gün məhz onun günüdür. Biz hamımız Çingizin uğurlarından danışmalıyıq, ona dəyər verməliyik...". Həqiqətən Ümnisə xanım yaşından asılı olmayaraq hamıya hörmət edər, dəyər verərdi.

Xalamın əri İbrahim İsmayılzadə görkəmli elm xadimi idi. Tibbi təhsilini Almaniyada davam etdirib. Çox bilikli insan idi. 1938-ci ildə repressiya zamanı, həbs olundu. Onun Əlirza adında Almaniyada birgə oxuqları yaxın uşaqlıq dostu var idi. Əvvəlcə, o tutuldu. Sonra ən yaxın dostu olduğundan İbrahim müəllimi göz altına saldılar. İki ildən sonra, 1940-cı ildə məhkəməsi oldu. Məhkəmə onun Trotski dərnəyinə qatıldığını isbat etməyə çalışsa da, heç nə sübut edə bilmədi. Bilirik ki, o dövrdə dəlil-sübuta ehtiyac yox idi, kimdən şübhələnirdilərsə, onu da aradan götürürdülər. Həqiqəti gizlədən insan deyildi, hətta illər keçəndən sonra da İbrahim müəllim günahsız yerə tutulduğunu söyləyirdi. 2 il burda yatdı. Məhkəmə ona 5 il iş kəsdi. Göndərdilər Sibirə...

1944-cü ildə Mir Cəfər Bağırovda ekzema xəstəliyi əmələ gəlir. Heç kəs də müalicə eləyə bilmir. XDİK-dən (rus dilində NKVD adlanırdı) deyirlər ki, ekzema üzrə Almaniyada yetişdirilən çox böyük bir professor var. Amma o indi Sibirdədir. Bağırov tapşırır ki, "gətirin onu". İbrahim müəllim danışır ki, "bir gün dedilər ki, geyin, gedirik". Mən də dedim ki, görəsən indi neyləyəcəklər. Vaqona mindirib, Bakıya gətirdilər. Düzdür Bakıda sərbəst buraxdılar, ancaq hər həftə qeydiy-

yata gedirdi. Bizimlə xudafizləşib yola düşürdü ki, "bilmirəm qayıdacam, ya yox?".

Bağırovu müalicə eləyəndən sonra onu göndərdilər Türkmənistanın Xəzər sahilinə, Nebitdağ şəhərinə. Orada bənna işləyirdi. 46-cı ildə qayıtdı Bakıya. Bakıda da iş vermədilər. Məcbur olub, Gəncədə, qardaşının yanında yaşamalı oldu. Müharibə vaxtı atam Gəncədə energetik işləyirdi, mən də onun yanında idim.

Ümnisə xanım bir müddət sevdiyi insandan ayrı qaldı. Qızları Dilarəni tez-tez atasının yanına göndərsə də, özü ondan ayrı yaşamaq məcburiyyətində idi.

Nəhayət, 1948-ci ildə ömür gün yoldaşının Bakıya qayıtmasına icazə verdilər. O, Dəri Zöhrəvi Dispanserdə işə düzəldi. Ancaq həyatı boyu yaşadığı mərhumiyyətlər qəlbində izini qoyubmuş. 1962-ci ilin dekabrında infarkt oldu, bir neçə gündən sonra xəstəlik yenidən təkrarlandı. Böyük alimin ömür yolu bura qədər imiş.

O danışırdı ki, sürgünlükdə yaşadığı illərdə nələrin şahidi olmayıb. "Düşərgədə mənə "baş həkim" vəzifəsi tapşırılsa da, işləmək üçün bizə dərman vermirdilər və özümüz bitkilərlərdən müalicə vasitəsi hazırlamalı olurduq. Dəri xəstəliyinə tutulan vəzifə sahibləri şərt kəsirdilər ki, ya məni sağaldacaqsan, ya da öldürüləcəksən". Belə ağır şəraitdə yaşayan alim həkimin hər günü bir ilə bərabər imiş...

O, sağ ikən biz həkimə müraciət etməzdik. Çünki o, hərtərəfli yüksək biliyə malik idi. Ancaq repressiya illərində Ümnisə xanımı incitmədilər. Hətta o ərəfədə professor oldu. Kafedra müdirliyi ona tapşırıldı. Göz xəstəlikləri institutunda şöbə müdiri idi.

Ümnisə xanımın xarakteri ötkəm idi. Atamın, akademik Azad Əfəndizadənin bir sözü vardı. O həmişə deyirdi: "Musabəyovların xanımları prinsipial insanlardır".. Yəni onlar güzəştə gedən adamlar deyil. Doğruya-doğru, yalana-yalan deyirdilər. Mənim anam doktorluq dissertasiyasını müdafiə

edəndə ondan rüşvət istədilər. Anam bunu özünə qarşı təhqir saydı və haqqını tələb etdi. Həmin adam 10 il iş aldı. Sovet hökumətində bu hadisə böyük səs-küyə səbəb oldu. Bizim ailəmizdə, nəslimizdə rüşvət olmayıb, nə də rüşvətlə, haqq-hesabla heç nə əldə olunmayıb. Əyri işlərdən həmişə uzaq olmuşuq.

Ümnisə xanım ötkəm olsa da, ailədə başçı İbrahim müəllim idi. Hər zaman İbrahim müəllimin sözü keçərli idi. Qadını isə evin xanımı idi. Onlar bir-birini çox sevirdilər. Tanışlıqları Tibb institutundan başlamışdı. İbrahim müəllim həmişə zarafatla deyirdi ki, "bir gün mən bu qaraca qızı gördüm və ona aşiq oldum".

Ümnisə xanım işinə, sənətinə bağlı insan idi. Hər cəhətdən nümunə idi. Qadına xas olan səliqə-səhmanıyla diqqət çəkirdi. Hələ bir dəfə olsun, onu səliqəsiz görkəmdə görmədik. Heç vaxt ruh düşkünlüyünə qapılmazdı. Həyatında nə qədər çətinliklər olsa da, bir an belə sarsılmazdı, öz işiylə məşğul idi. Hətta yaşanılan hadisələrdən mütəəssir olsa da, o bunu biruzə verməzdi. Baxmayaraq ki, o hələ gənc qadın idi. Əri tutulanda 36 yaşı var idi. 1948-ci ilə qədər ərindən ayrı yaşayıb. Bəlkə də Ümnisə xanımın prinsipiallığı, sərtliyi müəyyən dərəcədə bu amillə bağlı idi.

Ümnisə xanımın təbiətində hökmranlıq var idi. Hər bir halda bacılar onunla razılışmaq məcburiyyətində qalırdı. Xüsusən, Əfruz xanım sözünün üstünə söz deməzdi.

Xalam həmişə deyərdi ki, mən bu həyatda kiməsə möhtac olub, yaşaya bilmərəm. Biləndə ki, dərdinə əlac yoxdur, ölümünə doğru özü tələsdi. O, həyatdan, yaşamaqdan və işləməkdən zövq alan insan idi. Özünü fəaliyyətsiz, işsiz təsəvvür edə bilmirdi. Elə bu məqam gələndə də Ümnisə xanım gördü ki, yaşamaq onun üçün çox çətindir. Bir dəfə dərmanlarla həyatına qəsd etdi və ancaq anamın tez duyuq düşməsi nəticəsində ölümün caynağından alındı. Ikinci dəfədə isə xilası mümkün olmadı. Öz vəsiyəti ilə sevdiyi insanın böyründə,

İbrahim İsmayılzadənin yanında torpağa tapşırılıb. Mənim sevimli xalam, Azərbaycanın sevilən alim qızı Ümnisə xanım bu dünyayla könüllü vidalaşaraq, həyata əlvida etdi, son mənzilinə yola düşdü. Yaddaşımızda gözəl çöhrəsi, gülərüz siması, qəlbimizdə isti nəfəsi, əziz xatirəsi qaldı. Qəbri nurla dolsun!.

**Azərbaycan Texniki Universitetin "Televiziya və radiosistemlər" kafedrasının professoru Çingiz Əfəndiyev**

## ÜMNİSƏ MUSABƏYLİ - 110
## MƏRAMI DÜNYADA QALAN QÜRURLU İNSAN, BÖYÜK ALİM, BƏNZƏRSİZ MÜƏLLİM

Azərbaycanın Sovetlər İttifaqı tərkibində olduğu dövrdə onun ən dəyərli alimlərindən, yüksək səviyyəli müəllim və həkimlərindən biri, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, SSRİ və Azərbaycan SSR Ali Sovetinin deputatı, 30 ilə yaxın bir müddətdə (1945-1974) Azərbaycan Dövlət Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri olmuş əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Ümnisə Süleyman qızı Musabəyli idi.

110 il bundan əvvəl dünyaya gəlmiş, özünün genetik kodunun dayanıqlığından yaranan erudisiyası, istedadı və yorulmaz zəhmətsevərlik çələngi ilə dünyada əks - səda yaratmış professor Ümnisə xanım Musabəylini tanımaq, onu görmək, onunla ünsiyyətdə olmaq xoşbəxtliyi mənə XX əsrin 60-cı illərinin birinci yarısında tələbə olduğum müddətdən müəssər olmuşdu. Həmin illərin ikinci yarısının sonu və XX əsrin 70-ci illərinin birinci yarısında isə elmi araşdırmalarının nəticələrinə görə ölkəmizin sərhədlərini aşaraq xarici ölkələrdə də tanınan Azərbaycanın böyük alimini ATU-nun müəllimi vəzifəsində çalışdığım dövrdə, artıq müəllim gözü ilə seyr etmişdim. Onu da deyim ki, ali məktəbdə təhsil alan müddətdə tələbələrə dərs deyən bütün müəllimlərin heç də hamısı eyni dərəcədə onların yaddaşında əbədi yer tuta bilmir, müəyyən qismi də sonralar tamam yaddan çıxır. Mən əminliklə deyə bilərəm ki, millətimizin görkəmli nümayəndəsi olan Ümnisə xanım Musabəyli tək mənim yox, tanıdığım bütün tələbələrin qəlbinə əbədi həkk olunmuş nadir müəllimlərdən, həkimlərdən, alimlərdən idi. 50 il bundan əvvəl - tələbəlik illərində mən bir tərəfdən onun mühazirələrini dinləmişdim və o, oxuduğu maraqlı mühazirələri ilə, danışıq və davranış

mədəniyyəti ilə, məğrur qaməti, nüfuzedici və həlim baxışları ilə, hər sahədəki gözoxşayan harmoniyası, simmetriyası və nəcib ünsiyyəti, qibtəedici intellekti, təvazökarlığı ilə yaddaşıma əbədi həkk olunmuşdu. Ona görə də 1966-cı ilin iyun ayında ATU-nun tədris işləri üzrə prorektoru Məsud Əlizadənin təqdimatına əsasən mən institut məzunlarının buraxılış gecəsində çıxış edəndə canlı olaraq səslərini eşidib, üzlərini gördüyüm sevimli müəllimlərimizdən Mustafabəy və İbrahim Topçubaşovların, Fuad Əfəndiyevin, Kamil Balakişiyevin, Cahangir Abdullayevin, Gürşad Hüseynovun, Məmmədəmin Əfəndiyevin, Bikəxanım Əlizadənin, Əhməd Həsənzadənin, Adil Nəcəfovun, Ləzifə Əliyevanın, Aslan Tahirovun, Qüdrət Səlimxanovun, Məhbubə Mahmudbəyovanın, Savalan Ocaqverdizadənin və başqa alimlərimizin adları ilə yanaşı, Ümnisə Musabəylinin də adını bu sırada qeyd etmişdim və ATU-nun məzunları adından onlara təşəkkür və minnətdarlığımızı bildirmişdim.

Digər tərəfdən isə Ümnisə xanımı bizə sevdirən, ona qarşı dərin rəğbət hissi oyadan o vaxtlar Azərbaycan Tibb İnstitutunun göz xəstəlikləri kafedrasında dosent vəzifəsində çalışan, o kafedrada yaddaşımda unudulmaz xatirə kimi qalan praktika dərsi aparan müəllimimiz – ecazkar təbiətli gözəl insan Ləzifə xanım Əliyeva olmuşdu. Ləzifə xanım öz fənnini sevdirməklə, bizə həyat dərsi də keçirdi və Ümnisə xanımın xarakterinin adi halda görünməyən tərəflərindən, insani keyfiyyətlərindən həmişə şövqlə, həvəslə, ağızdolusu danışardı. Ləzifə xanım Ümnisə xanımın böyüklüyündən danışdıqca, onun özü də biz tələbələrin gözündə böyüyür, ucalırdı. Təəssüf ki, biz az – az hallarda müdirin gözlərindən kənarda öz kafedrasının müdiri haqqında bu qədər xoş sözlər söyləyən müəllimlərə rast gəlirdik. Dosent Ləzifə Əliyevanın dedikləri səmimi və inandırıcı olduğundan bizim qəlbimizdə Ümnisə xanım haqqında tam, bitkin bir obraz yaranmışdı və o obrazın təmizliyi, paklığı, insanpərvərliyi, vətənsevərliyi, azərbay-

cançılığı indi də gözlərim önündədir. Ləzifə xanım deyirdi ki, o, həm işçilərinə, həm də tələbələrə qarşı işin xeyrinə son dərəcə tələbkar olmaqla yanaşı, həm də çox həlim və mülayimdir. Alim qeyd edirdi ki, Ümnisə xanım cərrahiyyə əməliyyatı otaqlarında həm onun üçün, həm də digərləri üçün fərdi qaydada əlverişli şərait yaradılmasına göstəriş vermişdi. O, kafedrada hər kəsin sərbəstliyinə geniş meydan yaradırdı.

Mən ATU-nun müəllimi olduqda da hiss etdim ki, heç də həmişə kafedra müəllimləri kafedranın müdirinin gözündən kənarda onun haqqında belə yüksək fikirlər söyləmirlər və inandım ki, müəllimlər tabeliklərində olduqları insan haqqında yüksək fikirləri onun gözündən kənar yerlərdə o zaman dilə gətirirlər ki, o, həqiqətən belə yüksək fikirlərə və həmişə yüksəkdə, zirvədə olmağa layiq insandır.

ATU-nun müəllimi olduğum müddətdə mən Ümnisə xanımı başqa rakursdan da seyr edə bildim və mənə məlum oldu ki, o, xarici ölkələrdə keçirilən əksər elmi toplantılarda, konfrans və konqreslərdə Azərbaycanı ləyaqətlə təmsil edir və xarici ölkələrdə söylədiyi elmi məruzələrini ingilis dilində yerinə yetirir. O dövr üçün bu, heç də hamıya müyəssər olan bir hal deyildi. Lakin Ümnisə xanımın bu xüsusiyyətləri izsiz ötüşmədi və digər alimlər də onun bu təqdirəlayiq nümunəsindən ibrət götürərək, xarici dilləri öyrənməyə meyl edirdilər.

Professor Ü. Musabəylinin dövründə Sovet İttifaqı Kommunist Partiyasının üzvü olmadan yüksəlmək, şəxsi yaradıcılıqla irəliləyişlərə nail olmaq müəyyən çətinliklər törətsə də, mənim eşitdiyimə görə o, sərbəstliyi sevirdi və birpartiyalılıq dövründə belə, partiya üzvü olmağa meyl etməmişdi. Ümnisə xanımın bu unikallığını həm də dövrün çətinliklərinin, o dövrdə işğal altında, əsarətdə olan xalqların qarşılaşdıqları maneələrin müəyyən ştrixlərinin mövcudluğunun təzahürü idi.

Mən XX əsrin 70-ci illərinin əvvəllərində Azərbaycan Tibb İnstitutunun elmi şura iclasında Ümnisə xanımın alim böyüklüyünün, əsl insana xas olan xüsusiyyətlərinin, mərdi –

mərdanəliyinin daha bir ştrixini müşahidə etdim. İclasda o vaxtkı səhiyyə nazirinin təkidi ilə Azərbaycanın daha bir yenilməz alimi - normal anatomiya kafedrasının müdiri, Azərbaycan Respublikasında elmi anatomiyanın, unikal tədris muzeyinin və tibbi terminologiyanın banisi professor Kamil Balakişiyevin hesabatının dinlənilməsi məsələsi qoyulmuşdu və nazirlikdən sızan məlumatlara istinadən ehtimal edilirdi ki, nazirliyin nümayəndəsinin məqsədində hesabatdan sonra alimin nüfuzuna xələl gətirmək, bununla da onu kafedra müdiri vəzifəsindən kənarlaşdırmaq amilləri kimi məkrli niyyətlər dururdu. Mən bunu böyük alim olan professor K.Balakişiyevin keçirdiyi daxili iztirablı təlaşdan da hiss edirdim. O, işindəki qüsursuzluğunun qüsuruna görə yox, ona qarşı aparılan məqsədyönlü haqsız təzyiqlərə görə təlaş keçirirdi. Bu, hər bir mədəni, büllur kimi təmiz qəlbli, vicdanlı insanın haqsızlığa qarşı verdiyi təbii cavab reaksiyası idi.

Professor K.Balakişiyev iclasa getmək ərəfəsində stolların üstünə düzdüyü kitablara baxaraq, sanki özü – özü ilə danışırmış kimi dedi: “Məni yer üzündən silmək istəyirlər. Məni silə bilərlər... Ancaq bunları (kitablarını göstərdi) silə bilməyəcəklər”. Bu, alimin uzaqgörənliklə dediyi kimi də oldu... Professor K.Balakişiyev elmi şura iclasına köməkçi işçi kimi məni də aparmışdı. O vaxtkı texniki təchizat indiki səviyyədə olmadığına görə professor K. Balakişiyevin unikal əsərlərini, onun yaratdığı nadir tədris muzeyinin yazılı materiallarını, xarici ölkələrin görkəmli alimlərinin, dövlət adamlarının alim haqqındakı, eləcə də kafedra və muzey haqqındakı rəylərinə aid sənədləri, tarixi foto - şəkillərə aid albomları (bu albomlar əl - əl gəzdi və hamı özünü orada tapmağa çalışırdı) da elmi şura üzvlərinə mən orijinalları göstərməklə nümayiş etdirirdim. Həmin iclasda hesabat qurtaran kimi çıxışlar başlandı və bir neçə alim söz alıb bəzilərinin gözləmədiyi halda professor Kamil Balakişiyevin hesabatının əla qiymətlən-

dirilməsini, onun Azərbaycan SSR Elmlər Akademiyasına müxbir üzv seçilməsi haqqında namizədliyinin irəli sürülməsini, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi üçün elmi şurada qərar çıxarılmasını təkidlə tələb etdilər. Bu alimlərin ön cərgəsində Ümnisə xanım Musabəylinin də fikirləri xüsusi yer tuturdu. Onların tələbli təkliflərindən doğan gurultulu, sürəkli alqışlar indi də qulaqlarımdadır. Obyektivlik naminə onu da qeyd etmək istəyirəm ki, o zamankı rektor gözəl insan professor Zəhra xanım Quliyeva da, bəzi kənar təzyiqlərə baxmayaraq, Mustafa bəy Topçubaşov, Ümnisə Musabəyli, Zəhra Salayeva, Həmid bəy Mahmudbəyov, Cahangir Abdullayev və başqa alimlər kimi professor Kamil Balakişiyevin tərəfdarları sırasında idi. Mən professor K.Balakişiyevin əvvəlki solğun titrək simasının allandığını gördüm. O, fiziki cəhətdən bəstəboy olsa da, arxasında duran görkəmli alimlərin sayəsində qat – qat böyümüşdü və onun boyunun da, özünün də, sözünün də böyüklüyü artıq iclas zalına sığmırdı. Bunu ona professor Ümnisə xanım Musabəyli ilə yanaşı, onun gur səsinə səs verərək onu daha da gücləndirən digər nüfuzlu alimlər bəxş etmişdilər. Mən ilk dəfə öz – özlüyümdə, ürəyimdə Ümnisə xanıma və digər alimlərə minnətdarlıq dolu təşəkkürlər etdim. O vaxtlar bunu nə Ümnisə xanım, nə də digər elmi şura üzvləri cismən eşitməsə də, hiss etməsə də, indi mən yenidən onların ruhu qarşısında bir daha baş əyərək, ilk dəfə hamının eşidə biləcəyi səslə ona və onun kimi obyektivlik tərəfdarı olan dəyərli alimlərə minnətdarlığımı bildirirəm.

Ümnisə xanımın soyadı çox vaxt mənbələrdə Musabəyova yazılsa da, tək mənə yox, çoxlarına məlumdur ki, o soyadını özü sağlığında Musabəyli kimi təsdiq etdirərək "ov" şəkilçisindən bilərəkdən birdəfəlik imtina etmişdi və dünyaya sovet alimi yox, Azərbaycan alimi olduğunu soyadı ilə də anlatmışdı. Bu, milli qürura, azərbaycançılıq ideyalarına hörmət etməyə çağırış, bəlkə də təlatümlü bir xeyirxahlıq

“üsyankarlığı” idi. Məncə bu belə idi... Bəli bu, “Ümnisə xanım üsyankarlığı” idi... Mən onun xarakterinə bələd insan kimi buna əminəm!

Professor Ümnisə Musabəyli həyatdakı məğrurluğunu, qürurunu, yenilməzliyini həyatdan köçən anda da qoruyub saxladı. Deyirlər ki, köklü ağaclar ömrünü başa vuranda əyilmədən, sınmadan bütöv yıxılırlar. Ümnisə xanım da heç vaxt əyilmədi sınmadı. Hər dəfə Ümnisə xanımdan söhbət düşəndə dərhal yadıma ölməz şairimiz Mirzə Ələkbər Sabir Tahirzadənin şeirinin bir parçası düşür və mənim gözlərimdə Ümnisə xanım da şairin söylədiyi ***“Dəryada duran bir Qocaman Dağa”*** bənzəyir. Bənzəyir və yaddaşımda da elə bu bənzərliyində qalır. Çünki mənim fikrimcə, Sabir bu ifadələri tək özünə yox, həmçinin mənəviyyatca onun özünə bənzər zənginliyə malik hər bir bəşər övladına aid etmişdir və bu deyimdən şübhəsiz ki, professor Ümnisə Musabəyliyə də böyük pay düşür.

M.Ə. Sabir deyirdi:

***“Seylü təmoylə təməvvüclə alıb dövrü – bərim,***
***Bənzərəm bir qocaman dağa ki, dəryada durar!***
***Nə qəm, uğratsa da bir gün məni ifnayə zaman,***
***Mən gedərsəmsə məramım yenə dünyada qalar!”***

“Məramı yenə dünyada qalan”lardan həm anadan olmasının 110 ili tamam olan ustad müəllimimiz Ümnisə xanım Musabəyliyə, həm də belə dahiyanə mənalar daşıyan bəşəri misralar müəllifi - 150 illik yubileyi dövlət səviyyəsində qeyd edilən böyük şairimiz Mirzə Ələkbər Sabir Tahirzadəyə Allahdan rəhmət diləyir, ruhları şad olsun! – deyirəm.

**Mübariz Allahverdiyev**
**ATU-nun Mətbuat xidmətinin rəhbəri,**
**“İnsan anatomiyası” kafedrasının professoru,**
**əməkdar müəllim , tibb elmləri doktoru.**

## “VƏTƏN TƏBABƏTİNƏ ADI QIZIL HƏRİFLƏRLƏ YAZILAN İNSAN”

Tale elə gətirdi ki, mən Ümnisə xanımla institun 1-ci kursunda oxuyanda tanış oldum. 1967-ci ildə Tibb institutunun “müalicə profilaktika” fakültəsinin birinci kurs tələbəsi idim. Bu fakültədə göz xəstəlikləri o vaxtlar 4-cü kursda tədris olunurdu. Lakin mənim qismət payıma yazılan bir təsadüf nəticəsində Ümnisə xanımla görüşdüm.

Heç yadımdan çıxmaz. Oktyabrın 14-ü günü institun qabağında dayanmışdım, əlimlə gözümü qaşıyırdım. Bu vaxt zahiri gözəl, siması mülayim, baxışları ilə insanı cəlb eləyən bir xanım mənə yaxınlaşdı və soruşdu ki, “ay oğul, gözünü niyə qaşıyırsan?”. “Gözüm ağrıyır”- dedim. O vaxta kimi mən Ümnisə xanımı tanımırdım və kim olduğunu bilmirdim. Soruşdu ki, “sənin vaxtın var?” Bildirdim ki, məni dekanlığa çağırıblar. “Eybi yox, gedək mənimlə, dekanlığa zəng vurub, deyərəm ki, səni mən aparmışam”. Məni də xidməti maşınına əyləşdirdi və göz xəstəlikləri institutuna gəldik. O, otağına daxil olanda, mən gördüm ki, qapının üstünə kafedranın müdirinin adı yazılıb. “SSRİ AE-nın müxbir üzvü, professor, tibb elmləri doktoru Ü.S.Musabəyova”. O vaxt anladım ki, bu gülərüz xanım kafedranın rəhbəridir. Ümnisə xanım mənim gözlərimi müayinə etdi və resept yazdı. Təbii ki, cox həyacanlı idim, birinci kursun tələbəsi belə nəhəng bir alimin otağında özünü rahat hiss eləyə bilməzdi. O da mənim vəziyyətimi anladı və çox sadə, səmimi, mehriban şəkildə söhbətə başladı. Bu isti nəvaziş sayəsində get-gedə bütün həyacanım yoxa çıxdı.

Ümnisə xanımla ilk söhbətimiz maraqlı oldu. Məni qısa imtahana çəkdi. Rus dilində bir iki kəlmə soruşdu və dedi ki, “sən bu dili pis bilmirsən, haradan öyrənmisən danışmağı?” Söylədim ki, professor, atamın işi ilə əlaqədar Əlibayramlı rayonunun (indiki Şirvan) Vladimirovka kəndində,

rusların əhatəsində yaşamışam. Ona görə rus dilini bilirəm. Bu məqamda Ümnisə xanım ötən illəri xatırladı. O bildirdi ki, 1951-1952-ci illərdə o zonada kəndləri qarış-qarış gəzərək, yerlərdə xəstələrlə görüşüb. Gəzdiyi kəndlərin adlarını bir-bir sadaladı. Mən ona heyranlıqla qulaq asırdım. 1967–ci ildə Ümnisə xanım 51-ci ildə dolaşdığı kəndlərin adını düzgün, bir nəfəsə elə söylədi ki, yaddaşına vuruldum. Minbaşı, Həşimxanlı, Cəngən, Salmanlı, Muğangəncəli və s.i. Aradan neçə illər keçməsinə baxmayaraq, elə bil o ərazidə dünən olmuşdu...

Bir hadisəni xatırladı. "Bilirsən, mən o vaxt gənc idim. Əlibayramlıdan bizi həmin kəndlərə yola saldılar. Yolda bizim maşınımız xarab oldu. Biz lülkalı motosikletlə yolu davam etdirməli olduq. Mən sürücünün yanında, digər həkim isə sürücünün arxa tərəfində əyləşib kəndə getdik. Salmanlı kəndinin girəcəyində yol kənarında oturan bir qoca kişidən soruşdum ki, bu kənddə gözdən şikayəti olan kimsə varmı?. Kişi rus dilində cavab verdi ki, "burada hamının gözü kordu. Kənd camaatı traxomadan əziyyət çəkir. Saxalı, Baxalı, Faxralı hamısı kordu". "Adını çəkdiyin bu insanları bizə göstərə bilərsənmi?". Dedi ki, "qarşınıza kim çıxsa, hamısının gözü ağrıyır". Məlum oldu ki, həyatının yarıdan çoxunu Sibirdə yaşayan bu kişi sonralar kəndə qayıdıb. Onun öz gözləri də xəstə imiş"...

Salmanlı kəndində zəkasına, qələminə səcdə qıldığım Səməd Vurğun da dəfələrlə olub. "Muğam" poemasında bu kənd haqqında yazır.

"Kürün qırağında Salyana yaxın,
Salmanlı deyilən bir kəndciyəz var.
Tarlası, zəmisi suyun gözündə..."

Bu səfalı kənddə Ümnisə xanım bütün xəstələri müayinə edir, hamısına əlac etdikdən sonra geri qayıdır...

Onunla ilk görüşümüz beləcə yadda-qalan oldu. Bu doğma münasibətdən sonra bu xanıma sonsuz məhəbbət hissi

duydum. Tez-tez kafedraya zəng vurub, işdə olub-olmadığını öyrənirdim. Telefonu götürüb "balacan, harda qalmısan, mən sənin üçün perajki gətirmişəm" deməyi ilə özümü tez yanına yetirirdim. Çox böyük məmnuniyyətlə mənim üçün süfrə açar, otuzdurub, yedizdirərdi. Cavanlıqda gur şəvə kimi saçlarım varıydı. Deyərdi ki, "sən göyçək oğlansan"...

Orta məktəbdə oxuyanda poeziyamıza, tariximizə meylli olduğum üçün az-çox ədəbiyyatdan hali idim. Yaddaşımda qalanlardan, əzbər bildiklərimdən şeirlər söyləyərdim. Ümnisə xanım qulaq asdıqca, hər kəlmədən heyrət dolu baxışlarla məni süzür və deyirdi ki, "oğul, sən mütləq göz həkimi olmalısan!" Mənim ədəbiyyatçı kimi danışmağım onun çox xoşuna gəlirdi. Hələ 7-ci sinifdə oxuyanda "Azərbaycan Gəncləri" qəzetinin ştatdankənar müxbiri kimi yazılarım gedirdi. Yaddaşımın gücünə inanaraq turan çələngindən bir neçə poeziya nümunələri deyirdim, özümüzün müasirlərindən və bir az da Qərb ədəbiyyatından xəbərim olduğu üçün bizim söhbətimiz tuturdu.

O, gözəl mahir ədəbiyyat bilicisi idi. Əvvəlcə mən elə başa düşdüm ki, Ümnisə xanım öz sənətini daha yaxşı bilir, ədəbiyyata isə ötəri həvəsi var. Amma onu daha yaxından tanıyandan sonra qəti əmin oldum ki, qarşımda ədəbiyyatı dərindən duyan bir insanla ünsiyyətdəyəm. İllər keçəndən sonra, həyat dərslərini öyrənə-öyrənə daha da dərk elədim ki, alim məhz belə insanlara deyilirmiş. Məhz Ümnisə xanım kimi şəxsiyyətlər, unikal bilik sahibləri alimlik zirvəsinə ucala bilirmiş. O, Qafur Qulamdan, Hikmət Niyazidən, Çolpamdan, Güləmdandan, bizim böyük azərbaycanlımız olan, Özbəkistana getmiş Maqsud Şeyxzadədən və s. ədiblərdən söz açanda mat-məəttəl qalırdım. Bu insan kimləri tanımırdı?. Əbdülqasim Lahutidən misallar gətirirdi. Rus və qərb ədəbiyyatının bütün simalarının yaradıcılığından xəbəri vardı, hətta onları ədəbiyyatşünas kimi təhlil eləyirdi. Onun ədəbi görüşləri, poeziya sevgisi məni hava, su kimi

qidalandırırdı. Mənən zənginləşirdim. Ədəbiyyata sonsuz həvəsi olan yeni bir gəncin ədəb-ərkan dünyasına gəlişinə işıqlı yol göstərirdi. Dünya ədəbiyyatının bir neçə nümayəndəsini məhz onun vasitəsilə tanıdım. Nazim Hikmət poeziyasını mənə tanıdan və sevdirən Ümnisə xanım oldu...

Şahidiyəm ki, Qarabağın tarixinə aid iki nəfər mübahisə edərkən, hər ikisi də yalan danışdığından Ümnisə xanım söhbətə müdaxilə elədi. Faktları, xronoloji ardıcılığı xatırladaraq əsassız danışığa iradını bildirdi. Həmkarlarının bilmədikləri bir mövzunu israrla sübut etmək istəyinə təəssüfləndi...

Ümnisə xanımın çox böyük işləri traxoma ilə bağlı idi. Çünki göz xəstəlikləri içərisində traxoma, qlaukoma ən ağır xəstəliklərdir. Mənim rəhbərlik etdiyim bu kafedranın yaradıcısı İsmayıl bəy Axundov olub. Elm aləmində bu insanın da xüsusi yeri var. O, 1897-ci ildə Şamaxıda doğulub. Azərbaycan Demokratik Respublikası tərəfindən Almaniyaya oxumağa göndərilib. Tale elə gətirib ki, İsmayıl bəy elə orada müəllim kimi çalışıb və professor adını da həmin ölkədə alıb. Hətta 3-cü kursda oxuyarkən, kansler tərəfindən göstəriş verilib ki, xaricdə tibb təhsili almağa gələnlərə İsmayıl Axundov Alman dilinin qramatikasından dərs desin. Yeri düşmüşkən, onun böyük qardaşı Ağa Axundov isə İsveçrə Kral universitetində təhsil almışdı. İndi Luzanna şəhərində, İsveçrədə su elektrik stansiyasının üzərində yazılıb. "Azərbaycanlı mütəxəssis Ağa Əbdülxalıq oğlu Axundov tərəfindən layihəsi verilmişdir". Azərbaycan Dövlət Neft Akademiyasının, Sənaye texnikumunun yaradılmasında alimin xidmətləri var.

Onların bacısı Sona Axundova göz üzrə professor idi. Oftalmologiya sahəsində ilk alimlərdən biridir. Onlar Ümnisə xanımla bərabər çalışıblar. Aralarında gözəl münasibət olub. İsmayıl bəyin qızı, Sona xanımın qardaşı qızı Nailə xanım mənə danışırdı ki, onlar bir-birinin uğurlarına sevinir, oftalmologiyanın inkişafında əsl zəka nümayiş etdirirdilər. Ümnisə xanımla bağlı ən kövrək notları mən o

zaman eşitdim. Traxomanın epidemiologiyası ilə İsmayıl Axundovun özü məşğul olub. Hər iki böyük alim traxomanın səbəblərini birlikdə araşdırıb. Əfsuslar ki, İsmayıl Axundov 1952-ci ildə Moskvada faciəvi şəkildə vəfat eləyib. Alimi gözü götürməyən bədxahlar ona qurma qurublar. Yanğın törədilib və həmin hadisədə alim yanaraq dünyasını dəyişib. Mənim müəllimimin müəllimi olmuş İsmayıl Axundovun 100 və 110 illik yubileylərini təşkil etməkdə də məqsədim odur ki, gənc nəsil elm tarixində əməyi olan belə ziyalılarımızı yaxından tanısınlar....

Ümnisə xanımda cəzbetmə qüvvəsi, ilahi gözəllik, saflıq, paklıq var idi. Bu insanın xislətinə naqislik yadıydı. O halal mayadan yoğrulmuş, saf gendən yaranan mələk idi.

Tələbələr mühazirələrinə heyran kəsilərdi. Bir dəfə də olsun mühazirədə "deməli", "belə ki" və s. ara sözləri işlətməzdi. Onda bülbül cəh-cəhi vardı. Onun dodaqlarından söz nəğmə tək könüllərə axardı. Onun o cəh-cəhinə, ləhcəsinə aşiq olmayan tapılmazdı. Dağ çeşməsinin büllur bulağından süzülən duru sular tək hər sözü mənəviyyatımızı təzələyirdi. İç, ləzzət al, qəlbinə məlhəm ol, gör-götür. Allah-təala qadına bəxş elədiyi hər nə yaxşı şey varsa, hamısını ona vermişdi. Hətta bir dəfə özümdə cəsarət tapıb, dedim: "Çox heyf olsun ki, Ümnisə xanım, mən siz doğulanda dünyaya gəlməmişəm". Belə şeir də söyləmişdim:

"Aşiqə nə gəlsə, sözündən gələr,
Bülbülə əsirlik səsindən gələr.
Ceyrana hər bəla gözündən gələr
Gözləsin özünü gözə gələnlər"...

Poeziyanı sevdiyindən söhbətə yenə şeirlə davam elədim.

"Çoxdur bu dünyada "gözələm" deyən,
Daş qaşa bürünüb, zər-ziba geyən.

Fəqət sənin kimi, sənə bənzəyən
Bir maral tapılmaz, ceyran tapılmaz".

Əllərini bir-birinə vurub, gülərdi. Hər dəfə də təkrarlayırdım ki, bu şeirlər mənim deyil, oxuduğum kitablardan əzbərlənmiş parçalardır...

Uzaq səmalarda kiçik ulduzlar axtarmaq lazım deyil. Ümnisə xanım günəşiydi, istisindən canlı aləm pay alırdı. Ümnisə xanım əlçatmaz, ünyütməz zirvə idi. İdrakının dərinliyinə, vicdanının səsinə qulaq asan əsl şəxsiyyətiydi. Başdan-başa tərbiyə mücəssiməsi, gör-götür dünyasıydı. Ümnisə xanımın tərbiyəsi əxlaqına çevrilmiş, əxlaqın ərkanı eləmişdi...

Yaddaşlara əbədilik həkk edilən ölməzlik nümunəsi idi...

1969-cu ilin yağışlı günlərindən birində yenə rastlaşdıq. Göydən leysan tökülürdü. Əynində baloniya plaşı, əlində çətir, gördü ki, qapının yanında dayanıb, yağışa baxıram. Dedi ki, "balacan, yenə nə fikirləşirsən?".

Cavab verdim ki, "təbiət özü sizin üçün nar çiçəyinə düşmüş şeh damlası göndərib. Ümnisə xanım müəllifin adını unutsam da bu an, bu misraları düşünürəm.

Gül gülüm, gül gözəlim, gülləri güldür.
Gülşəndə güllər, gülməli güllər, gülə gülsə".

Qəhqəhə çəkərək məni də çətirinin altına saldı. Maşına əyləşib, köhnə "İnturist"in yanında düşdük. Yağışlı havada dənizkənarı bulvarda elmdən, ədəbiyyatdan söhbətləşə-söhbətləşə bir xeyli gəzişdik. Soruşdu ki, "oğul düzünü de, acmısanmı, sənə yemək alım?". Dedim "ay professor elə bir az qabaq siz məni yedizdirdiniz, çox sağ olun, minnətdaram."

O vaxtlar Azneft meydanının yaxınlığından Salyana, Sabirabada maşınlar gedərdi. Mən də fürsətdən istifadə eləyib, Ümnisə xanımdan izacə alaraq, ondan ayrılıb, rayona yola düşdüm...

Bizim aramızda ana-oğul məhəbbəti var idi. Həmişə mənə deyərdi ki, "oğul, səni çox istəyirəm". Adi təsadüf nəticəsində

olan tanışlıq sayəsində ciddi, amiranə bir elm xadiminin sadə tələbə ilə dostluğu özümə də qeyri-adi görünürdü. Ancaq qəlblər doğmalaşanda, özünə yaxın bildiyin insanın daxili dünyasına yaxınlaşanda görürsən ki, zahirən çox ciddi görkəmi olan bir şəxsin yuxa kimi kövrək qəlbi olurmuş.

İndi də özümə bu sualı tez-tez verirəm. Görəsən, Ümnisə xanım kimi zirvədə olan digər bir alim, hər hansı professor onun kimi olardımı?. Küçədə gördüyü adi bir tələbəni özü ilə aparardımı? Ona resept yazıb, tələbənin əlindən resepti götürüb, başqasını göndərib, öz pulu ilə aldığı dərmanları tələbəyə verərdimi? Tələbənin istedadından qürrələnərək, ona daim mənəvi qayğı göstərərdimi? ...

Rayondan qayıdanda Ümnisə xanıma bir qucaq, yerli dillə desək , kasa gül gətirdim. Qızıl gülün bir növüydü. Bizim elatda belə deyirdilər. Dedim ki, "Qutqaşın (Qəbələ) çiçəkləri qədər ətirli olmasa da, bu da bizim torpağın gözəlliyidir". Gülləri dərindən iyləyib dedi ki, "Muğan düzünün də özünə məxsus qoxusu var". Yenə də o bölgəyə səfərini xatırlayaraq söylədi ki, "Muğanda həyətlərə girəndə çoxlu çiçəklər, növbənöv güllər görürdüm və onların ətrindən bihuş olurdum".

Ümnisə xanım ali insani dəyərlərə malik idi. O bütün tələbələrə, xəstələrə eyni səviyyədə baxırdı. İnsanlar arasında fərq qoymazdı.

Ümnisə xanım üçün keçilməz qaya yox idi. Zirvələrdə qıy vuran qartala bənzəyirdi. Həcər hünərli, Nüşabə qeyrətli bir el qızıydı. Mahir sənətkar, böyük alim, dahi şəxsiyət idi. Vətən təbabətinin tarixində adını qızıl hərflərlə həkk edən dünya şöhrətli cərrah idi. Nəinki Azərbaycan xalqının şərəfli şöhrəti, eyni zamanda SSRİ deyilən böyük bir dövlətin oftalmoloqlarının içərisində öndə olan, seçilən böyük həkim idi.

O, iki dəfə SSRİ Ali Sovetinin deputatı olub, bir çağırış Azərbaycan Ali Sovetinə deputat seçilib. Mən dəfələrlə şahidi olmuşam ki, ona müraciət edən insanları necə qarşılayıb. Onun daxili gözəlliyi zahirinə qarışmışdı. Daxilində o qədər

paklıq var idi ki, büruzə verib üzünə çıxmışdı. Bəli, Ümnisə xanım bu cür doğulmuşdu, o başqalaşa bilməzdi. Əksər insanlardan fərqli olaraq onun bir sifəti var idi. Qeybət deyilən kəlam dilində yox idi. Hətta pisə də yaxşı deyirdi. Bilirdi ki, yaxşı deyil, ancaq dilinə gətirib, könül qırmaqdan ehtiyat edirdi. O da onun halallığından, saflığından irəli gəlirdi. Həqiqətən SSRİ Tibb Akademiyasına layiq olan ziyalıydı.

Mən həyatda qazandığım bu kürsüyə, elmi titullara, adlara və bir sözlə, hər şeyə görə bu insana borcluyam. Onun mənə verdiyi o dərslərə, məsləhətlərə borcluyam.

Bu günün özündə mən böyük fəxrlə keçmişi xatırlayıram. Mənim müəllimim Tağızadə Tağı Ələkbər oğlu sağlığında vəzifədən çıxıb, məni öz yerinə layiq bildi. Onun ruhu qarşısında baş əyirəm. Bu böyük alimin 80 və 85 illik yubileylərini təşkil edib, xatirəsinə kitablar həsr etmişəm. Ömür vəfa etsə, qarşıdan gələn növbəti 2013-cü ildə, 90 illik yubileyində də haqqında kitab çap edəcəm və yadda qalan anım tədbirimiz olacaq...

Ümnisə xanımın xatirəsi mənə əzizdir. O müəllim tələbə sevgisi indi də ürəyimdən çıxmır. Mən hər dəfə institutun keçmiş binasının yanından keçəndə, o ətrafdan yolum düşəndə elə bilirəm ki, Ümnisə xanım qarşıma çıxacaq. Yenə o gülərüz sima, xoş-xasiyyət, o gözəllik, rahiyanə çiçəklərin arasında elə bilin təzəcə pöhrələnmiş şəlalə durur gözlərimin qarşısında. Süzülür, yuxarıdan üzü aşağı və Ümnisə xanım da gözəlliyi ilə bu ətrin, bu rahiyanənin içinə qarışır və bizi salamlayır...

Mən uşaqlıqdan elə mühitdə böyümüşəm ki, daim nəvaziş içərisində yaşamışam. Ailədə qayğıma qalanların sayı çox olub. Anam, atam, qohumlarımız tərəfindən oxumağı sevdiyim üçün arzu olunan insan olmuşam. Ümnisə xanım da məni çox istəyirdi. Birdən-birə onun ölüm xəbərinə daxilən sarsıldım. Elə bildim ki, həyatdan özüm getmişəm. Ona həddindən çox bağlanmışdım və onun ölümündən sonra

özümü yalqız hiss elədim. Ümnisə xanım mənim üçün əvəzsiz insanıydı. Onun mənə göstərdiyi isti münasibət, doğma nəvaziş indi də vücudumu titrədir. Mənə varlığıyla necə şirin idisə, ölümüylə də acı yaşatdı... Ümnisə xanım yaddaşlarda əbədiləşən kimi, həyatda da əbədiləşməli, gənc nəslə tanıdılmalıdır. O,  hər bir yüksək ada layiqdir. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun. Böyük alim, xanım-xatın, mədəniyyət tarixində, səhiyyə aləmində izi qalan nəcib qadın Ümnisə xanım Musabəyovanın, eləcə də bu yazıda xatırladığım, adını çəkdiyim və çəkmədiyim əziz müəllimlərimin ruhu qarşısında baş əyirəm....

**ATU-nun Epidemiologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, əməkdar müəllim İbadulla Ağayev**

## Ü. S.MUSABƏYOVANIN XATİRƏSİNƏ

Tibb elmləri doktoru, əməkdar elm xadimi, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Ümnisə Musabəyova mənim tələbəlik illərimdə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun göz xəstəlikləri kafedrasına rəhbərlik edirdi və bizə mükəmməl rus dilində məruzələr oxuyub, bizi öz fənninə həvəsləndirirdi.

Ucaboylu, qamətli, hər zaman səliqəli saç düzümündə, o, nəinki həmkarları ( ilk növbədə professor Z. T. Quliyeva ), həm də biz tələbələr üçün nümunə idi.

Erudisiyalı, ingilis dilini bilən Ümnisə xanım tez-tez müxtəlif ölkələrdə oftalmologiyanın aktual məsələlərinə həsr olunmuş məruzələrlə çıxış edirdi.

Yaxın kolleqalar Ümnisə xanımı "Umnitsa xanım" (rus dilində ağıllı. Müəllif) deyərək çağırırdılar.

Onunla son görüşümüz yaxşı yadımdadır. Mən ona xəstəxanada baş çəkməyə getmişdim. O, xəstəxanaya bud-çanax oynağının travmasına görə yerləşdirilmişdir.

Bu enerjili qadını xəstəxana çarpayısında görmək mənə çox ağır idi. Mənə Parisdə keçiriləcək "konfransa dəvətnaməni" göstərərək dedi: "görürsən, mənə məcburi vəziyyətlə barışmaq nə dərəcədə çətindir.?".

Palatanı mən pərişan vəziyyətdə tərk etdim. Həmin xəstəxanada mənim atam da şəkərli diabetə görə müalicə alırdı....

N.K.Krupskaya (hazırda sosialist əməyi qəhrəmanı Ş.M.Ələskərova) adına 5 saylı klinik doğum evində həkim mama – ginekoloq işləyərkən mən Ü.S.Musabəyovanın Bakıda 1956-cı ildə nəşr olunmuş "Hamiləlik patologiyası zamanı göz xəstəlikləri" adlı monoqrafiyasını əldə etdim. Artıq bir ildən sonra aspiranturaya daxil olub, mən öz elmi rəhbərimə xahiş ilə müraciət etdim ki, mənə hamiləliyin ağır patologiyası olan - eklampsiyaya həsr olunmuş mövzu üzərində işləməyə icazə versin.

Mənim valideynlərim, Musa Şəmsəddinski və Tehran Tahirova, Ümnisə xanım və onun həyat yoldaşı ilə sürgünə qədər və sürgündən qayıtdıqdan sonra da ünsiyyətdə olublar.

Ümnisə xanımın həyat yoldaşı, professor İbrahim İsmayılzadə də Stalin repressiyaları zamanı Sibirə "xalq düşməni" kmi sürgün (XX əsrin çətin 30-cu illərində çox ağır bir ittiham ilə) olunmuşdu. Stalin və Beriyanın ölümündən sonra siyasi məhbuslar cinayət tərkibi olmadığına görə tam reablitasiya olunmuşdu.

Professor İbrahim İsmayılzadə çox az geri dönənlər arasında doğma Ə.Əliyev adına Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna qayıtmışdı və daha bir neçə il "Dəri və Zöhrəvi xəstəliklər" kursunda dərs demişdi.

Bizim respublikamızın (o cümlədən keçmiş SSRİ-nin) "qara günləri" belə idi - cəmiyyətin günahsız tanınmış üzvləri yalan iftiralarla repressiya olunmuşdular, 17 il müddətində ailələrindən, dostlarından və işlərindən uzaqlaşdırılmışdılar.

Mən hər zaman Ümnisə xanımın xatirəsini böyük rəğbət və hörmətlə əziz tuturam, çünki o, möhkəm xasiyyətə malik olub, taleyin ədalətsizliyinin qarşısında əyilməmişdi.

**N.M.Şəmsəddinskaya**
**Tibb elmləri doktoru, əməkdar elm xadimi, Azərbaycan Tibb Universitetinin II mamalıq-ginekologiya kafedrasının professoru. 25.04.2011**

## “ÜMNİSƏ XANIM NƏİNKİ HƏM BÖYÜK ALİM, HƏM DƏ GÖZƏL İNSAN İDİ”

Ümnisə xanım vüqarlı, gözəl, ucaboylu, gülümsər sifətli bir qadın idi. Həddindən artıq hökmran, ancaq ürəyi yanan ağıllı insan olub. Hökmran olmasına baxmayaraq heç kəsin qəlbinə dəyməzdi, özündən heç kimi küsdürməzdi. Dediklərində hökmlə israrlı olsa da, ən incə nüanslara fikir verər, xətrə toxunan bir kəlmə işlətməzdi. Ümnisə xanımın hökmranlığı nədə idi? Əvvəla, o haqqın tərəfdarı idi. Dünyasında haqqı nahaqqa verməzdi.

Yadımdadır, təzə gəlmişdim işləməyə. Əvvəlcə, klinik ordinaturaya qəbul olundum. Ümnisə xanım Tibb İnstitutunda Göz xəstəlikləri kafedrasının müdiri idi. Məni professor Maqsud Əlizadə kafedraya gətirdi. Ümumiyyətlə, bu dünyada gərək insanlar bir-birinə yardımçı olsunlar ki, nəticə də yaxşı olsun. Mənə də yaxşı insanların köməyi çox dəyib. O böyük alimlərin əlindən su içmişəm. Həmin dövrdə heç kəs ziyalıya mane olmurdu, əksinə müəllimlərdən, böyüklərdən dəstək alardıq...

Məni kafedraya qəbul elədilər. Ümnisə xanım gəlib gördü ki, ondan xəbərsiz kafedraya işçi götürüblər, kiçik bir eyhamla dedi ki, “sizin gəlişinizdən mənim xəbərim yoxdur.” 1967-ci ilin söhbətidir. Dedi ki, “mən bilmirdim siz gəlmisiniz, deməli məndən iznsiz gəlmisiniz.” Mən bu sözdən bir qədər tutuldum. Heç bir kəlmə demədim. Aylar keçdi. Biz bir-birimizi get-gedə yaxından tanımağa başladıq. O demək olar ki, məni öz övladı kimi sevməyə başladı. ..

Bir dəfə səhər tezdən görüşməli olduq. Onun maşınında gəlirdim. Mənə nə isə dedi və hiss etdi ki, sözü xoşuma gəlmədi. Ümnisə xanım üzümə baxdı və söylədi.Tamilla “mən səni çox istəyirəm, ona görə sənə ərklə deyirəm”, yəni məni doğrudan da çox istəyirdi.

Ümnisə xanımla bağlı xatirələrim çoxdur...Bizim işlədiyimiz şöbəyə bir xəstə gəlmişdi. O xəstənin gözünə işçilərin hamısı baxdı. Mən də cavan mütəxəssis idim. Hamı onun gözündə torlu qişanın cırığını axtarırdı, yəni torlu qışa qopmuşdu. Torlu qişanın qopması ağır bir patologiya idisə, həmin yerdə cırığın olması ondan da pis əlamət idi. Ona görə də hamı o nöqtəni axtarırdı. Mən xəstənin gözünə daha diqqətlə baxdım və bu, Ümnisə xanımın diqqətindən qaçmadı. Cavan idim, daha çox öyrənmək həvəsində olduğumdan bir qədər başqalarından fərqli olaraq diqqətlə xəstənin gözünə baxmağa başladım və tapdım o yeri. Həmin yeri göstərdim ki, göz dibinin hansı yerində, hansı hissəsindədir. O biri həkimlər məndən yaşca böyük, çox təcrübəli insanlar idi və hamısı çevrilib üzümə baxdılar. Zənnimcə, bir az onların qısqanclıq hissi oldu və birdən-birə cavan bir həkimin özündən razı halda fikir yürütməsini qəbul edə bilmədilər. Hətta dedilər ki, sən hələ nə bilirsən ki, özündən belə arxayın danışırsan. Mən birtəhər oldum, özümü qınadım, səsimi çıxartdığım üçün xəcalət çəkdim...

Bir neçə gündən sonra həmin xəstədən Ümnisə xanımın adına məktub gəldi. Deməli, xəstə Odessaya gedir, orada gözünü müayinə elətdirir və mənim göstərdiyim nöqtədə fəsadı aşkar edirlər. Həmin xəstə yazırdı ki, "sizin gənc həkimin dediyi düz oldu". Ümnisə xanım hərtərəfli gözəl həkim idi. Tək alim kimi yox, həm də çox dərin elmi biliyə malik olan ziyalı idi. Ona görə də gənclərin savadından qürrələnərdi. Elə bu hadisədən də xoş-hal oldu. Məktubu əlində elə vüqarlı tutmuşdu ki, elə bil əməyinin bəhrəsini dadırdı. Sevincinin həddi bilinmirdi. Həmin məktubu dəfələrlə ucadan oxudu və həmkarlarına söylədi ki, gənclər də özünə görə çox şey bilirlər. Mənimlə öyündüyünü bir neçə dəfə təkrarladı, daha əzmlə çalışmağımı tövsiyyə elədi. O günü çox yaxşı xatırlayıram. O söylədi ki, ola bilər hamı kimi cavan həkimlər də səhv etsin. Hətta səhv etmiş olsalar belə, gərək onlara kömək

edək, düzgün yol göstərək ki, əsl mütəxəssis olsunlar. Bir neçə gün öncə keçirdiyim həyəcan onun yadında necə qalmışdısa, sanki bu məktubla könlümü ələ almağa çalışır və iftixarla hamıya bəyan edirdi ki, cavan həkimin diaqnozu düz olub...

Günlər bir-birini əvəzlədikcə mən də onu çox sevməyə başladım. O qədər yaxşı münasibətlərimiz yarandı ki, hər əməliyyata girəndə məni də özü ilə aparırdı. Düz beş il mən onunla əməliyyatlarda iştirak etdim...

Bir gün o məni otağına çağırdı və dedi ki, bundan sonra sən gedirsən professor Nəzirovun kafedrasına. Toxuma keçiriciliyini, damar keçiriciliyini öyrənməyə. Bir aylıq məni ezamiyyətə göndərdi. Mən başladım o kafedrada fəaliyyətimi davam etdirməyə. Elə Ümnisə xanımın mənim qarşıma qoyduğu həmin mürəkkəb elmi mövzu o illərdən bəri mənimlə gedir. O vaxtdan etibarən həmin problem mənimlə yol yoldaşı oldu. Bu günə kimi də üzərində çalışıram. Hətta o qədər dərinə getdim ki, bu sahədə kifayət qədər sanballı araşdırmaların müəllifi oldum. Buynuz qişa, büllur və şüşəvari cisim. Bunların üçündə də əsas zülal və sudur. Başqa elementlər burda yoxdur. Təbiət elə yaradıb ki, bu mühit şəffaf olsun. Ancaq başqa elementlərin olmaması da bu hissələri tez sıradan çıxara bilir. Büllurun bulanıxlığı kataraktaya səbəb olur.

Ümnisə xanımın mənə həvalə elədiyi o keçiricilik məsələsi ancaq damarlarda öyrənilib. Büllurda, buynuz qişasında, şüşəvari cisimdə bəs necə? Nə etməli? Belə qərara gəldim ki, hüceyrənin də divarı var. Yəqin oradan da keçiricilik məsələsi var ki, maddələr mübadiləsi gedir. Ümnisə xamımın dediyi mövzunu işləyərkən qarşıma daha ciddi bir məsələ çıxdı. Ancaq indi təzə bir şeyi "hüceyrə keçiriciliyini" araşdırmağa başladım. Bu məsələ canlı orqanizmdə, ümumiyyətlə, təbiət elmlərinin heç birində aydınlaşmayıb. Mən bu məsələdə

patent aldım, məqsədimə nail oldum. Alimin mənə həvalə elədiyi mövzunu var-gücümlə öyrənməyə səy göstərdim.

Ağıllı adamın məsləhəti sonrakı nəsilə nə qədər böyük kömək etmiş olur, yol açır. Onun adi bir sözü ilə, kiçik bir məsləhəti ilə mən böyük nailiyyətlər əldə elədim.

Məndən çox razı idi. Xüsusən də mənim öyrənmək həvəsim onun nəzərindən qaçmırdı. O da öz növbəsində çalışırdı ki, mənəköməkliyi dəysin.

Ümnisə xanım bütün müsbət keyfiyyətləri özündə cəmləşdirən yüksək səviyyəli bir xanım idi. Xoşuna gəlmədiyi hər nə varsa deyərdi, ürəyində saxlamazdı. Ancaq kobud şəkildə yox, elə deyirdi ki, eyhamla, işarə ilə danışardı. Daima üzü təbəssümlü, simaca gülər idi. Dodağından təbəssüm çəkiləndə deməli nədənsə narazı idi...

Onun siması heç zaman gözümün önündən çəkilmir. Uzun illər ərzində çalışdığımız Göz İnstitutu yeni məkana köçürüləndə sonuncu gün toplantımız oldu. Həkimlər xəstəxanadan ayrıldığı gün olub keçənləri yada salır, burada keçən illəri xatırlayır, xatirələrini dilə gətirirdilər. Mənə də yaşlı bir tibb işçisi kimi söz verdilər. Bilirdim ki, mən çıxış edəcəm, əvvəlcədən bu ovqata köklənmişdim. Elə toplantı başlayan kimi gözlərimi yumdum, ötən illəri yada saldım. Nələr gəlmədi gözümün önünə?. Kimləri görmədim. Ümumiyyətlə, insan dünyanı ancaq gözünü yumanda görə bilər. Gözünü açdınsa, ancaq ətrafını görürsən, yumursan, dünyanı dolaşırsan. Gördüm Ümnisə xanım, öz qızları ilə bərabər bir yanında Zərifə xanım, bir tərəfində Zəhra xanım və o birisilər də gülə-gülə sevinc içərisində bu köçhaköçdən razı halda gülümsəyirlər. Onların ruhunun dolaşdığı o məkandan, son günümüzdə də biz həmin xanımlarımızı yada sala-sala, binadan xoş təəssüratlarla ayrıldıq.

Ümnisə xanım mənə tələbəlik illərində dərs demişdi. Mən onu təkcə müəllim kimi xatırlamıram, mənə həyat yolu göstərən əsl ana kimi yada salıram. Ömür yoluma işıq salan

mayak kimi düşünürəm, taleyimə nur saçan varlıq olduğunu zənn edirəm. O başdan - başa örnək idi. Səliqəli geyimi ilə fərqlənirdi. Zövqlü xanım idi. O mühazirəyə bir xalat geyərdi, əməliyyata başqa xalat. Cərrahi əməliyyata girməzdən bir gün öncə bütün fikri əməliyyat edəcəyi xəstənin yanında olardı. Onunla daha yaxın ünsiyyət qurardı. Xəstəsini tanımaq üçün hər vəchlə çalışardı ki, onun bütün psixoloji durumuna bələd olsun. Əməliyyat öncəsi heç bir işlə məşğul olmazdı, elmi işlərini də kənara qoyardı, gecə yuxusuna önəm verərdi, bir sözlə, yaxşı istirahət edərdi.

Ümnisə xanım əməliyyatlarda çox olurdu. Onun yanına hər tərəfdən axın var idi. Moskvadan, Tbilisidən və digər yerlərdən xəstələr gəlirdi. Ümnisə xanım qeyri adi qadın, müqəddəs peşə sahibi kimi özünə sağlığında heykəl qoydu. Onun xatirəsi yaddaşlarda daima yaşayacaq.

**Oftalmoloq alim Tamilla Ağayeva**

## GÜNƏŞİN EŞQİLƏ

*Hörmətli professor Ümnisə Musabəyliyə*

Ağır xəstə düşdü bir gözəl pəri
Tutuldu günəş tək nurlu gözləri.
Ümid yeri oldun sən o dilbərə,
Sağalmaz dərdinə aradın çarə.

Öz kor övladıyla gəzib şəhərlər
Səndən soraq aldı gözəl bir səhər
İşıq eşqi ilə o dərdli ana
Uçub Ukraynadan gəldi yanına.

Gözünün nurunu itirən zaman
Qoca qarısının tutub qolundan
Qəlbində min ümid yola düzəldi,
Günəşi görmək üçün yanına gəldi.

Sevindin o qızı gülər görəndə,
Kiçik ukraynalı çiçək dərəndə,
Qocanın gözündə yananda günəş,
Sənin gözlərindən saçıldı atəş.

**(1966)**

## HANSI QƏHRƏMAN

Səngərin ağappaq cərrah stolu,
Silahın bərq vuran polad biçaqlar.

Qəlbin insanlara qayğıyla dolu
Zərif əllərində həyat eşqi var.

Hücuma keçirsən yenə də bu gün,
Şəfəqsən, zülmətlə durub üz-üzə.
Rəqib məğlub olur önündə bu gün,
Sanki nur süzülür, əlindən gözə.

Yenə arzusuna çatır bir insan,
Gözləri önündə açılır səhər.

Sanki günəş doğur, gülür asiman,
Səni alqışlayır zəfərlə ellər.

**8.03.1968**

## ÜMNİSƏ MUSABƏYLİNİN ÖLÜM GÜNÜ

O həyat eşqi ilə coşub daşırdı,
Zəkası günəş-tək şəfəq saçırdı.
Sanki yorulmuşdu, oddan, atəşdən,
O həyat verirdi, gözlər açırdı.

Zəka ümmanında zirvə-tək uca,
Sanki yaranmışdı, daim nur saça,
Elmin zirvəsində bir qartal idi,
Yaşadı ömrünü o uça-uça.

Onun varlığında min aləm vardı,
Hər səhər günəşlə qucaqlaşardı,
Yandı günəş kimi, söndü atəş tək,
Kədərdən göylər də şivən qopardı.

Susur, nədən susur, səsi gəlməyir,
Məni dinləməyir, gülümsəməyir,
Nədən düz çıxmadı deyilən məsəl,
Günəşdən, atəşdən doğan ölməyir.

**Tamilla Şəfəq**
**17 noyabr 1974-cü il**

## ÜMNİSƏNİN QIZLARI

*(Zəhra, Zərifə, Qəmər, Fəridə)*
*Ümnisə xanımın 90 illiyi münasibəti ilə yazılıb.*

Günəş batır, günəş sönmür,
Heyhat, ölən geri dönmür,
Əgər yaşasa əməli,
Özü yaşayır deməli.

Kim ki, bütün ömrü boyu,
Zəhmətiylə şöhrət tapıb.
Zəkasıyla, öz işiylə,
Ürəklərdə heykəl yapıb.

Qartal kimi güclü idi,
Ümnisənin qanadları.
O uçduqca ucalırdı,
Ümnisənin övladları.

Zərifəylə, Qəmər ilə
Fəxr edirdi bir ana tək.
Zəhra ilə, Fəridəyə
O çəkmişdi böyük əmək.

Əməyi min bir bəhrə verdi
Zərifənin əməlində
Averbaxa qalib gəldi*,
Şöhrət çələngi əlində.

İnsan ömrü nə qısadır,
Min yaşasın alim gərək.
Həqiqəti açmaq üçün,
İllər gərək, ömür gödək.

Neçə-neçə fikirləri,
Ümnisənin qönçə qaldı.
Qəmərinin zəkası ilə,
Beyinlərə işıq saldı.

İkinci bir Ümnisədir,
Onun sevimli Zəhrası.
Daha yüksəklərdə uçur,
Elmin zirvəsini qucur.

Ümnisənin kəlamları,
Fəridənin dilindədir.
Ümnisə yaşayır demək,
Məncə deyil bu hər kəsə sirr.

Yaşayır Ümnisə xanım,
Yaşayır əməllərində.
Elmin bayrağı ucalır,
Qızlarının əllərində.

Günəş batır, günəş sönmür,
Heyhat, ölən geri dönmür.
Əgər yaşasa əməli,
Özü yaşayır deməli.

* Averbax mükafatını alan yeganə qadın Zərifə Əliyeva olub.

**Tamilla Şəfəq**

# MÜƏLLIMLƏR MÜƏLLIMI, ALIMLƏR ALIMI, MILLI AKADEMIYANIN MÜXBIR ÜZVÜ, TIBB ELMLƏRI DOKTORU, PROFESSOR ÜMNISƏ XANIM MUSABƏYLININ XATIRƏSINƏ HƏSR EDILMIŞ BIR NEÇƏ KƏLMƏ SÖZ VƏ FIKIRLƏRIM

Ümnisə xanımın həyat və fəaliyyəti, onun elmi əsərləri və tədqiqatları, müəllimliyi və ictimai fəaliyyəti haqqında çox yazmaq olar, ancaq qısa bir fikir söyləmək və onu ümumiyyətlə xarakterizə etmək çox-çox çətindir.

Deyilənə görə, hər bir insan bir Allahdan başqa üç şəxsə, üç varlığa borcludur.

Birinci - yaşadığı dövrün ölkə başçısına- çünki o, insanların yaşaması, inkişaf və tərəqqisi üçün ölkədə əlverişli şərait yaradır.

İkincisi - bizim valideynlərimizdir ki, bizi dünyaya gətirib, zəhmətimizi çəkərək böyüdüb, boya-başa çatdırıb.

Üçüncü şəxs isə bizim müəllimimizdir...!

Mən qeyd etməliyəm ki, biz insanlar, bu şəxsin qarşısında baş əyərək ömür boyu onlara minnətdar olmalıyıq. Mən öz həyatımda bu insanlara borclu olduğumu hiss edərək, qeyd etmək istəyirəm ki, mən çox xoşbəxt insanam ki, həyatımda bunların üçündən də razıyam və özümü xoşbəxt hiss edirəm ki, məhz belə insanlara borcluyam.

Müəllim kimi, bir ixtisasçı kimi mən əlbəttə, Ümnisə xanıma borcluyam. Oftalmoloq kimi inkişafımda, püxtələşməyimdə onun rolu çox böyükdür. Ümnisə xanımın minlərlə həkim kadrların hazırlanmasında, oftalmoloqların yetişdirilməsində çox böyük əməyi-zəhməti olmuşdur. Bizim dövrümüzün göz həkimlərinin əksəriyyəti onun tələbələri olmuşdur. Milli kadrların yetişdirilməsində rolu qiymətsizdir. O bir çox tibb elmləri namizədi, tibb doktorları hazırlamışdır. Mən çox fəxr edirəm və şərəf hissi keçirirəm ki, mən onun yetirməsiyəm. Oftalmologiyanın incəliklərini, elmin dərinliklərini,

xəstələrin müalicəsini və onlara həkim mübasibətini məhz ondan öyrənmişəm. Ümumiyyətlə, biz bir gənc həkim-oftalmoloq kimi ona oxşamağa çalışırdıq. Onu da qeyd edim ki, nəinki bilikdə, eləcə də xarici görünüşünə, onun davranışına, onun xasiyyətinə bənzəməyə çalışırdıq. Onun oxuduğu mühazirələr, onun diksiyası, danışıq tərzi və oftalmologiya fənninin ən çətin hissəsini sadə, başa düşülən tərzdə tədrisi hamını təəccübləndirirdi. Ümnisə xanım çox gözəl və təmiz Azərbaycan dilində mühazirələr oxuyurdu. Onu da qeyd etmək istəyirəm ki, mühazirə vaxtı heç də başqa dildə (rusca) terminlər işlətməzdi. Biz gənc həkimlər də danışıq zamanı Azərbaycan dilində rus kəlmələrini işlədirdiksə, bizə həmişə təmiz ana dilimizdə danışmağı məsləhət bilirdi. Mən bu kiçik xatirəmdə onun elmi fəaliyyəti haqqında məlumat vermək istəmirəm, ancaq onu qeyd etmək istəyirəm ki, oftalmologiya elminin bütün çətin və mürəkkəb hissələrini dərindən bilərək bir çox monoqrafiyalar, elmi məqalələr müəllifi olmuşdur. Qeyd etmək istəyirəm ki, respublikamızda ana dilində, ilk oftalmologiya üzrə dərsliyi də (1935-ci ildə) məhz Ümnisə xanım yazmışdır.

Bildiyimiz kimi, o dövrdə korluğun əsas səbəblərindən biri olan traxoma xəstəliyi idi: onun dərindən öyrənilməsində, traxomanın müalicə və profilaktikasında və bütün tibb işçilərinin və ictimaiyyətin səfərbərliyində, traxomaya qarşı mübarizənin təşkilində böyük rolu olmuşdur.

Ümnisə xanım ucaboylu, gözəl, qamətli və qürurlu bir xanım idi. O əyilməz bir insandı.

Azərbaycan Oftalmologiya elmini bütün qurultaylarda, konfranslarda və xarici ölkələrdə təmsil edirdi. O, yaşadığı dövrdə Avro-Asiya konqreslərinin təşkilati üzvü kimi dəyərli elmi nailiyyətlərimizi ingilis dilində dünya oftalmoloqlarına çatdırırdı.

Onunla birlikdə Sovetlər ölkəsinin bir çox şəhərlərində keçirilən konfranslarda mən də iştirak etmişəm. Ümnisə xa-

nım daima müzakirələrdə iştirak edərək öz fikrini və öz nöqteyi-nəzərini elə dəlillərlə sübut edirdi ki, hamını valeh edirdi. Bir alim kimi görkəmli oftalmoloqlar onun bilik və bacarığına qiymət verərək onunla çox hesablaşırdılar.

Ümnisə xanım çox obyektiv, sözü və hərəkəti düzgün, şəffaf əməlli bir insan idi. Həmişə öz sözü üstündə duran, sözünə sadiq və əməlisaleh bir mütəxəssis idi. O, öz biliyi, qabiliyyəti, insanlara münasibəti ilə hamının, yəni tələbələrinin, professor-müəllim heyətinin, əməkdaşlarının, xəstələrinin və onu tanıyanların hüsn-rəğbətini qazanmışdı.

Mən onun tələbəsi kimi ona öz dərin minnətdarlığımı bildirərək, özümü xoşbəxt hiss edirəm ki, belə bir dahi alimin yanında çalışmışam, onunla təmasda olmuşam.

Mən onun ruhu qarşısında baş əyirəm.

**Professor Zəhra Quliyeva**
*03.10.2002-ci il*

## OFTALMOLOGİYANIN MAYAKI ÜMNİSƏ XANIM

Təbabətdə qazandığım uğurlara görə institutumuzun professor-müəllim heyətinə minnətdaram. Göz xəstəlikləri kafedrasında mən bir il professor Trubinlə işlədim. O, mənim fəaliyyətimi bəyəndi, elmə yönəltdi, mövzu verdi. Ədəbiyyatları da, özünün qeydləri ilə dolu dəftərçəsini də mənə bağışladı.

1945-ci ildə Trubin dünyasını dəyişdi. Kafedra müdiri Ümnisə xanım Musabəyova oldu. Mənim oftalmologiya sahəsindəki inkişafımda unudulmaz müəllim, professor Ümnisə xanımın əvəzsiz xidməti vardır. Mən bu gün də oftalmologiyaya olan sevgimə, marağıma görə Ümnisə xanıma minnətdaram. Ümnisə xanım həyatda mənə mayak-yol göstərənim olmuşdur. Mənim alim kimi yetişməyimdə professorun zəhməti çox olub. Onun rəhbərliyi və himayəsi altında həm namizədlik, həm də doktorluq elmi işlərimi müdafiə etmişəm. Onunla ünsiyyətdən sonra qəlbimdə Ümnisə xanımın yolunu davam etdirmək arzusu yaranıb və mən o amalı yerinə yetirməyə çalışmışam.

Təkcə mən yox, bütün Azərbaycan oftalmoloqları Ümnisə xanıma borcludurlar. O, Azərbaycan oftalmologiya məktəbinin banisidir. Keçmiş SSRİ-də tanınmış, nüfuzlu oftalmoloq idi. Onun oftalmologiya sahəsinə gətirdiyi yeniliklər, çox mühüm tədqiqat işləri, dərin araşdırmaları SSRİ-də və xarici ölkələrdə yüksək dəyərləndirilirdi.

Xarici ölkələrdə SSRİ oftalmoloqlarını həmişə Ümnisə xanım təmsil edirdi. Geniş dünyagörüşlü, erudisiyalı alim idi. Mötəbər konfranslarda, simpoziumlarda ingilis, rus dilində maraqlı məruzələr oxuyurdu. Hər xarici səfərdən sonra oftalmologiya cəmiyyətində söhbətlər keçirirdi. Xarici ölkələrdə gördüklərini, tibb sahəsindəki yenilikləri bizimlə həvəslə bölüşərdi.

Ağır xəstələr konsiliuma qoyulardı. Bütün professorlar, alimlər konsiliumda iştirak edir, müayinə aparıb öz fikirlərini

söylərdilər. Bu konsiliumlar böyük məktəb idi. O vaxtı traxoma xəstəliyi - korluqla mübarizəyə hamı qalxmışdı. Azərbaycan oftalmoloqları da bu sahədə yüksək nailiyyətlər əldə etmişdilər. Bayraqdarımız isə dünya şöhrətli alim Ümnisə xanım idi. O, traxoma, gözün uyğunlaşması, hamilə qadınlarda göz xəstəlikləri sahəsində böyük uğurlar qazanıb.

Oftalmologiya tibbin mürəkkəb sahəsidir. O, fiziki, kimyəvi proseslərlə bağlıdır. Çox qəliz termin və ifadələri Ümnisə xanım elə sadə, anlaşıqlı dildə açıqlardı ki, onun mühazirələrini, tələbələr də, mütəxəssis olmayanlar da aydın başa düşürdülər. Azərbaycanca göz xəstəlikləri dərsliyini də ilk dəfə Ümnisə xanım yazıb, yaradıb.

Onu tələbəlik illərindən xatırlayıram. Ümnisə xanım ucaboy, qamətli, şux baxışlı, xoş çöhrəli, qürurlu qadın idi. O vaxtı Tamerlanın təşəbbüsü ilə axırıncı mühazirədə müəllimlərimizə hörmət və minnətdarlıq əlaməti olaraq gül dəstəsi hədiyyə edərdik. Ümnisə xanımın da sonuncu mühazirəsində ona qızılgüllərdən bağlanma çiçək dəstəsi təqdim etdik. Son dərəcə həssaslıqla, kövrək hisslərlə bizə təşəkkürünü bildirdi. Amma gülləri götürmədi. Harasa hospitala gedəsiydi, xəstələr onu gözləyirdilər. Qızlarla qərara gəldik ki, çələngi evlərinə aparaq. Ümnisə xanım İçərişəhərdə olurdu. Qapını üzümüzə nurani sifətli bir qadın, anası açdı. Ümnisə xanımın qızı da onun qucağında idi. Bizə çox böyük səmimiyyətlə təşəkkür etdi, qonaqpərvərlik göstərdi.

Ümnisə xanım sadəliyin, nəcibliyin, kübarlığın, ziyalılığın timsalı idi. İşdə sadə, lakin yaraşıqlı geyinərdi. Zinət taxmağı sevməzdi, bunu bizdən də tələb edərdi. Amma xarici ölkələrə gedəndə Ümnisə xanım tamam başqa görkəm alırdı. Bu səfərlərə xüsusi hazırlaşır, hər geyimini təzələşdirirdi. Ayaqqabılarınacan təzələrdi. Bir cüt brilyant dəsti vardı. Onlarla özünü zinətləndirirdi. Onsuz da Ümnisə xanım vüqarlı, əzəmətli idi. Deyirdi ki, mən xaricdə Azərbaycanı təmsil edirəm. Gərək buna layiq olam. Adi bir detaldan tutmuş məruzəsinədək

hazırlaşarkən o, yalnız Azərbaycanı düşünürdü. Azərbaycanı gözəl elçi sifətində təcəssüm edirdi.

Hörmətli professorumuz böyük ictimai işlər aparırdı. Sovet Sülhü Müdafiə Komitəsinin, Sovet Qadınlar Komitəsinin üzvü, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan oftalmoloqlarının lideri idi. Mən fəxr edirəm ki, belə görkəmli alim, səhiyyə fədaisi həyatda mənim mayakım olub.

**Professor Zəhra Quliyeva**

# “HƏYATIMA DÜŞƏN İŞIQ”

Görkəmli alim, tanınmış göz cərrahı Ümnisə xanım Musabəylinin göz əməliyyatları dünyaya səs salmışdı. O, Oftalmologiya aləminin sevilən və seçilən nümayəndəsi idi...

Ümnisə xanım Afrika və Asiya ölkələri üzrə Sovet oftalmoloqlarının nümayəndə heyətinin rəhbəri olub. Çünki o zaman ondan yaxşı ingilis dilində danışan oftalmoloq alim yox idi. İttifaq miqyasında birinci idi. Onun bir neçə dildə sərbəst danışması, cəmiyyətdə kübar davranışı, zövqlü və mədəni geyimi diqqət çəkdiyindən bu Azərbaycan alimi o vaxtlar Sovet bayrağının üstündə parlayan ulduza bənzədilirdi. Xüsusən, ingilis dilli olduğu üçün əksər beynəlxalq elmi tədbirlərə dəvət edilirdi. Maraqlısı da bu idi ki, Ümnisə xanım səfərlərdən yaxşı məlumatlarla geri dönürdü. O vaxtlar indiki kimi informasiya bolluğu yox idi. Sərhədlər bağlıydı, ölkələr haqqında kapitalizm təfəkkürü təbliğ olunurdu. Alim isə xaricdən qayıdanda çoxlu yeniliklərlə gəlirdi. O, gördüklərini ilkin olaraq Azərbaycanda həyata keçirib, dünya təbabətinin ən son nailiyyətlərini vətənində gerçəkləşdirib...

Ümnisə xanımın əməliyyatları o qədər uğurlu alınırdı ki, xaricə ölkələrdən də yanına xəstələr axışırdı. Azərbaycandan belə böyük bir alimin yetişməsinə nəinki Sovet İttifaqında, dünya ölkələrində də mat qalmışdılar.

Qeyri adi mühazirə söyləmək qabiliyyəti var idi. Tələbələrinə, həmkarlarına mövzuları emosiyalı çıxışlarla, başa düşülən tərzdə elə təqdim edirdi ki, sözünü, cümləsini yazmağa ehtiyac yox idi. Hər kəlməsi beyinə həkk olunurdu. Bir-iki dəfə mühazirələrini dinləyən şəxs onun səsinin sehrinə düşürdü. O illər Tibb İnstitutunda göz xəstəlikləri bir ay tədris olunurdu. Tələbələr cəmi səkkiz mühazirə dinləyirdi. Ümnisə xanımın böyüklüyü ondadır ki, bu səkkiz dərs zamanı tələbəyə özünü, sənətini sevdirməyi bacarırdı. Mühazirələr

bitəndən sonra biz onun söhbətlərini eşitmək, alimi yenidən dinləmək üçün iştirak etdiyi seminarlara, konfranslara gedirdik. O danışanda insan kiprik belə çalmaq istəmirdi ki, birdən nə isə nəzərindən qaçar.

Tibb institutuna gələndə, kişilər göz həkimi olmağı ağlına belə gətirməzdilər. Ancaq Ümnisə xanımı dinləyəndən sonra əksər tələbə oftalmoloq ixtisasını seçdi. Ümnisə xanımla söhbətdən sonra bu sənətə vurulurdular. Xarici ölkələrdə belə insanların mühazirələrinə biletlər satılır. İnsanlar pul verib, həmin saatlarda könüllü dinləyici olurlar. Ümnisə xanım gözəl natiq idi və onun dünyanın mötəbər konfranslarında etdyi məruzələr hələ də qocaman oftalmoloqların yaddaşında qalıb. Azərbaycanı təbliğ etdiyi günlər indiyə kimi xatırlanır. Mən bu yaxınlarda (2012-ci il, avqustun axırı, sentyabrın əvvəli) İtaliyada elmi tədbirdə idim. Yaşlı bir italyan həkim Ümnisə xanımdan söhbət açdı və bildirdi ki, 25 yaşı olanda Ümnisə xanımın Yaponiyada ingilis dilində məruzəsini dinləyib. Onun zəngin biliyi və gözəl danışığı bütün salonu heyran edibmiş...

Tibb İnstitutunu bitirib, Almaniyaya hərbi xidmətə getdim. Bir gün Oder çayında əsgərlər təlim keçirdi. Tanklar suyun altı ilə hərəkət edib, sahilə çıxırdılar. Tankın biri suyun altında qaldı və içərisində olan cavan əsgərlər özlərini çaşdırıb, oradan çıxmağa çalışdılar. Onlar canlarını qurtarsa da, tankı sürən əsgər xilas ola bilmədi. Xilasedicilər əsgəri huşsuz vəziyyətdə sahilə çatdırdılar. Mən də onların həkimi idim və hərbi hissədə gözə baxan oftalmoloji alət tapmışdım və cibimdə saxlayırdım. Həmin alətlə əsgərin gözünə işıq saldım. Göz bəbəyinə baxanda insanın sağ olub-olmadığı məlum olur. İşığı gözə tutursan, əgər bəbək oynayırsa, demək bu adam hələ sağdır. Bəzən bəbək oynamasa da insan sağ ola bilər. Gördüm ki, əsgərin göz bəbəyində qan hüceyrələri hərəkət edir və intensiv reanimasiya tədbirlərini davam etdirdik. O ukraynalı gənci həyata qaytara bildik. Bu hadisə səs-

küyə səbəb oldu. Oğlanın valideynləri uzun müddət mənə məktub yazırdı. Həmin hadisədən sonra mən qəti qərara gəldim ki, göz həkimi olmalıyam. Haqqımda qəzetdə yazılar dərc olundu, mükafat olaraq məni məzuniyyətə göndərdilər.

Məzuniyyətə gələn kimi, mən Ümnisə xanımın yanına gəldim və oftalmoloq olmaq arzumu ona bildirdim. Ümnisə xanım çox sevindi və dedi ki, "mən səndən soruşanda başqa cavab vermişdin, necə oldu ki, birdən-birə fikrini dəyişib, göz həkimliyini seçdin?". Mən həmin hadisəni müəllimə danışdım.

Ümnisə xanım məni Almaniya təbabəti haqqında məlumatlandırdı və onun verdiyi siyahı üzrə kitabları alman dilində mütaliə etməyə başladım. Əsgərlikdən gələndə xeyli məlumat toplamışdım. Bir ildən sonra Moskvada aspiranturaya daxil oldum. Burada da elm aləmində ad-san qazanan insanlardan, akademiklərdən dərs aldım. Bütün elmi titulları qazandım. İndi bir alim kimi ildə dörd dəfə beynəlxalq konfranslarda iştirak edirəm. Katarakta barədə 20 ixtiram var. Beş dənə süni büllur və süni büllurun gözə qoyulması üçün dörd material ixtira etmişəm. Qlaukoma barəsində ixtiralarım var. Buynuz qişanın köçürülməsi istiqamətində, süni qüzeyli qişa barəsində ixtiraların müəllifiyəm. Bu saydıqlarımın hamısını Moskvada həyata keçirmişəm. Xeyli vaxt orada çalışdım, vətən torpağı çəkdiyi üçün Azərbaycana qayıtdım.

Mənim bu sənətə gəlməyimdə, bu səviyyəyə qalxmağımda Ümnisə xanım böyük rol oynayıb. Onun mühazirələrindən, göz haqqındakı düşüncələrindən sonra mənim oftalmologiyaya məhəbbətim artdı. Ona görə də Ümnisə xanım həmişə qəlbimdədir, onun xatirəsi daima mənə əzizdir.

Azərbaycanda oftalmologiyanın təməlini Ümnisə xanım qoyub. Bu gün oftalmologiya üzrə tanınmış yaşlı alimlər onun məktəbinin yetirmələridir. O, tələbələrə xüsusi qayğı göstərib. Kimə güvənirdisə, ona tələbkar yanaşırdı. O, savadlı tələbəni çox sevir, ona hər zaman diqqət yetirirdi.

Tələbələri arasında Zərifə xanıma çox üstünlük verirdi. Çünki Zərifə xanımın kövrək, həssas qəlbi, zəkalı, savadlı tələbə olması diqqətini çəkir, ondan oftalmologiyanın gələcəyi üçün çox şey gözləyirdi. Zərifə xanım da professorun bütün ümidlərini doğrultdu. Akademik Zərifə Əliyeva Azərbaycan oftalmologiyasının inkişafı üçün əlindən gələni əsirgəmədi. Bir vaxtlar Ümnisə xanım dünyanın hansı nöqtəsində olurdusa, oradan Azərbaycana tibbi avadanlıqlar gətirirdi. Sonradan bu missiyanı Zərifə xanım davam etdirib. Heydər Əliyevin imkanlarından istifadə edərək tək Azərbaycanı deyil, elə Moskvanın özünü də müasir texnologiya ilə zənginləşdirib.

Ümnisə xanımın daxili aləmi zəngin idi. Xalqını, dövlətini, torpağını çox sevirdi. Azərbaycanı xaricdə yüksək səviyyədə təqdim edib və bununla da qürur duyurdu. Onu görəndə hamı fəxr edirdi ki, Azərbaycanın belə bir ziyalı xanımı var. Ona baxanda Azərbaycan qadını məhz belə olmalıdır, - deyə öyünürdük. Bizə qibtə edirdilər ki, əgər xalqımız, torpağımız, millətimiz, mədəniyyətimiz belə ziyalı yetişdirirsə, onda Azərbaycan çox zəngin ölkədir. Mən həyatım boyu oftalmoloqların hansı tədbirində iştirak etmişəmsə, Azərbaycan adını çəkəndə Ümnisə xanımı xatırlayıblar.

Ümnisə xanımın çox zəngin kitabxanası var idi. Hara gedirdisə, özüylə xeyli sayda kitab gətirirdi. Həm Tibb İnstitutunda, həm də evində nadir ədəbiyyat toplamışdı, hamısını da tələbələrinin ixtiyarına vermişdi.

Ümnisə xanımın vəfatından sonra Moskvada eşitdim ki, şəhərin kitab mağazalarında Ümnisə xanımın kitabları satışa çıxarılıb. Bu barədə xəbər tutan kimi mən də imkanım daxilində bir neçə ədəbiyyatı əldə etdim. Maddi imkanım olsa idi, onun bütün kitablarını alıb, Azərbaycana qaytarardım. Heyf ki, buna pulum çatmadı. Ümnisə xanımın müəllifi olduğu kitablar da daxil olmaqla bütün kitabxanası qısa zamanda satıldı. Bir neçə dil bildiyi üçün dünyanın hər ye-

rindən topladığı və içəri səhifəsinə adını yazdığı kitabları oftalmoloqlar sevinə-sevinə alırdılar...

Bu gün Azərbaycanda oftalmologiya yüksək səviyyədə inkişaf edib. Oftalmologiyanın əsasını qoyan Ümnisə xanım və onun layiqli tələbəsi Zərifə xanım Əliyevanın xidmətləri misilsizdir. İndi ölkəmizdə müasir tibbi texnologiya ilə təchiz edilmiş zəngin göz institutu fəaliyyət göstərir. Bu institutda təcrübəli, savadlı, dünya səhiyyəsini heyran edən professorlarımız çalışır. Azərbaycanın intellekt səviyyəsi inkişaf edir, ölkədəki təbii mühit zehni təfəkkürün fəaliyyəti üçün imkanlar açır. Ölkəmiz indi dünyada təkcə təbii sərvətləri ilə yox, əqli simaları ilə tanınır...

Bu gün Ümnisə xanımın inandığı, oftalmologiya aləmində xeyir-dua verdiyi tələbələr onun amalını davam etdirirlər.

110 yaşlı Ümnisə Musabəylinin xatirəsinə bir daha ehtiramımı bildirirəm. Unudulmaz professorun ruhu şad olsun. Sağlığında əbədiyyət qazanan, xatirəsi yaddaşlara həkk olunan alimə Allah rəhmət eləsin.

**Professor Çingiz Cərullazadə**

## “YADDAŞLARA ƏBƏDİ YAZILAN İNSAN”

Ümnisə xanımı gördüyüm ilk günü xatırlayıram. Bu xanım ilk gündən insanı özünə cəlb etməyi bacardığından, onu birinci dəfə gördüyüm anı heç vaxt unuda bilmirəm... 50-ci illərin ortaları idi. Azərbaycan Tibb institutunun tələbəsi idik. Mühazirə otağının qapısından bir xanım içəri daxil oldu. O andaca diqqətimizi özünə çəkdi. Onun səsi, davranışı, biliyi və digər fərqli xüsusiyyətləri olduğundan, inanın ki, bütün tələbələr bu xanıma valeh oldular. Sonradan eşitdik ki, nəinki, tələbələr, sən demə müəllimlər də Ümnisə xanımın vurğunudurlar. Bizim auditoriyada elə bir tələbə yox idi ki, ona vurulmasın. Biz onu da öyrəndik ki, bizə dərs deyən bu xanım dünya miqyasında tanınmış Azərbaycan alimi imiş. Onu get-gedə daha yaxından tanıdıqca, xaricdəki fəaliyyətini eşitdikcə, alimə rəğbətimiz daha da artdı. Ümnisə xanımla fəxr eləməyə başladıq. Belə bir Azərbaycan qadını olduğu üçün qürur duyduq, xüsusən də onunla ünsiyyətdə olduğumuzdan qürrələndik. Tanıdığımız üçün sevindik ki, biz şöhrəti tibb aləmində əks-səda yaradan bir alimdən dərs alırıq...

Ümnisə xanımın deputat kimi də fəaliyyəti təqdirəlayiq olub. Xəstələrlə yanaşı, ona etimad göstərən seçicilərindən də yanına xeyli sayda insanlar gəlirdi və eşidirdik ki, hamısına kömək əlini uzadır. O, vaxt tapıb, bütün elmi tədbirlərlə yanaşı, digər ictimai işlərdə də yaxından iştirak edirdi. Hər bir sahədə özünü doğruldub. Çoxşaxəli yaradıcılığa malik olan bu xanım elə bir tədbir yox idi ki, ora qatılmasın.

Sonra Ümnisə xanımı bir müddət görmədik. O Misirdə mühazirələr oxumağa dəvət edilmişdi və Qahirədə, hospitalda 3 il çalışdı.

Ümumiyyətlə çox maraqlı insan idi.

Onun savadına hamı heyran qalmışdı. O qarşısına nə məqsəd qoyurdusa, onu da qısa müddətdə həll edərdi. Özünə tələbkar yanaşan qadın olub. Qısa vaxtda ingilis dilini

öyrəndi və bütün konfranslarda bu dildə sərbəst məruzələr edib. Öz ana dili kimi bir neçə dildə danışmağı bacarıb. Mənim yaxşı yadımdadır ki, hamının dilinin əzbəri olmuşdur, belə professoru olduğundan o zaman institutun rəhbərliyi və kollektivin hər bir əməkdaşı alimi hamıya örnək çəkirdi...

Mən Ümnisə xanımın ailəsində qonaq olduğum günü də yaxşı xatırlayıram… 1956-cı ildə turizm xətti ilə Almaniyaya getmişdik. Həmin dəstədə Ümnisə xanımın qızı Dilarə xanımla tanış oldum. O, Moskvada, aspiranturada təhsil alırdı. Mən isə Azərbaycan Tibb institutunu təmsil edirdim. Biz dostlaşdıq. Bakıya qayıdandan 15 gün sonra Dilarə xanım bizi evlərinə qonaq çağırdı. Onlar İçəri Şəhərdə, böyük qədimi evdə yaşıyırdılar. Dilarə xanım məni və Arifi gülər üzlə qarşıladı və qonaq otağına gətirdi. Bir xeyli səfər təəssüratlarını bölüşdük. Birdən Ümnisə xanım içəri girdi. Biz elə bilirdik ki, Ümnisə xanım evdə yoxdur və onu görən kimi bir az həyacanlandıq. Ancaq səmimi insan olduğundan bizimlə tez ünsiyyət yaratdı və bir saata yaxın söhbət elədi. Bizim Almaniya barəsində fikirlərimizlə maraqlandı. Birinci dəfəydi ki, mən Almaniyada olurdum və bu ölkə o qədər xoşumuza gəlmişdi ki, dünyanın ən gözəl şəhəri hesab eləyirdik. Həmin vaxt da Ümnisə xanım Vyetnamda, konqresdə iştirak eləmişdi. O da bizə Vyetmandan danışdı və dediyi bu cümlələr indi də xatirimdədir: “Vyetnam elə bil, Fransanın xırda bir hissəsidir və orada olan fransızlar özlərinə gözəl şərait yaradıblar”.

Ümnisə xanım bizimlə sağollaşıb, ayrıldı. Dərsdəki mühazirələri kimi bu söhbəti də maraqlı və yadda qalan olduğundan, uzun müddətdir ki, xoş anlarla o günü xatırlayıram.

Dilarə xanımla növbəti görüşümüz xeyli vaxtdan sonraya təsadüf etdi. 2002-ci ildə Ümnisə xanımın 100 illik yubileyi münasibəti ilə keçirilən konfransda rastlaşdıq...

Ümnisə xanım Azərbaycanda yayılan Traxomanın qarşısını aldı. O bu məsələ ilə əlaqədar öz əməkdaşları ilə rayonlarda olur, yerlərdə sakinlərlə görüşür, xəstəlikdən qurtulma yollarını arayırdı. Ölkədə xəstəliyinin kökünü kəsməyi bacardı. Oftalmologiyada bir çox elmi tədqiqat işləri apardı və onun başladığı məsələləri, tələbələri davam etdirdilər.

Mən böyük alimlərimiz qarşısında baş əyirəm. Onların bizə verdiyi öyüd-nəsihət indi də qulaqlarımdadır. Bu alimlərin xatirəsi əziz olduğu üçün onlar haqqında kitab hazırlayıram. Hazırladığım kitabda yaddaşımda qalan və əməlləri ilə seçilən dəyərli elm xadimləri yer alacaq. Kitabda Ümnisə xanım Musabəyli haqqında da qeydlərim var. Mən onun haqqında belə yazmışam: "Ümnisə xanımın yumşaq və şirin ləhcəsi vardı, sanki sözləri boyunbağı dənələri kimi, xırda mirvarilərtək yan-yana səliqə ilə düzürdü. Nə deyirdisə, yaddaşlara mıx kimi çalınırdı. Onun xüsusi mühazirə aparmaq qabiliyətinə malik manevrası olduğundan, dedikləri insan beyninə o andaca həkk olunurdu...". ..

Ümnisə Musabəyli haqqında yazmağı ürəyim istədi və bunu məndən vicdanım tələb edir. Belə insanlar dəyərli olduğundan onlar haqqında danışmağa dəyər.

Allah rəhmət eləsin. Mənim qohumlarımın uyuduğu köhnə qəbiristanlıqda Ümnisə xanım həyat yoldaşı İbrahim İsmayılzadə ilə yan-yana uyuyur. Yolum o məzarıstana düşəndə, mən onları da ziyarət edir və hər ikisinin ruhuna ehtiramımı bildirirəm. Qəbirləri nurla dolsun.

**ATU-nun "İnsan anatomiyası" kafedrasının professoru,**
**tibb elmləri doktoru, əməkdar elm xadimi**
**Rafiq Əsgərov**

# TƏKRARSIZ ÜMNİSƏ XANIM

XX əsrin qadın ziyalıları içərisində ön sırada yeri olan nəhəng, gözəl-Ümnisə xanım Musabəyli!

Ümnisə xanım okeanda üzən böyük aysberq idi. Bu aysberqin zirvəsi oftalmologiya elminin bütün üfüqlərindən görünsə də, onun özü olduğundan qat-qat böyük imiş.

Ümnisə xanımın elmi əsərlərini tələbələrimiz zaman-zaman oxuyacaq, ondan öyrənəcəklər. Əslində, mən onun sonuncu tələbəsiyəm. Təkrarsız, iddialı, böyük Ümnisə xanımı gözlərimlə görmüşəm, mühazirələrini, söhbətlərini dinləmişəm, cərrahiyyə əməliyyyatlarında assistentlik etmişəm, qulluğunda durmuşam, üzünün nurundan, parlaq zəkasından, xeyir-duasından taleyimə pay düşüb. Mən, Ümnisə xanımın sağlığında tələbəm dediyi adamlardan biri, axırıncısıyam.

Deyirlər, Albert Eynşteynin gözlərində qeyri-adi parıltı var imiş. Heç bir fotoaparat, kinokamera o şövqü, parıltını kağıza, lentə fiksə edə bilməyib. Ümnisə xanımın üzündə qeyri-adi nur var idi. O, otağa daxil olanda, otaq işıqlanırdı. Fotoşəkillərdə, onun haqqında çəkilən filmdə o nurun cüzi bir hissəsi qaldı...

Ümnisə xanım qeyri-adi zəhmətsevər idi. Dünyada alman dilinin əvəzinə ingilis dili dəb düşəndə iki ilə mükəmməl ingilis dili öyrəndi, o dildə Tokioda, Qahirədə, Los-Ancelosda, Tunisdə, Romada...parlaq elmi və siyasi məruzələr elədi...

Ümnisə xanım qeyri-adi düzlük sevən, sözübütöv şəxsiyyət idi. 5-6 il sonraya verdiyi sözün üstündə durardı. O iş çətindən çətin olsa da, qızıldan qiymətli vaxtı hesabına, sərvəti, əsəbləri hesabına başa gəlsə də (hansı əməkdaşısa ev almalıydı..., tələbəsi işə düzəlməliydi..., deputatı olduğu Naxçıvandan 5 yetim atası nəlbəki satmağın üstündə həbs olunmuşdu-onu azad etdirməliydi... və s. və i.a ).

Ümnisə xanım qeyri-adi vətənpərvər, yurdsevər idi. Hələ altmışıncı illərdə ana dilində ətirli, lətif, gözəl, nadir sözlərlə danışar, mühazirələr oxuyardı. Alman, ingilis, rus və erməni dillərini mükəmməl bilən alim, danışığında bir kəlmə də olsun əcnəbi söz işlətməzdi və bunu da həmsöhbətindən (kimliyindən asılı olmayaraq) tələb edərdi. Danışığı hər dildə sərbəst, gözəl və səlis nitqini, onun sonradan parlaq şəxsiyyətlərə çevrilmiş alim tələbələrində də gördüm. (Zəhra xanım Quliyeva, Zərifə xanım Əliyeva və b.). Ümnisə xanım çox böyük alim idi. Son iyirmi ildə dörd ildən bir dünyanın müxtəlif ölkələrində çağrılan Asiya və Afrika ölkələri oftalmoloqlarının daimi konqresində həmişə sovet elmi nümayəndə heyətinə başçılıq etmişdir. Samballı, bu günkü günə qədər öz əhəmiyyətini itirməyən monoqrafiyaların, elmi əsərlərin, dərsliklərin müəllifidir. Görmə orqanının fiziologiyasının - refraksiyasının tədqiqi sahəsində dünya şöhrətli oftalmoloqdur. İndi ölkə-ölkə qəlpələnən keçmiş sovetlər birliyinin bütün respublikalarında onun alim-tələbələri var.

Ümnisə xanımı sevərdilər, Ümnisə xanımdan qorxardılar, Ümnisə xanıma həsəd aparardılar, Ümnisə xanımla hesablaşardılar...

SSRİ oftalmoloqları idarə heyətinin sədri, professor E.S.Avetisovun Ümnisə xanım Musabəylinin "Asiya və Afrika ölkəri oftalmoloqlarının daimi konqresində" kitabını oxuyandan sonra müəllifə yazdığı məktubundandır bu cümlələr: "...Kitabınızı oxuyandan sonra çox təəssüfləndim ki, niyə Siz yazıçı, jurnalist olmamısınız. Həm də sevindim, əgər belə olsaydı, onda oftalmologiya elmi itirərdi". (58)

Qürbətdə çap olunmuş tibb dərsliklərində, həmin sahənin tarixində müstəsna rol oynamış azərbaycanlı alimlərdən yalnız Ümnisə Musabəylinin şəklini görmüşəm.

Dünyanın müxtəlif ölkərində yaşayıb-işləyən görkəmli oftalmoloqlarla hər görüşümdən sonra üzü hamar, arxa tərəfi cilalanmamış, cod qırmızı mərmər başdaşınızla üzbəüz du-

rub, Sizə ürəyimdə hesabat verirəm, Ümnisə xanım! Sizin haqqınızda o alimlər qəribə, həm də millətimiz üçün fəxr sayılası xatirələr danışırlar (professor Dəmir Başar, Erol Turaclı, Çolpan Mirzətac, Antelava, akademik M.Krasnov, S.Fyodorov, Eroşevski, Barrakver, Troutman...). Nazlı, üzü nurlu, iddialı, sərt, hazırcavab, danışığı, geyimi gözəl böyük alim, nəhəng şəxsiyyət...

Kafedramızda Sizinlə çoxdan işləyən həmkarlarınız danışır ki, Rusiyanın paytaxtdan uzaq şəhərlərindən birində Fransa Elmlər Akademiyasının fəxri üzvü olan qardaşınız rəhmətə gedir. Siz Bakıdan yola düşəndə ən bahalı, gözəl geyiminizdə, elmi konqreslərə gedərkən hazırlaşdığınız kosmetikada olmusunuz. Bir nadanın sorğusuna ...cavab vermisiniz ki, "Mən getdiyim şəhərdə, dəfndə bəlkə də heç azərbaycanlı görən yoxdur. Axı mən Azərbaycanı təmsil edirəm və millətimiz haqqında təəssürat yaradıram!" Siz ayağınız dəyən saysız qürbət torpaqlarında həmişə Azərbaycanı layiqincə təmsil edirdiniz, Ümnisə xanım!

Bəlkə də çoxları bilmir ki, 38-ci ildə vaxtilə Azərbaycan Demokratik Respublikası Parlamentinin deputatı, sonralar sizin həyat yoldaşınız olan professor İsmayıl bəyi həbs etdilər. Siz körpə qızınızla mənəvi və maddi sıxıntılarla dolu ömür kitabınızın iyirmi vərəqini – iyirmi ilini böyük əzablar, məhrumiyyətlərlə səhifələdiniz. Elə buna görə sonralar başdaşınızın bir üzünü Dilarə xanım cilalatdırmadı. O başdaşında iki tarix var-1902-1974. Orada Sizin akademiyamızın müxbir üzvü, professor olmanız və s. də yazılmayıb (çünki Siz sağlığınızda sevməzdiniz ölülərə fərq qoymağı ).

Ümnisə xanım, Siz heç vaxt Sov.İKP üzvü olmadınız, kişi ömrü yaşadınız, dilinizdən çıxan söz, söz donunda quş olub uçmadı, nəhəng səma gəmiləri kimi öz qiymətli yükünü həmişə mənzil başına daşıdı.

O yaxın-uzaq, narın yağışlı noyabr günündə qulluqçunuz deyərdi ki, sağlığınızda belə deyərmişsiniz: “Mən nə vaxt cərrahiyyə əməliyyatı edə bilməsəm, onda yaşamayacağam!”.

Siz bu dəfə də dediyinizi etdiniz...

Qaynar elmi nəfəsinizlə qızdırdığınız Azərbaycan oftalmologiyası həmişə Sizə layiq olmağa çalışır, əziz və gözəl Ümnisə xanım!

Allah sizə Rəhmət eləsin. 110 yaşınız mübarək olsun!

**ATU-nun “Oftalmologiya” kafedrasının müdiri, tibb elmləri doktoru, professor, əməkdar həkim**
**Paşa Qəlbinur**

## "AZƏRBAYCANIN DÜNYA ŞÖHRƏTLİ QIZI"

Ümnisə xanımı daha yaxından tanıdığım günləri yaxşı xatırlayıram. Gənc stomotoloq idim. İnstitutda fərqlənən tələbə olduğum üçün mənə etimad göstərilmişdi. Həkimləri Təkmilləşdirmə İnstitutunun "stomotologiya" kafedrasında assistent işləyirdim. Professor Əhmədovun yanında çalışırdım. 1962-63-cü illərin söhbətidir. O vaxt Ümnisə xanım Musabəyova dişlərində problem olduğu üçün professorun yanına müalicəyə gəlirdi. Məşhur professor Əliağa Əhmədovu hamı tanıyırdı. Respublikada öz ixtisası üzrə ən yaxşı həkim idi. Şöhrəti bütün el-obaya dolaşmışdı. Mən hələ o vaxt gördüm ki, Ümnisə xanım gələndə Əhmədov onu necə qarşılayır. Hər dəfə qapıya çıxıb, böyük ehtiramla alimi otağına dəvət eləyirdi. Əvvəlcə özü müayinə edirdi, sonra isə müalicə həkimi. Onun da hamı kimi, Ümnisə xanıma böyük hörməti var idi.

Onun hər gəlişində mən həmişə bu qadına heyran olurdum. Əvvəla, çox nizam-intizamlı idi. Deyiləndə ki, saat 10-da gəlmək lazımdır, düz vaxtında, deyilən saatın tamamında gəlirdi. Bir dəfə də olsun, o gecikməzdi, ya da tez gəlməzdi. Xarici görünüşündə çox sadə idi. Həmişə düzgün geyim seçər, sadə libası ilə fərqlənirdi. Professorun diş ətinin problemi olduğundan biz onu bir, iki kurs dərmanlarla, müəyyən otlarla müalicə elədik. Ümnisə xanımın müalicəsini mən aparırdım. Mən bilirdim ki, bu xanım görkəmli məşhur alimdir, tanınmış professordur. Ona görə də qarşımdakı insanın böyük bir elm xadimi olduğunu görür, belə şəxsiyyətin qarşısında özümü bir az narahat hiss edirdim. Çəkinə-çəkinə dişlərinə baxırdım. O da bunu ilk baxışdan hiss elədi. Bir cavan həkim kimi məni elə ruhlandırdı, elə öyüd-nəsihətlər verdi ki, bir, iki görüşdən sonra biz tamamilə doğmalaşdıq. Hətta onunla hər söhbətdən mən nəsə öyrənirdim, dediklərini özümə təlqin edirdim. Hətta yadımdadır ki, bir dəfə həkim papağının altından bir iki saçım üzümə tökülmüşdü. Mənə

dedi: "Tamara, sən ağıllı qızsan, sən həkimsən, çalış, xarici görünüşünə fikir ver. Həkim həmişə səliqəli olmalıdır. Xəstə həkimin xarici görünüşü ilə də maraqlanır. Sən gülərüz, xeyirxah həkim omaqla yanaşı, özünə də fikir verməlisən ki, xəstələrin rəğbətini qazanasan. Bunun üçün özünə diqqətli olmalısan. Eşitmişəm ki, sən həm də elmi iş yazırsan. Bu çox yaxşı, deməli sənin işin həddindən artıq çox olacaq. Bununla bərabər, sən özünü unutmamalısan. Çünki sən qadınsan, qadın isə həmişə gözəl görsənməlidir".

Mən bilirdim ki, Ümnisə xanım alimlər arasında göz həkimləri içərisində birincidir. Öz sahəsinin tanınmış professorudur. Əmkdar elm xadimidir. O vaxtlar, yəni sovet dövründə xaricə heç kim gedə bilmirdi. 60-cı illərdə az-az insan tapılardı ki, tez-tez beynəlxalq aləmi dolaşsın. Amma Ümnisə xanım Türkiyəyə mühazirələr söyləmək üçün dəvət olunmuşdu, öz yenilikləri ilə xarici həmkarlarını heyrətləndirirdi. Onu tez-tez o vaxtlar SSRİ miqyasında tanınmış Odessa Elmi Tədqiqat Göz xəstəlikləri mərkəzinə dəvət eləyirdilər, həm konfranslarda iştirak edirdi, həm də orada onun təcrübəsindən bəhrələnirdilər. O institun müdiri məşhur akademik Filatov Ümnisə xanımın vurğunu idi. O həmişə deyərdi ki, "Vı Umnitsa xanım". Bilirsiniz ki, rus dilində "umnitsa" sözü "ağıllı" deməkdir.

Ümnisə xanım həqiqətən ağıllı və çox xeyirxah insan idi. Xeyirxah olduğu qədər də ciddiydi. Bəzən, gülməli bir hadisə eşidəndə də incə gülüşlə reaksiya verirdi.

Adi gülmək mədəniyyəti də onun üçün önəm kəsb edirdi. Ən xırda məqamlara belə, hər bir situasiyaya həssas yanaşırdı.

Hamı bilirdi ki, Ümnisə xanımın həyat yoldaşına böyük hörməti var. O da professor idi. Dəri-zöhrəvi üzrə tanınmış elm adamı idi. Onlar həmişə evlərində elmi söhbətlər, müzakirələr və mübahisələr edirmişlər. Göz nahiyəsində yaranan dəri problemi ilə bağlı hər iki alim qızğın mübahisələr

aparır, ikisi də elmi məntiqi əsaslarla bir-birinə fikirlərini sübut etməyə çalışırlarmış. Çünki ikisi də respublikada dəyərli mütəxəssis olub. Ümnisə xanım təbabətin müasir yeniliklərini bilən böyük alim idi...

Bir dəfə mənə dedi ki, "Azərbaycan Tibb jurnalından zəng vurub, yubileyimlə bağlı məqalə çap eləmək istəyirlər. Mən isə ehtiyac bilmirəm". Səbəbini soruşanda bildirdi ki, "yubiley heç ağlıma gəlmir, mən öz işimlə məşğulam, bir də ki, qarşıda hələ çox illər olacaq, görüləsi işlərim o qədər çoxdur ki, o zaman danışmağa dəyər". Sanki bu böyük alim öz gördüyü işlərdən xəbərsiz idi, təriflənməyi sevməzdi, elmi tapıntılarını adi bir alimin yaradıcılığı ilə eyniləşdirir, daha böyük amallar uğrunda mübarizə aparırdı. Ancaq Ümnisə xanım belə düşünsə də, onu tanıyanlar bilirdi ki, bu xanım o zirvələrə elə cavan yaşından qalxmağa müvəffəq olmuşdu. Ən çətin səddləri keçmiş, ən uca yüksəkliyə qanad açmışdı.

Ümnisə xanımın saçında bircə dənə də olsun ağ saç yox idi. Özünə baxımlı olduğu üçün saçlarına düşən dəni heç özü də görə bilməzdi. Deyərdi ki, "əgər qadın saçını boyayırsa, bunu həmişə etməli, saçının boyalı olduğunu sezdirməməlidir". Qadına yaraşdıra bilmirdi ki, bir gün saçı ağ, bir gün də qara görkəmdə camaat arasına çıxsın. Ancaq onu da deyim ki, bir dəfə də olsun eşitmədim ki, Ümnisə xanım qadın salonuna vaxt ayırsın. O özü-özüylə məşğul olurdu. Vaxt, zaman onun üçün dəyərli idi. Bir neçə gün sonrakı işini də əvvəlcədən planlaşdırardı. Hündürboylu Ümnisə xanıma qara qısa saç, uzun manto çox yaraşırdı. Sifəti daima gülümsəyirdi, qarşına çıxdısa, həmin gün onun o mülayim baxışları gün boyu insana xoş aura verirdi.

Məqalə üçün ona zəng vuran baş redaktora səmimi minnətdarlığını bildirib, israrlı şəkildə haqqında yazıya ehtiyac olmadığını desə də, həmin vaxt yadımdadır ki, Tibb jurnalında onun elmi fəaliyyəti barədə geniş səhifə oxuculara təqdim olundu. Özü bunu məsləhət bilməsə də, onu tanı-

yanlar yaxşı bilirdilər ki, Azərbaycan elmini dünyada təbliğ edən professor Ümnisə Musabəylinin xidmətləri misilsizdir.

Ümnisə xanımın ən böyük xidmətlərindən biri də onun Azərbaycan Oftalmologiya elminə bəxş etdiyi alimlərdir. Bəli, bu xanım alimlər yetişdirib, elə elm adamları hazırlayıb ki, onların hər biri elmin bu sahəsində öz izini qoya bilib. Ümnisə xanım sevdiyi, inandığı tələbələrə yol göstərdi və onlar da seçilən insanlardan olduğu üçün öz müəllimləri kimi adlarını əbədi olaraq elmin tarixinə yazdırmağı bacardı. Böyük oftalmoloq alim Zərifə xanım Əliyeva da Ümnisə xanımın ən sevilmli tələbələrindən biri idi. Zərifə xanım həmişə onun adını ehtiramla çəkirdi. Onun gözəl müəllim, yaxşı insan, nümunəvi qadın, insanlarla davranışını, məşhur alim olduğunu hər zaman dilə gətirirdi. Oftalmologiyanın ən aktual problemlərini tədqiq edən alim öz tələbəsinə, Zərifə xanıma çox ciddi bir məsələni öyrənməyi həvalə etmişdi və fitri istedadına inandığından bilirdi ki, öhdəsindən asanlıqla gələ biləcək. O zaman Azərbaycanı traxoma bürümüşdü. Əhalinin yarıdan çoxu bu xəstəlikdən korluğa düçar olurdu. Xəstəliyin qarşısını almaq məqsədi ilə alim və onun tələbələri gərgin mübarizə aparırdı. Zərifə xanım da "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi"ni araşdırdı və uğurlu elmi nəticə əldə etdi. Zərifə xanım namizədlik dissertasiyasını müdafiə edəndə, mən 3-cü kursda oxuyurdum. Bir tələbə kimi maraqlanırdım ki, dissertasiya müdafiə eləmək nə deməkdir. Ona görə həmin tədbirdə iştirak elədim. Ümnisə xanım bütün çıxışları diqqətlə izləyirdi. Zərifə xanım araşdırdığı mövzu ilə bağlı ətraflı məlumat verdi. Traxomada sintomisinin müalicə əhəmiyyətindən danışdı və bildirdi ki, bu xəstəlik göz qapaqlarının ətrafında kəskin iltibah yaradır, korluqla nəticələnir. Deyilən üsulla müalicə isə effektini verəcək. Həqiqətən də elə oldu. Zərifə xanımın apardığı klinik üsul minlərlə insana kömək oldu. Bu böyük alimlərin səyi nəticəsində Azərbaycanda Traxomanın

kökü kəsildi. Həmin gün Ümnisə xanım tələbəsinin uğuruna görə bəlkə Zərifə xanımdan da çox sevinirdi. Axı onun savadına güvəndiyi, alimliyə layiq bildiyi Zərifə Traxomanın qarşısını ala bilən bir üsul tətbiq eləmişdi...

Ümnisə xanım Azərbaycan oftalmologiyasının banilərindən biridir. Bu elmin inkişafında, respublikamızdan kənarda tanıdılmasında misilsiz xidmətləri var. Həm ölkədə, həm də dünya təbabət aləmində böyük nüfuza malik ziyalı, tanınmış elm xadimi idi. Əfsuslar olsun ki, vaxtsız ölümü ilə xalqı kədərləndirdi. O, yaşadığı həyatın gözəlliyini duyan, insanlara kömək olan, həyatda mübarizə aparmağı bacaran və bütün maneələri dəf etmək qüdrətinə malik bir şəxsiyyət idi. Aciz qaldığı, iradəsinə tabe olmayan məqamlarla barışa bilməzdi. Elə də oldu. Birdən-birə yatağa düşdü və belə yaşamağı özünə rəva bilmədi. (Əgər indiki dövr olsaydı Ümnisə xanımın dərdinin əlacı mümkün idi.) O gözlərə nur ələmək üçün dünyaya gəlmişdi. Çarpayıda uzanıb, xəstə gözləri açmaq isə mümkün deyildi. Buna görə də Ümnisə xanım həyatı, işıqlı dünyanı könüllü tərk elədi. Xəstəliyə boyun əymədi, necə var idisə, eləcə olduğu kimi son mənzilə yola düşdü. Allah rəhmət eləsin, məzarı nurla dolsun...

**ATU-nun "Stomotologiya kafedrası"nın müdiri,**
**respublikanın əməkdar həkimi, professor**
**Tamara Hüseynova**

## HAQQINDA ÇOX EŞİTDİYİM ÜMNİSƏ XANIM MUSABƏYOVANIN ƏZIZ XATİRƏSİNƏ

(*Oftalmoloq alimin 110 illik yubileyinə həsr olunub* )

Mənim elmi rəhbərim professor Dursun Yaqub oğlu Hüseynov olub. O, SSRİ-də hörmətlə, izzətlə adı çəkilən, tanınmış güclü farmakoloq alim, həddindən artıq bilikli, qabiliyyətli, müdrik, sevilən və seçilən dəyərli bir insan idi. Azərbaycan elminin inkişafında onun da xidmətləri az deyil. Dursun müəllim həm tanınmış elm xadimi, həm də elmi kadrların yetişdirilməsində əməyi olan fədakar müəllim idi. Özü gözəl pedoqoq olduğu halda, öz müəllimlərini də unutmur, bizə daima dərs aldığı, fəaliyyətini izlədiyi böyük insanlardan söz açırdı. Ən üstün cəhətlərindən biri bu idi ki, elm aləminin adlı-sanlı insanlarının unudulmaması, yaddan çıxmaması üçün daima onların təbliğini aparırdı. Çalışırdı ki, dövrünün tarixini olduğu kimi gənclərə təbliğ etsin. Xüsusilə tibb sahəsində çalışan alimlərin, onların avtobioqrafiyasının araşdırılmasına diqqət edib, haqqında qeydlər aparırdı. Mükəmməl yazı qabiliyyəti olduğundan, nöqtəsinə, vergülünə qədər hər cümləyə həssas yanaşırdı.

Mən Ümnisə xanımı da onun vasitəsilə tanımışam. O vaxtlar, bizim fakültədə oftalmologiyadan dərslər keçilmirdi. Ona görə Ümnisə xanım mənə dərs deməyib. Ancaq Dursun müəllim onun haqqında ən yüksək fikrə malik idi. Həmişə adını çəkib, onun barəsində saatlarla söz açardı. Hamımıza ondan örnək götürməyi, bu xanıma oxşamağı tövsiyyə edərdi. Onu bizə elə tanıtmışdı ki, şəxsən mənim üçün Ümnisə xanım böyük örnək, böyük məktəb, böyük insan, güclü şəxsiyyət, tibb elmləri doktoru, professor olaraq uca bildiyim ən yüksək zirvəyə çevrilmişdi. Dursun müəllimin otağında onun böyük portreti asılmışdı. Müdirlər həmişə dövlət rəhbərlərinin şəkillərini başının üstündən asdığı halda, mənim müəllimim şəxsiyyətinə hörmət elədiyi bir xanımın portretini böyütdürmüşdü. Otağa hər girənə onun barəsində

məlumat verirdi ki, bu xanım Qutqaşın (indiki Qəbələ) rayonundandır, dünyada tanının göz cərrahı, böyük alimdir. Tibb sahəsində və eyni zamanda müxtəlif sahələrdə yetişən alimlərə təkan verib, onlara maddi və mənəvi köməkliklər edib. Ümnisə xanımın şəkili içəri daxil olan hər kəsin diqqətini çəkirdi. Həm şəkil özü möhtəşəm, gözəl işlənmişdi, həm də bu xanım həddindən artıq gözəl idi. Çox mənalı gözləri vardı. Elə portretə baxanda hiss olunurdu ki, bu qadının baxışlarında qeyri-adilik var. Onun şəkili belə cəlbedici idisə, canlı halda Ümnisə xanımla təmasda olanlar ona necə vurulmaya bilərdilər. Sanki xeyirxahlıq, qayğıkeşlik onun çöhrəsindən süzülürdü. Dursun müəllim bu xanımla fəxr edirdi. Onun gözəlliyi, savadı ilə qürrələnirdi. Eyni bölgədən olduqları üçün, kiçik vətənindən belə böyük şəxsiyyətin yetişməsi onu eloğlusunun gözündə ucaltmışdı.

O şəkil bizim kafedrada olduğu müddətdə elə gün olmazdı ki, Ümnisə xanımdan söhbət düşməsin. Tibb institutunda çalışanlar alimi yaxşı tanıyırdılar. Ancaq kənardan gələnlər, ilk andaca diqqət çəkən portretin kimliyini soruşurdular və haqqında çox maraqlı məlumatlar əldə edirdilər. Ümnisə xanımın yaxın qohumlarından biri, institutumuzun oftalmologiya kafedrasının elmi işçisi Flora Musabəyova da tez-tez Dursun müəllimdən məsləhətlər almaq üçün bizim yanımıza gəlirdi. Ümumiyyətlə Dursun müəllimi ağsaqqal bilib, onun insani münasibətlərindən yararlanmaq, tövsiyyələrini eşitmək istəyənlər sırasında olanlardan biri də Flora xanım idi. O vaxtaşırı müəllimimlə görüşürdü. Dursun müəllim ona Ümnisə xanımın nəvəsi deyirdi. Çünki bu xanımın da xasiyyətində Ümnisə xanıma bənzərlik hiss olunurdu. O, çox sadə, mehriban və elmdə nəyəsə nail olmaq naminə israrlıq nümayiş etdirirdi. Çalışqanlığına və Ümnisə xanıma bənzəyən bəzi keyfiyyətlərinə görə Dursun Hüseynov onu Ümnisənin yadigarı hesab edirdi.

Dəfələrlə şahidiyəm ki, Flora Musabəyova ilə hörmətli Dursun müəllimin söhbətində hər ikisinin bu böyük alimə

olan məhəbbətindən danışılırdı. O şəkilin qarşısında dayanıb, dəqiqələrlə ona baxardı. Bəlkə ətrafda heç kəs olmasaydı, saatlarla nəzərləri Ümnisə xanımın baxışlarına dikilərdi. Bir də hiss eləmişdim ki, Flora Musabəyova Dursun müəllimdən Ümnisə xanım haqqında hər dəfə nəsə təzə bir şey öyrənmək istəyirdi. Dursun müəllim Floranın da ona oxşamasını arzulayırdı. Ümnisə xanımın xarici görünüşünə xüsusi fikir verdiyini misal çəkirdi. Floranın bir az kök olduğunu üzə vuraraq deyirdi ki, Ümnisə xanım daima cəmiyyət içərisində olduğundan qidasına da diqqətlə yanaşır, hətta ən çox sevdiyi "qızıl əhmədi" almasını belə ehtiyatla yeyərdi və görəndə ki, kökələ bilər, sevdiyi bu nemətdən də imtina edərdi. Ona görə həmişə çəkisi normal, bədən quruluşu gözəl bir xanım idi. Onun yemək mədəniyyətini, geyim tərzini bizə təbliğ edən Dursun müəllimin sözlərinə görə İlahi bu xanıma hər şey vermişdi. Ülvi analıq hissindən tutmuş ciddi rəhbər kürsüsünə qədər, siyasi səhnədə fəaliyyəti ilə dövlətçiliyə kömək edən deputat stolunda da Ümnisə xanım öndə olurdu. Sülhün carçısı olduğu ictimai fəaliyyətində hiss edilir və elmi konfranslarda da dəyərli söz deyə bilən, əsl Azərbaycan qadını idi.

Dursun müəllim yaxşı bilirdi ki, Azərbaycanın elm salnaməsində alim qadınlarımızın sayı kifayət qədərdir. Ancaq Ümnisə xanımı bir çox keyfiyyətləri ilə üstün hesab edərdi. Bu qadında olan bəyliyi, əsil zadəganlığı yüksək qiymətləndirir və deyirdi ki, "Alim ziyalıdır, xalqımızın düşünən başıdır. Üzüyümüzün brilliant qaşıdır, alim. Dünyanın varı, dövləti, sərvətidir alim". Tibb sahəsində xidmətləri olan alimlərimizin hamısına onun hörməti var idi. Məhz Dursun müəllim onları özünə ustad sayıb və hər birini də bizə örnək hesab edərdi. Onun arzusu idi ki, belə xanımların sayı Azərbaycanda çox olsun.

Bu xanım ailəsinə bağlı, tərbiyyəsinə, əxlaqına görə hörmət qazanan, qohum-əqrabasına can yandıran, xalqının hər bir nümayəndəsinə dəyər verən, həmyerlilərinin problemlərini özününkü hesab edən xanım olub. Həmyerlilərinə daima

köməyi dəyib, onlara yetərincə əl tutub, öz bölgəsindən olan heç kəsi qapısından naümid yola salmayıb. Kiminin xəstəsinə kömək edib, kimininsə problemini. Maddi imkansızlığa görə əziyyət çəkənlərə də Ümnisə xanımın köməkliyi dəyib.

Dəyərli alim mehriban münasibəti, mükəmməl hərəkətləri ilə tibb aləmində, onu tanıyanların yaddaşında özünə yer qazanıb. Bu xanım haqqında Dursun müəllimdən eşitdiklərim, ona olan məhəbbətimi daha da artırdı. Onu görməsəm də başa düşmüşəm ki, Ümnisə xanım tibb tarixində əvəzsiz xidmətləri olan alimdir. Qadın alim olsa da, onun mənəvi gözəlliyi, mənəvi zənginliyi əsas olmalıdır. Mənəvi gözəllik deyəndə, əxlaqi cəhətdən üstün, ali hisslərlə formalaşıb alimlik zirvəsinə qalxırsa, bu ad altında hər tərəfli işıq saçan ziyalı kimi tariximizdə qalmalıdır.

Ümnisə xanımın da adı tarixə əbədi həkk edilib. O, Azərbaycanın parlaq ulduzudur.

Mən ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə keçirilən tədbirdə də çıxış edəndə demişdim ki, Ümnisə xanım Musabəyova, Zərifə xanım Əliyeva kimi alimlərimiz öz elmi əməyi ilə xalqın məhəbbətini qazanıblar. Ümnisə xanımın Oftalmologiyada əsasını qoyduğu o məktəbdən bəhrələnən elmi kadrlar bu gün Azərbaycan oftalmologiyasının uğurlarını ilbəil artırır. O alimin əməllərini nəcib ziyalımız, gözəl alim Zərifə xanım Əliyeva davam etdirdi.

SSRİ vaxtında Odessa və Moskva bir az öndə idisə, indi Azərbaycan oftalmoloqları daha böyük nailiyyətlər qazanıb. Müstəqil Azərbaycan Respublikasının müasir avadanlıqlarla təchiz olunmuş Oftalmoloji mərkəzi, bu elmi tədqiqat institutu və orada çalışan kadrlar sübut edir ki, dəyərli alimlərimiz yetərincədir. Ümnisə xanımın tələbələri bu gün onun ideyalarını həyata keçirir, Ümnisə xanımın dərsliklərindən, elmi mənbələrindən qidalanır. Cavan yaşlarında tibb aləmini heyrətdə qoyan Müşviq Kərimov adlı gənc həkimimiz xarici ölkələrə ən çətin əməliyyatları həyata keçirmək üçün dəvət olunur. Elmi kəşfləri ilə səhiyyədə əks-səda doğuran, Dövlət

mükafatına layiq görülən Tamilla Ağayeva, professor Paşa Qəlbinur və s. ziyalılarımız Ümnisə xanımın xeyir-duası ilə gözlərə nur bəxş edirlər.

Mən əvvəlcə Dursun müəllimin rəhbərliyi altında Farmakologiya kafedrasında işləmişəm. İlk olaraq assistent, sonra baş müəllim və onun rəhbərliyi altında namizədlik dissertasiyasını müdafiə etmişəm. Doktorluq dissertasiyam sırf əczaçılıq üzrə olduğuna görə elə müdafiə ərəfəsində "əczaçılıq kafedrası"nın müdiri təyin olunmuşam. 1997-ci ildən bu kafedranın müdiri vəzifəsində çalışıram. Əczaçılığın təşkili, iqtisadiyyatı və əczaçılıq texnologiyası birləşib və mənə həvalə edilib. Elmi, tədrisi, bir sözlə kafedrada olan bütün işləri yüksək səviyyəyə qaldırmışıq. 21 nəfər namizədlik, 42 magistr dissertasiyasına rəhbərlik etmişəm. Kollektivin gücü ilə kafedrada köklü dəyişikliklər yaratmışıq.

Alim aləmin işığıdır. Daima amalım bu olub ki, mən də Ümnisə xanım kimi insanların həyat yolundan örnək götürüm və onlar kimi tarixdə söz qoya biləcək fəaliyyət xətti cızım. Elm yolunda mənə bələdçilik edən, sevimli müəllimim Dursun Hüseynovun imzası ilə hədiyyə etdiyi "Mənalı Ömürlər" kitabı isə mənim yol yoldaşımdır. Elə bu yazını da Ümnisə xanımın 110 illik yubileyinə həsr etdim, Dursun müəllimin adına hörmət əlaməti olaraq, onun xatirəsini anaraq, müəllimin ruhu şad olsun deyə, onun sevdiyi bir alimi onun öz sözləri ilə yada saldım. Axı Dursun müəllim Ümnisə xanımı çox sevirdi və ona olan sevgisini tələbələrinə də ötürmüşdü. Allah hər iki alimə rəhmət eləsin. Qəbirləri nurla dolsun.

**ATU-nun Əczaçılığın texnologiyası və təşkili kafedrasının müdiri, əczaçılıq elmləri doktoru elmi dərəcəsinə layiq görülən ilk və yeganə azərbaycanlı qadın professor, əməkdar müəllim Məhbubə Vəliyeva**

## “ÜMNİSƏ XANIM ƏSL MÜƏLLİM DOĞULMUŞDUR”

Ümnisə xanım Musabəyli 1956-cı ildə Tibb İnstitutunun pediatriya fakültəsində bizə oftalmologiyadan bir il dərs deyib. Onun uzun illər bundan öncə söylədiyi mühazirələr hələ indi də qulaqlarımdadır. Bu yüksək savadlı, dərin zəkaya malik olan xanım istənilən auditoriyanı ələ almağı bacarırdı. Çünki o peşəsinin vurğunu idi. Ümnisə xanım bizə dərs deyəndə elə bil səhnədə hansısa tamaşanı izləyirdik. Mövzu rəngarəngliyi baxımından söhbəti o qədər rəngarəng idi ki, onu dinləməkdən xüsusi zövq alardıq. Peşəkar aktyor səhnədə öz rolunun öhdəsindən necə gəlirsə, Ümnisə xanım da mühazirə zamanı saatın baş qəhrəmanı olurdu. O, danışığı, hərəkətləri ilə mühazirələrdə drama yaradırdı. Biz onun şəxsiyyətinə vurulmuşduq. Gözəl alim olduğu üçün onunla öyünürdük.

Haqqında yüksək fikirlər səslənən, institutun dillər əzbəri olan bu alimi yaxından görmək, ondan elmin sirlərini əldə etmək səadəti bizə də qismət oldu. Bir il tələbə-müəllim ünsiyyətində olduğumuz dövrdə Ümnisə xanımı daha dərindən tanıdıq. Bu müddət ərzində maraqlı mühazirələri ilə elmin dərinliyinin elə aydın izahını verirdi ki, onu dinləyəndən sonra istəyirdin ki, oftalmoloq olasan.

O çox mədəni, müəllimə layiq bir qadın idi...

Rəhmətlik Balakişiyev deyərdi: “...tələbələrin qarşısında duranda qoy tələbələr görsün ki, doğrudan da o müəllimdir”. Ümnisə xanım da belə müəllimlərdən biriydi. Bütün elmi titulları qazanmışdı. Böyük alim, əsil şəxsiyyətiydi. Müəllim ülvi sənətdir, böyük addır, böyük istedaddır. Əslində müəlim anadan elə müəllim doğulur. Onda anadangəlmə böyük istedad varıydı. Həm də yaxşı təşkilatçı idi. Rəhbərlik etdiyi kafedrada iş prosesini gözəl qurmuşdu. Onun kafedrasında yaxşı alimlər çalışırdı.

Ümnisə xanım heç vaxt tələbəni incitməzdi. Gözəl nəsihətli, ibrətamiz sözlər deyərdi. Gənclərə gələcəyi naminə, yaxşı ziyalı olması üçün nə lazımdırsa, bir müəllimə kimi məsləhətlərini əsirgəməzdi.

Qəlbimdə onun gözəl xatirələri yaşayır. Simaca göyçək qadın idi. Hamımız onun mühazirəsinə, onun danışıq nitqinə, sadə geyiminə, şıx duruşuna, yüksək mədəniyyətinə valeh olardıq. O, professor müəllim heyətinin içərisində bütün insani keyfiyyətləri ilə seçilirdi.

Ümnisə xanım hamıdan fərqlənirdi. Hətta qadınlar arasında da fərqli idi. Çox təmiz geyinərdi, döş cibində dəsmalı, xalatı ütülənmiş formada auditoriyaya girərdi. Özünün sadəliyinə, səlis düşüncəsinə görə bambaşqaydı. Dövlətimizin də Ümnisə xanıma böyük diqqəti var idi. Yazdığı elmi əsərlərə, təşkilati işlərə görə hörmət qazanmışdı. O, çoxşaxəli, dalğalı qadın idi. Başdan-başa mədəniyyət nümunəsi idi. Elmin, müəllimliyin aparıcı simalarından ən öncülü olan Ümnisə xanım qollu-budaqlı böyük bir ağac kimi, bütün şaxələrdə barbəhrə verirdi.

Ümnisə xanımın tələbələrindən biri kimi mən də bu gün öyünə bilərəm. Öz müəllimi kimi elmin arxası ilə gedən və sonda onun tək bir alim. Mən də kafedra müdiri oldum, elmi nailiyyətlər qazandım. Tibb universitetinin 80 illik yubileyində ölkə prezidenti mənə də fəxri ad verdi. "Əməkdar müəllim" adını aldım. Ümnisə xanımın nəsihətlərindən pay alanlar sırasındayam. Şərəfli müəllim adının daşıyıcısıyam. Bəli, mən və digər xeyli sayda tələbələri onun nəsihətlərindən, Ümnisə Musabəylinin zəkasından çox şey öyrəndik.

Azərbaycan tibb elminin tarixində böyük alimlər olub. Akademik Mustafabəy Topçubaşov, Mir Əsədulla Mirqasımov, professor Kamil Balakişiyev, Zülfüqar Məmmədov, Gahangir Abdullayev, Məmmədəmin Əfəndiyev, Fuad Əfəndiyev və başqaları. Adını ehtiramla çəkdiyimiz bu alimlərin sırasında Ümnisə xanım Musabəylinin də adı var.

Bu dünyada belə bir söz var. Həyatdan köçəndən sonra meşələr, dağlar, bulaqlar, çaylar qalır və mənim əsərlərim, vicdanım qalır. Ümnisə xanım da fani dünyanı tərk elədi. Onun bugünkü nəsilə kitabları və bir də elmi kadrları, yəni tələbələri qaldı. Özündən sonra elmə neçə-neçə ziyalılar bəxş edən alimlər anası kimi xatırlanır.

Tələbəlik illərində Ümnisə xanımın bir sözü yadımdan çıxmır. O, tələbələrə deyərdi ki, "ən yaxşı yol, insanın üzünü ağ edən, xəstələrin qarşısında hörmət qazanmasıdır. Bunun üçün də zəhmət çəkmək gərəkdir. Oxumağa vərdiş eləmək lazımdır".

Yaxşı yadımdadır ki, onun dövründə Zəhra xanım rektor idi. Zəhra xanım özü onun ən istəkli tələbələrindən biri olub. Ümnisə xanımın yanına gedirdilər ki, Zəhra xanımdan nə isə xahiş etmək lazımdır. Deyərdi ki, mən onun şəxsi işinə qarışa bilmərəm. Hətta öz tələbəsinin işlərinə, verdiyi qərarlara hörmətlə yanaşardı . Əsl xanım tək öz yerini bilərdi.

Göz işıqdır, sevgidir, həyatdır. Ümnisə xanım nə qədər insanın görmə qabiliyyətini bərpa edib, nə qədər insanlara işıq bəhş edib. Bəs bunun özü də xoşbəxtlik deyildimi? Şöhrətli alim, gözəl insan, unudulmaz müəllim, ictimai xadim, alimlər alimi Ümnisə xanımın ruhu şad olsun. Qəbri nurla dolsun.

**ATU-nun "Patoloji anatomiya" kafedrasının professoru,**
**tibb elmləri doktoru**
**Məmməd Şamil oğlu Cahangirov**

## “FENOMEN YADDAŞI İLƏ SEÇİLƏN MÜƏLLİM”

Ümnisə xanım Musabəyova oftalmologiya elminin görkəmli simalarından biri olub. Dünya miqyasında tanınmış tibb sahəsininin görkəmli alimi idi.

Ümnisə xanım bizə Tibb institutunda oftalmologiyadan dərs deyib. Onda mən 3-cü kursda oxuyurdum. Mənim tələbə olduğum dövrdə Ümnisə xanım İraqda, Küveytdə, Səudiyyə Ərəbistanında və s. ölkələrdə keçirilən elmi konfranslarda məruzələrlə çıxış edirdi. Bu çıxışları alim təmiz ingilis dilində söyləyirdi. Bu dövrdə ingilis dilinə tələbat yox idi. Ancaq Ümnisə xanım qatıldığı mötəbər elmi yığıncaqlarda ingilis dilində məruzə etməkdən ötrü bu dili də mükəmməl öyrəndi və onun güclü iradəsinə, sərbəst danışığına hətta xaricdən olan kollegiyaları da həsəd aparırdı.

O dövrdə Topçubaşov, Fuad Əfəndiyev, Balakişiyev və başqaları ilə birlikdə Azərbaycan elmini xaricdə, dünyada tanıdan ən görkəmli alimlərdən biri də Ümnisə xanım Musabəyova olmuşdur.

Ümnisə xanım oftalmologiya üzrə xeyli sayda alim yetişdirib. Onun dərs dediyi göz həkimləri həqiqətən çox savadlıdırlar və alimin zəhmətini hədər verməyiblər.

Ümnisə xanım çox gözəl xanım idi. Ucaboy, alicənab, şux yerişli, tələbələrə diqqətli bir müəllimə kimi yada düşür. Mühazirələrdə elə gözəl danışırdı ki, içəri girən andan danışdığı mövzu vaxtın bitdiyi anadək çox maraqla dinlənilirdi və sözünu yarımçıq qaldığı yerdə saxlayırdı. Deyərdi ki, gələn dərs buradan başlayacayıq. Elə də olurdu. Növbəti mühazirədə Ümnisə xanım sözünün ardını deyirdi və əvvəlki fikirlərini təkrar eləməzdi. Hətta bir həftə keçməsinə baxmayaraq, əlavə digər kurslarda da dərslər apardığı halda, Ümnisə xanım hər bir auditoriyada dediyi son sözünü dəqiq yadda saxlayırdı. Ondakı o güclü hafizəyə heyran qalmışdıq. Biz hər görüşümüzdən, hər mühazirədən yeni bir şey öyrənir-

dik. Qətiyyən kağıza baxmazdı, o qədər savadlı xanım idi ki, bir dəfə də olsun vərəqə üz tutmaz, sinədəftər danışırdı.

Tələbəli illərində biz ondan örnək alırdıq... Bu günün özündə də mən Ümnisə xanıma dərin ehtiramımı bildirirəm. Rəhbərlik elədiyim kollektiv həmişə böyük hörmətlə Ümnisə xanım kimi dünya şöhrətli alimləri yada salır və onların həyatından, elmi biliklərindən söz açmaqla gələcəyin həkimlərinə onların şərəfli ömür yolundan misal gətirirlər.

Azərbaycan Tibb Universitetinin "İnsan anatomiyası" kafedrasının foyesində alimin 1964-cü ildə xarici nümayəndə heyəti ilə çəkilmiş bir fotoşəkili asılıb. Bu şəkil də, bir neçə dəyərli elm adamı arasında olan Ümnisə Musabəyovadan tələbələrinə qalan yeganə tarixi sənəddir.

Əfsuslar ki, alimin elmi yaradıcılığının daha da çiçəkləndiyi bir vaxtda oftalmologiya aləmi belə böyük bir şəxsiyyəti itirdi. Taleyin amansız, sərt davranışı alimi elm aləmindən apardı... İllər keçməsinə baxmayaraq, alimin tələbələri həyatla qəfil vidalaşan öz sevimli müəllimlərini hər zaman xoş təəssüratlarla anırlar.

**ATU-nun "İnsan anatomiyası" kafedrasının müdiri, t.e.d.,**
**professor, əməkdar elm xadimi, əməkdar həkim**
**Vaqif Şadlinski**

## ALİMLƏR ANASI

Hər insanın qəlbində, daxili aləmində dərin iz qoyan, əziz və heç vaxt yaddan çıxmayan xatirələri var. İllər ötdükcə bu xatirələr tez-tez yada düşür, səni həyatı daha dərindən qavramağa, yaxşı hərəkətlərə, xeyirxah işlərə vadar edir.

Mənim xatirəmdə əbədi yer alan böyük alim Ümnisə Musabəyova Azərbaycan elminin tanınmış nümayəndələrindən biri idi. Ümnisə xanım böyük, əzəmətli, qüdrətli alim, fenomen keyfiyyətləri olan bir şəxsiyyət idi. Ümnisə xanımın obrazı "Böyük insan", "Alimlər anası", "Nəcib xanım", "Müqəddəs müəllim" və s. adlarla yada salınır.

Müəllim anadır, həyatda ən əziz xələf, səni sənətə gətirən, sevdirən böyük bir simadır. Ümnisə xanım belə bir alim idi. İllər keçsə də, yenə də mən o vaxta qayıdıram və onunla bağlı günlər kinolent kimi gözümün önündə fırlanır. "Ömür" adlı filmin unudulmaz kadrları kimi xəyalımda canlanır. Mən həmişə düşünürəm və fəxr edirəm ki, çox xoşbəxt insanam. Ona görə ki, belə ucalardan uca müəllimlərdən dərs almışam. Çalışmışam və indinin özündə də səy göstərirəm ki, hər şeyi öyrənəm, bir az da olsa onlara oxşayım.

Ümnisə xanım çox sadə, insanları sevən, təmiz qəlbli, qüdrətli bir şəxs olub. Ətrafındakı insanlara çox diqqətciliydi.

O vaxt onun yanına SSRİ-dən çoxlu xəstələr gələrdi. Onları xəstəxanada yerləşdirər, hətta evindən bişmiş xörək də göndərərdi. Xəstələrinin içərisində uşaqlar da az deyildi və onlara sevgiylə, məhəbbətlə, səbirlə yanaşardı..

Ümnisə xanım əməkdaşlarına diqqətlə fikir verir, öz işinə və işçilərə tələbkar yanaşırdı. Onun bu keyfiyyətləri hamını işə vicdanla yanaşmağa sövq edirdi və hətta evdə körpə uşağımız olsa da, biz Ümnisə xanım işdən ayrılmayınca, otağı tərk etməzdik. Arxası ilə baxardıq. O, tamamilə gözdən itəndən sonra biz işdən evə gedərdik.

Ümnisə xanımın həmkarları arasında böyük hörməti var idi. O hörməti qazanmağı hər adam bacarmır. Məhz Ümnisə xanım varlğında özünə həqiqətən heykəl qoydu. Kişi qeyrətli qadın idi. Sözü bütöv, dediyinin üstündə mərdi-mərdanə dayanan xanım idi. O, çinar ağacı kimi həmişə başını dik saxlayardı.

Hər dəfə bizimlə danışanda deyərdi ki, həkimin təmiz qəlbi olmalı, həmişə xeyirxah işlər görməlidir. O qədər gözəl söhbətləri, nəsihətləri, vəsiyyətləri var idi. Daima nəsihət edərdi. Ömrümüz boyu onun o kəlamları, ibratamiz sözləri bütün illər ərzində bizi müşayət elədi. Biz Ümnisə xanımdan nələr öyrənmədik. İnsanlarla münasibət qurmağı, xəstə ilə xoş davranışı, elmi, savadı, ədəb-ərkanla oturub-durmağı, həyatda çox şeyi ondan mənimsədik.

Ümnisə xanım deyərdi; "Xoş söz, gülüş, ürəkdən xəstə ilə danışmaq daha da təsir edər, nəinki həb, müxtəlif dərmanlar...". Deyərdi ki, ənənəvi xüsusiyyətlər azalmamalıdır, əksinə güclənməlidir. İnsan xeyirxah, biganə, tənbəl olmamalıdır. İnsanları tez tanıyardı və xasiyyətini bilərdi.

Öz peşəsinin mahir ustası olub. Elm aləmində Azərbaycanı şərəflə təmsil edib, dünyanın oftalmoloji nailiyyətlərində öz dəsti-xətti ilə seçilib. Konfranslarda rus, ingilis dillərində mühazirələr söyləyərdi. Ümnisə xanım bir neçə dil bilirdi, hər bir dildə də ana dilimizdəki kimi gözəl danışardı.

Alim elmimizi dünyada təbliğ edib. Tez-tez Ərəb ölkələrinə yola düşərdi. O, həmişə səfərdən geri dönəndə bizə yeni tibbi alətlər gətirərdi. Son təzə çıxan alətləri bizə hədiyə edərdi. Ümnisə xanım hətta Misirdə, hospitalda da işləmişdi və burada elmi mühazirələr oxuyurdu. İngilis dilində öz ana dilində olduğu kimi səlis danışardı.

O, müəllim adına böyük hörmətlə yanaşıb. O deyirdi ki, əgər müəllimsənsə birinci tələbəni sevməlisən, sənətini bilməlisən və elə danışmalısan ki, o tələbəni özünə cəlb eləyə biləsən və tələbə sənə qulaq assın. Müəllimi bir aktyora bənzədirdi.

Onun fikrincə müəllimin danışıq dili aydın, nitqi rəvan, sözləri başadüşülən olmalıdır ki, özünə hörmət qazana bilsin.

Onun öz şəxsi sürücüsü var idi. Həmin oğlan universitetdə oxuyurdu. Ümnisə xanım çalışırdı ki, o oğlan təhsilini başa vursun. Hər dəfə ona şərait yaradırdı, dərsləri ilə maraqlanırdı. Sonralar həmin oğlan ən yüksək mərtəbəyə qədər ucaldı, hətta eşitdiyimizə görə general rütbəsinə də layiq görüldü.

"Zdorovye" yurnalında onun haqqında məqalə dərc olunandan sonra Ümnisə xanımın yanına axın gücləndi. Jurnalda ümumittifaq miqyasında olan şöhrətindən, xaricə əks-səda salan Ümnisə xanımın fəaliyyətdən söz açılmışdı. Profesorun qəbuluna hər yerdən xəstə gəlirdi. Qundaqdakı uşaqları da əməliyyata götürürdü və onların gözünə nur verirdi. Gələn xəstələrin əksəriyyətinin qalmağa yerləri yox idi. Həmin xəstələri Ümnisə xanım öz mənzilinə alırdı. Onun əlavə olaraq 4 otaqlı mənzili var idi və dəfələrlə şahidi olmuşam ki, orada ona sığınan xəstələri müvəqqəti qonaq edib.

Hətta xəstə uşaqlar üçün yeməyi öz evindən göndərərdi. Hər bir xəstəyə özəl yanaşırdı, onların qayğısına qalır, əməliyyatdan sonra sağ salamat geriyə göndərirdi.

Ümnisə xanıma "ölüb" kəlməsini heç vaxt deyə bilmərəm. O mənim qəlbimdə yaşayır. Onu tanıyan hər bir kəsin qəlbində yaşayır. O daxilən saf olduğu kimi zahiri görünüşündə də sadə idi. Geyimində səliqəli, hərəkətləri, davranışı olduqca incə idi.

Cavanlara xüsusi qayğı ilə yanaşıb. O, xəstələrə baxmağı əvvəlcə bizə həvalə edər, tapşırardı ki, xəstə haqqında bütün bilgiləri toplayıb qısa vaxt ərzində mənə məlumat verin. Biz gənclər böyük həvəslə deyilənləri yerinə yetirib, xəstə ilə bərabər yaxınlaşırdıq Ümnisə xanıma. Daha sonra Ümnisə xanım xəstəyə özü baxar və sonra bizim nəticələri analiz edərdi. Bu yolla o bizə oftalmologiyanın sirlərini öyrədirdi. İnsanın gözünə baxanda onun daxilində baş verən bütün məlumatları əldə etmiş olursan. Hər bir xəstəliyin ilkin işarəsi

gözdən sezilir. Ümnisə xanım bizə göz dibində gedən dəyişikliyə həssas yanaşmağı tövsiyə edərdi. Professor xəstənin gözünə baxmaqla onun nə xəstəliyindən şikayətçi olduğunu söyləyirdi.

Ümnisə xanım özü böyük alim olmaqla yanaşı, elmə ziyalılar gətirən bir elm xadimi kimi də xatırlanır. Bu gün onun tələbələri, oftalmoloq alimlərimiz akademik Zərifə xanım Əliyeva, professorlar Zəhra xanım Quliyeva, Paşa Qəlbinur və s. həkimlərimiz Oftalmologiya elminin fəxrlə adı çəkilən simalarıdır.

Əsl müəllim pis ola bilməz. Ümnisə xanım əməliyyat aparanda bizə deyirdi ki, əllərimə diqqətlə fikir verin. Çalışın nəzərinizdən heç nə qaçmasın. Onun yanında olmaq ona görə maraqlı idi ki, hər dəfə nə isə təzə yenilik əldə edirdik. Ürəyincə olan gənclərə əməliyyatları həvalə edərdi, ancaq çox-çox sınaqlardan sonra bu şərəfə nail olmaq mümkün idi.

Ümnisə xanımı unutmaq mümkünsüzdür. Onun xeyir-duası, gözəl aurası hər birimizin taleyinə nur ələdi. İsti nəfəsindən həyatımıza pay düşdü. İllər keçməsinə baxmayaraq, belə bir insan yaddan çıxa bilməz. Ürəkdən deyirəm, Ümnisə xanım yaddan çıxan xanım deyil. Mənim müəlliməmə böyük məhəbbətim var. .. . Ümnisə xanım adi qadın deyildi - o huri mələk idi.

Mənə elə gəlir ki, sağlığında xalqın məhəbbətini alan, həyatda yaxşı ad qoymuş Ümnisə xanım ona görə xoşbəxtdir ki, onu sevən yüzlərlə tələbələri var.

Əziz müəllim, xeyirxah insan, qayğıkeş qadın Ümnisə xanım Musabəyova yaddaşımızda, ürəyimizdə dərin iz qoyub və ona hər zaman ehtiramımızı bildiririk.

Böyük alim, gözəl insan, müəllim Ümnisə xanım bizim üçün əbədi örnəkdir.

**ATU-nun Oftalmologiya kafedrasının assistenti**
**Solmaz İsayeva. 2. 1V- 2012 - ci il**.

## ÜMNİSƏ MUSABƏYOVA, MÜQƏDDƏS MÜƏLLİM, GÖZƏL İNSAN

Ümnisə xanım Tibb institutunda mənim müəllimim olub. Tələbəlik illərində onun oxuduğu mühazirələr hər bir tələbənin ürəyincə idi. Çünki çox səlis natiqlik qabiliyyəti var idi. Danışığı aydın, tələffüzü elə başa düşülən idi ki, onun dərsində tələbələr sanki rahatlıq tapırdılar. Onda tələbəni özünə cəlb etmək məharəti güclü idi. İllər keçməsinə baxmayaraq hələ də onun mühazirələrini xatırlayırıq. Həmkarlarımla görüşəndə, tibb institutundan söhbət düşəndə ilk yada salınan məhz Ümnisə xanımdır. Biz belə qüdrətli bir alimin əlindən su içmişik, sənətə gəlmişik, elmin sirlərini belə bir elm fədaisindən öyrənmişik...

Tale elə gətirdi ki, görkəmli cərrahın yanında təcrübəyə başladım. Onda 24 yaşım var idi. İnternatura illərini xatırlayıram. Onun yanında əmək fəaliyyətinə başladığım gün Ümnisə xanım bir xəstənin gözündə lazer əməliyyatı apardı. Xəstənin gözündə torlu qişa qopmuşdu. Əməliyyatdan sonra xəstə üç gün xəstəxanada qaldı. Ümnisə xanım həm əməliyyatın gedişini və sonrakı günlər ərzində xəstənin gözündə baş verən dəyişiklikləri mənə və eyni zamanda digər yeni həmkarlarıma izah edirdi ki, biz prosesi hərtərəfli öyrənək. Özü şəxsən bizimlə məşğul olurdu, işinin çoxluğuna baxmayaraq diqqətini gənclərdən ayırmazdı. Onun yeganə amalı o idi ki, bildiklərini gənclərə yetərincə başa salsın. Xəstəxanaya daxil olan bütün xəstələri bizə göstərir, xəstəliklərin fərqli gedişatı haqqında məlumat verirdi....

Ümnisə xanım seçilirdi. Xasiyyətinə, sakitliyinə görə digərlərindən fərqliydi. Həddindən artıq mülayim rəftarı var idi. Tələbələrini sevən, onlara maraq göstərən əsl müəllim idi. Daima öyrətməyə üstünlük verdiyindən, savadlı, çalışqan ziyalı olduğundan ondan çox şey öyrənirdik. Ondan təkcə

həkimliyi deyil, hətta deyərdim ki, həyatda əsl insanlığı öyrənirdik...

Əfsuslar olsun ki, bərabər olaraq cəmi üç ay çalışdıq. Ümnisə xamım bizi tərk elədi, əbədi mənzilinə yola düşdü. Onun itkisi Azərbaycan elminin faciəsi oldu. Alimin son mənzilə yola salındığı gün kollektivin bütün üzvləri ağlayırdı, Ümnisə xanımı kim tanıyırdısa, göz yaşlarını saxlaya bilmirdi.

Qəfil ölüm xəbəri hamını sarsıtmışdı. Sağlığında özünə rəhmət qazanan bir xanıma o gün əlvida dedik. Ruhu şad olsun, o tanışlarının qəlbində, tələbələrinin ürəyində yaşayır. Allah rəhmət eləsin...

**Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının assistenti**
**Quliyeva Enfuzə**

## “ÜMNİSƏ XANIM AZƏRBAYCANIN ÇIRAĞI İDİ”

Ümnisə Musabəyli kimi şəxsiyyətlər min ildə bir doğulurlar. Mən heyran qalmışdım, ondakı o cəsarətə, mərdliyə, insaniyyətə. Dərin bilikli alim idi, Ümnisə xanım...

Mən tibbi təhsilimi Moskvada almışam. Bakıda Daxili İşlər Nazirliyində çalışırdım. Yaxşı vəzifədə işləyirdim, dünyanın əksər ölkələrinə səfər etmək imkanım geniş idi. Çünki həmkarların işini də aparırdım. O vaxt Ümnisə xanımın kafedrasına işçi lazım olduğundan mənim haqqımda ona məlumat verirlər. Ümnisə xanım məni yanına çağırdı və bir xeyli söhbətləşdik. Haqqımda bütün bilgiləri aldı.

O mənə iş təklif etdi. Böyük məmnuniyyətlə razılaşdım. İlk görüşdən məndə bu xanıma, onun həlim davranışına rəğbət hissi yaranmışdı. Ümnisə xanımın təklifinə biganə qala bilmədim. İşdən çıxmaq üçün rəhbərliyə ərizə ilə müraciət etdim. Ərizəmə qol çəkmədilər. Düz üç ay keçdi, yenə də o məni yanına çağırıb soruşdu ki, niyə təklifimi qəbul etmirsən? Dedim ki, “Ümnisə xanım, məni işdən azad eləmirlər”. Dedi ki, “ərizə yaz, çıx”. İkinci ərizəm də cavabsız qaldı. Bu minvalla düz altı ay tamam oldu. Bir gün yenə Ümnisə xanım mənə dedi ki, “gəlirsən gəl, gələ bilmirsənsə, işçi seçmək imkanım çoxdur”. Mən tez üçüncü ərizəmi rəhbərliyə təqdim etdim və təkidlə bildirdim ki, sabahdan işə gəlməyəcəm...

Ertəsi gündən Ümnisə xanımın yanında çalışmağa başladım. Çünki, onun o səmimiyyətinə vurulmuşdum. Onun bacarığı, dünya görüşü o qədər geniş idi ki, hər bir kəs belə bir xanımın yanında işləməkdən zövq alırdı...

Ümnisə xanım duyğusal qadın idi. Bir gün otağında onu çox pərişan halda gördüm. Elə bil dünyanın bütün dərdi-səri üstündə idi. Çəkinə-çəkinə halını xəbər aldım, nədən mütəəssir olduğunu öyrənməyə çalışdım. Məlum oldu ki, bir neçə “kefi kök” vəzifə sahibləri ova gedib və donuz əvəzinə meşəbəyinin oğlunu nişan alıblar. Oğlunu itirən ailə də Ümnisə

xanımdan oğlanlarının qanının yerdə qalmaması üçün kömək istəyir. Onların o məktubunu ürək ağrısıyla oxuyan Ümnisə xanım başını qaldırıb məndən soruşdu, “axı mən nə edə bilərəm, onlara nə köməyim dəyə bilər?”. Bu hadisədən sonra bir müddət özünə yer tapa bilmirdi. Məktubda yazılanlardan yaman sarsılmışdı...

Ümnisə xanım istəyirdi ki, hamıya yaxşılığı dəysin. Çox fəal ictimaiyyətçiydi. Bir dəfə onu Nazirlər Sovetinə çağırıb, tərifnamə ilə təltif etdilər. Ancaq o qramotanı götürmədi, “mən təmənnasız elmə xidmət edirəm” – deyib tərifnaməni qəbul etmədi. Ümnisə xanım şan-şöhrət, ad-san düşkünü deyildi. Həddindən artıq sadə, nəcib keyfiyyətlərə malik bir xanım idi...

Tez-tez xaricə ölkələrə, elmi tədbirlərə yollanırdı. Səfərdən öncə hər dəfə bizə deyirdi ki, “mən olmasam da siz hamılıqla işdə olun, heç kəs sizdə bir nöqsan tapa bilməsin. Mən işdə olanda hamınıza cavabdehəm”...

Ümnisə xanım yoxlama gələndə onları kabinetin qarşısında qarşılayırdı, heç içəri dəvət etməzdi, bir kəlmə deyirdi ki, mən işdəyəmsə, deməli hamı öz vəzifəsinin başındadır. Qəti sevməzdi ki, onun fəaliyyətində nə isə nöqsan axtarsınlar, ona təzyiq göstərsinlər. Öz işinə o qədər məsuliyyətlə yanaşırdı ki, rəhbərlik etdiyi kollektivin nizam-intizamını yoxlamaq istəyəndə özünü təhqir olunmuş hiss edirdi. Kübar nəslin nümayəndəsi olduğu gendən sezilirdi...

Ümnisə xanıma elə bağlanmışdıq ki, onun səhhətindən hamımız narahat olduq. Bir gün ona içərisində məktub olan bir bağlama gəlir. Məktubu oxuyub, fikrə dalır, minnətdarlıq dolu sətirlərdən kövrəlir. Bir anlığa özünü unudur, evində ayağı ilişib, yıxılır.

Ümnisə xanım xeyli müddət (bir neçə ay) xəstəxana şəraitində yaşamalı oldu. Ancaq deyəsən qada-bala elə ayaqdan gəlmişdi. Həkimlər əlac edə bilmədilər. Bakıda gecələr növbə ilə yanında qalırdıq.

Sonra bir ay da Moskva Travmotologiya institutunda yatdı...Mən onun yanına getdim, iki həftə yastığının yanından ayrılmadım. İlk sualı mənə bu oldu ki, "hansı əsasla gəlmisən, bura?". Dedim ki, Moskvaya ezamiyyətə gəlmişəm. Ancaq yalan danışdım. Ümnisə xanımın xasiyyətini yaxşı bilirdim ki, mənim öz hesabıma onun yanına getməyimə razı olmazdı. Ona görə də özümdən uydurub yalan söyləmək məcburiyyətində qaldım... Xəstəxanada iki həftə öz qızı kimi qulluğunda durdum. Başını yudum...Yaman çiyələyi sevirdi. Bazardan gedib, istədiyini aldım. Ürəyi nə umurdusa, onu eləməyə çalışırdım. Həssas qəlbi var idi, onun özünə ətrafdakılardan heç bir tələbi yox idi. Ümnisə xanım məğrurluğunu palatada da itirməmişdi. Dağ kimi bir insanın birdən-birə çarpayıya düşməsi təbii ki, daxilində ona zülm edirdi. Buna baxmayaraq, o bunu sifətində büruzə vermirdi. Çalışırdı ki, əvvəlki amiranə görkəmini qoruya bilsin. Bakıda xəstəxanada yatanda elmi konfrans keçirilirdi. Məşhur alimlər biləndə ki, Ümnisə xanım xəstəliyi ilə əlaqədar tədbirə qatıla bilməyəcək, onlar alimə xəstəxanada baş çəkmək istədilər. Ancaq Ümnisə xanım razı olmadı ki, onu naxoş vəziyyətdə görsünlər. Dedi ki, "qoy mən onların yaddaşında necə varamsa, elə də qalım"...

Ümnisə xanım bir daha geri dönmədi. Elə bu xəstəlik, xəstəxana divarları sən demə, onu haqq dünyasına aparırmış. O, dəfələrlə deyərdi ki, "mən bilsəm ki, kimnənsə asılı vəziyyətə düşmüşəm, yaşaya bilmərəm". Həqiqətən asılı olmağı şəninə sıxışdırmadı. O, həyata əbədi olaraq əlvida dedi, öz istəyi ilə canından atrıq sevdiyi yurdunun bir ovuc torpağına çevrildi. Ölümə asanlıqla, gülə-gülə qucaq açdı.

Ümnisə xanıma ürəkdən bağlı idim. Həyatımda birinci dəfə idi ki, Ümnisə xanım kimi insan görürdüm.

Ona elə vurulmuşdum ki, birdən - birə haqqında şeir yazdım. Halbuki Dağıstanda doğulduğumdan, Moskvada təhsil aldığımdan, yəni rus dilli olduğum üçün ana dilimizdə iki

cümləni qoşub düzgün deyə bilmədiyim bir vaxtda Ümnisə xanıma bir şeir həsr etdim. Heç bilmədim ki, o şeiri mən necə yazdım. Hər şey İlahidən alındı, mənim ilk və son şeirim, ürəyimin pıçıltısı misralara düzüldü.

Sizə Azərbaycan çırağı deyirlər,
Adınız Nisədir Umnisa deyirlər.
Ucaldız el içində, ölkə içində,
Gözəl insan deyirlər, alim deyirlər.

Şərəfdir, şöhrətdir qazandığınız,
Xarici ölkələrdə məşhur oldu adınız.
Elə bil günəşdən şəfəq alıb Siz,
Verdikcə xəstəyə gülür üzünüz.

Bəzəkdir adınız Azərbaycana,
İşıqsız həyat yatarmı cana.
Yanar işıq çoxdan sönmüş ocaqda,
Batdıqca əliniz o qızıl qana.

Günəş tək, işıq tək yeganəsiniz,
Nə qədər həyəcan keçirirsiniz.
Açıncan gözündən sarığı xəstə,
Duyğu tək, arzu tək səmimisiniz.

Təzə ilinizi təbrik edirəm,
Ürəkdən arzu, dilək edirəm.
Ümnisə xanım, yaşa, min il yaşa,
Dünya durduqca yaz-yarat, yaşa!

**Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının assistenti Gülsina İsayeva**
**31.X11-1972-ci il**

## İNSANI KƏŞF EDƏNLƏR
*(Esse)*

İnsanı görməzlər, tanıyarlar və bu tanımaqla da kəşf edərlər. Bu, insanın düşüncəsi, sözü və əməli ilə bağlı olan bir hadisədir. Ümnisə Musabəylini mən kəşf etdim. Əslində, bu kəşf ona lazım deyildi, ölümündən illər keçəndən sonra kimsə onu tanısın. Amma mənə lazım idi: Azərbaycanımız-Azərbaycanımızı tanımaq üçün və ən əsası, bu tanımaqla xalqın genefondunda yatan imkanların aşkarlanması üçün məndən ötəri bir işıq ucudur Ümnisə xanım! Hər dəfə Oftalmologiya kafedrasında olanda onun əks olunan ruhunu görürəm. Buradakı alimlərin, həkimlərin xəstələrə xoş rəftarında. Səmimi davranışında.

Paşa Qəlbinurun "Təkrarsız Ümnisə xanım" əsərini oxuyanda son sətirlərdən gözlərimi böyük heyrətlə ayırmışdım. Essedə bir şəxsin taleyini bu qədər ustalıqla yığcam şəkildə vermək bacarığına görə yox, orada olan isti nəfəsə görə. Heyrət təkrarsız alimi öyrənmək üçün açar rolunu oynadı.

Paşa Qəlbinurun ömür yolunu öyrəndikcə anladım ki, o özünü dərk edəndən sonra bu əsəri yazıb. Çünki Ümnisə xanımın ruhu vardı orda. İnsanlara olan sarsılmaz inamı, dözüb durmaq qətiyyəti, qarşısındakı xəstəni göz vasitəsi ilə tanımaq bacarığı, ən nəhayət, sonsuz zəhmətkeşliyi, bir gündə 13 göz cərrahiyyə əməliyyatı aparması, alimliyi, həkimliyi, cərrahlığı, müəllimliyi, şairliyi, ən başlıcası İnsanlığı!

Deməli, İnsan təkrar olunmur, əgər o şəxsiyyətdirsə! Ömrü ömürlərə köçür, onun kimi yaşamaq istəyində olanlar doğulur. Necə ki, Paşa Qəlbinur "mən onun sonuncu tələbəsiyəm!-deyib Ümnisə xanımı mənimsəyib özümləşdirməsi neçə-neçə Ümnisələrin doğulacağına inam artırır.

Qədim miniatür rəssamlığımızda, xalçalarımızda, rayon tirmə şallarında ta qədimdən ləl-cavahirata tutulmuş, adı ilə bağlı şərqdən qərbə, dənizdən dənizə yol salınmış Şəki

ipəyində, Basqalın ağ, sarı noxudu kəlağayısında, müxtəlif rənglərlə rənglənmiş irili-xırdalı ölçüdə Şərqin mənaçılığından xəbər verən butalar var. İnsan duyğularını, hallarını özündə əks etdirən.

Bir-birinə arxa çevirib, üzlərini yana tutmuşlar, küsüşən butalardır.

Bir-biri ilə üz-üzə durmuş, baş-başa vermişlər, barışan butalardır.

Ağ-qara, gecə-gündüz, yer-göy, od-su, ölüm-həyat, xeyir-şər, kişi-qadın, altı-doqquz və s. mənalandırılan iki böyük təzadın bir yerdə olmasını insanlar "bütövlük" adlandırıblar. Amma bu adlandırmanın özündə də üstün görünən tərəflər var. Ölümlə barışmayan insan ölümü həyatın xidmətçisi, onu təmizləyən hesab edir. İnsan "Hər qaranlıq gecənin bir gündüzü var"! - deyib. Hər halda qaranlıq gecədə ona işıq vəd olunmur. Təzadlar aləminin insana bəxş etdiyi ümid deyil bu. Onun özünün fitrən işığa can atmasıdır.

Bir-birini inkar edənlərin, əksliklərin, təzadların, bir-biri ilə vəhdəti olmur. Necə ki, rəqiblərin dostluğu olmadığı kimi.

İnsan təzadlar dünyasından nə küsməlidir, nə də barışmalıdır.

Küsəndə hadisələrdən yüksəyə qalxmağa gücü çatmır.

Barışanda onunla razılaşırsan, olmalı olanı ömrə gətirə bilmirsən.

İnsanda olan xeyirxahlığa böyük sevgi şər üzərində qələbə çalmaq əzmi yaradır və çalır.

İnsanda olan Mütləqə fitri eşq nisbidən keçmək, nisbi ilə barışmamaq gücü verir və bu güclə o, Mütləqə çatır. Bu səbəbdəndir ki, İnsan yaradıcılığında nöqsansız olmaq istəyir və buna can atır. Yüz illərdi, min illərdi bu can atmada yeni-yeni eralar, fəlsəfələr yaranır. Sonda ideyalar cəmiyyətə sirayət edir. Amma ideyalar, fikirlər heç də həmişə adamları inkişaf etdirməyə qadir olmayıblar. Fəlsəfələr yaranır, ekstensialist fəlsəfəsi kimi - çələng, absurddur. Əsl mahiyyəti -

insan nə qədər fəaliyyət göstərsə də, özünü xilas etməyə qadir deyil. Bəlkə də heç kəs bilmir ki, təcrübi baxımdan bu fəlsəfəni alt-üst etdi Ümnisə xanım-Şərqin mənaçılığından doğan ömrü ilə! Çünki onun ölümü də ləyaqət mücəssəməsi idi.

Daim özü öz yükünü çəkmiş şəxs kimə isə yük olmağı ləyaqətinə sığışdıra bilməzdi. Onun yükü çəkilərsə, qəlbi sıxıntı və əzablar içərisində olardı. O ölümü ilə başqalarını yükdən, özünü isə şərəfli ömrünə əlavə olunacaq "əzablı günlər" adlı sətirlərin yazılmasından xilas etdi.

Qıymayıb ömür adlı kitabında qaralma səhifə olsun!

Güllərin içərisində yaşı bilinməyən bir gül var-Qızılgül! Onu dillər əzbəri edən yaşının çoxluğu, tarixlər aşması deyil, iki böyük təzadı harmonik şəkildə yaşada bilməsidir.

(Bəlkə tarix yaşaması da təzadları özündə birləşdirə bilməsi qabiliyyətindən doğub ).

Qızılgül-zərif, ətirli, həm də tikanlı, sərt. Bu sərtlik zərifliyini qorumaq üçün təbiətin bəxş etdiyi səhvsizlikdir. Biçim və məzmunun vəhdətdə birləşdiyi kamil əsərdir Qızılgül!

Xalqımızın genindən, uzunluğundan yaranmış, sevilən-seçilən, öyrənilən əbədi qızılgülümüzdür Ümnisə xanım!

Tarix yaradıb, tarixə çevrilmişlərlə bir sırada qalıb.

Tariximizin Ümnisə Musabəyli səhifəsi var, hansı ki, yaddaşlarda qalası dərsdir!

**Eluca Atalı**

## XATİRƏLƏRDƏ YAŞAYAN NURLU İNSAN

Azərbaycan Milli Elmlər Akademiyasmın müxbir üzvü, tibb elmlər doktoru, professor, Əməkdar elm xadimi Ümnisə xanım Musabəyova, mən Nəriman Nərimanov adına Tibb İnstitutunda oxuyarkən (1953–59), institutun göz xəstəlikləri kafedrasının müdiri idi. O, hündürboy, qarayanız, iri, qara-gözlü, üzündə həmişə təbəssüm izi olan, xoşrəftar, əsl xanımlara xas olan incə davranışa malik gözəl bir insan idi. Onun sifətindən nur, ağzından dürr tökülərdi. Hər bir insan onunla həmsöhbət olmaqdan zövq alardı. Ümnisə xanım oxuduğu mühazirələrlə və gəzdiyi ölkələr haqqında etdiyi söhbətləri ilə tələbələri məftun edərdi. O zaman Sovetlər ölkəsindən xaricə qadın nümayəndə heyəti göndəriləndə Ümnisə xanım həmin heyətin rəhbəri təyin olunardı. Çünki o, bu nüfuzu qazanmışdı.

Ümnisə xanım dünya şöhrətli oftalmoloq alim idi.

Elə ona görə də dünyanın müxtəlif ölkələrində keçirilən oftalmoloqların elmi yığıncaqlarına göndərilən oftalmoloq alimlərin rəhbəri Ümnisə xanım təyin olunardı. Orada onun ingilis dilində etdiyi çıxışları dünyanın bir çox alimlərini hey-rətdə qoyardı. O, təkcə Azərbaycanı yox, bütövlükdə nəhəng Sovetlər Birliyini layiqincə təmsil edirdi.

Vaxtilə Ümnisə xanımın rəhbərlik etdiyi kafedraya indi onun layiqli şagirdi, tibb elmləri doktoru, professor, şair, fılosof Paşa Qəlbinur rəhbərlik edir. Paşa müəllim oftal-mologiya sahəsində böyük nailiyyətlər qazanan, hətta dün-yanın bir çox ölkələrində yaxşı tanınan alim olmasına bax-mayaraq yenə də özünü Ümnisə xanımm şagirdi hesab edir və ondan qürur duyur. O deyir: "Ümnisə xanım okeanda üzən böyük aysberq idi. Bu aysberqin zirvəsi oftalmologiya elmi-nin bütün üfüqlərindən görünsə də, onun özü olduğundan qat-qat böyük imiş".

SSRİ oftalmoloqlar idarə heyətinin sədri, professor E.S.Avetisovun Ümnisə xanım Musabəylinin "Asiya və Af-

rika ölkələri oftalmoloqlarının daimi konqresində" kitabını oxuyandan sonra müəllifə yazırdı: "...Kitabınızı oxudum və çox təəssüfləndim ki, siz niyə yazıçı, jurnalist olmamısınız. Həm də sevindim ki, əgər belə olsaydı, onda oftalmologiya elmi itirərdi".

Paşa Qəlbinur yazır: "Bir çöx xarici ölkələrin dərsliklərində oftalmoloqlar sırasında ancaq Azərbaycan alimi kimi Ümnisə Musabəyovanın şəklini görmüşəm". Ümnisə xanım xalqını, Vətənini canından artıq sevən bir insan idi. O deyirdi: "Mən nə vaxt cərrahiyyə əməliyyatı edə bilməsəm, insanlara işıq bağışlaya bilməsəm, onda yaşamayacam". O, öz dediyi kimi də dünyasını dəyişdi.

Sən şagirdlərinin qəlbində yaşadığın kimi, şagirdlərin də səni öz şagirdlərinin qəlbində yaşatmağı özlərinin mənəvi borcu hesab edir, Ümnisə xanım. Onun insanlığa xas olan danışıq və hərəkətləri indi də mənim gözlərim qarşısında canlanır. Bütün insanlara Ümnisə xanımda olan əsil insani keyfiyyətləri arzu edirəm. Onu sevənlərin qəlbində yaşayan gözəl xanımın ruhu şad olsun. Allah sənə rəhmət eləsin, Ümnisə xanım.

Ümnisə xanım haqqında olan fikirlərimi bir daha qısaca olaraq yazdığım şeirimlə tamamlayıram.

O, əsl loğman idi, əsl də insan,
İnsanla söhbətdə o deyərdi “can”.
Üzü nurlu idi, qəlbi təmiz, pak,
Tanrıdan gəlirdi ondakı idrak.
Boyu sərv boyluydu, belisə incə,
Xuda yaratmışdı onu tək, bircə.
Həmişə üzündə təbəssüm vardı,
Onun dedikləri yadda qalardı.
Çün hikmət var idi hər bir sözündə,
Cazibəsi isə qara gözündə.
Xəstələr yanına şəstlə gələrdi,
Elə bil ağzından dürr tökülərdi.
Ziyalılıq vardı şux görkəmində,

İnsanlıq var idi əməllərində.
Hamıya xoş idi onun hər işi,
Cəzbedici idi şux görünüşü.
Beşinci kursda mən oxuyan zaman,
Yaxşı dolanmağa yox idi imkan.
Kömək üçün ona mən xahiş etdim,
Dərdimi deməyə yanına getdim.
O, məni evinə elədi dəvət,
İkram etmək ilə göstərdi hörmət.
Dedim ki, işləmək istəyirəm mən,
Dedi heç darıxıb fikir etmə sən.
Sənə nə lazımsa kömək edərəm,
Lazım olan yerə özüm gedərəm.
Zor ilə oturdub, yedirtdi məni,
Tanrı da çox sevir xalqın sevəni.
Onun xalq içində hörməti vardı,
Bütün insanlara o yarıyardı.
Hər işə və gücə o bələd idi.
Zəng etməklə mənə iş də düzəltdi.
O, gözəl və sadə mehriban insan,
Halımı sorardı mənim hər zaman.
Fələyin gərdişi aman vermədi!
Onun gülər üzü daha gülmədi.
Gözlərə nur verən mehriban insan,
Gözünü yumaraq getdi dünyadan.
Əsl insan idi xanım Ümnisə,
O, nur verən idi gözlərimizə.
Qoy onun qəbri nur ilə dolsun,
Xalqın yaddaşında əbədi qalsın.
Çün layiqdi buna o gözəl insan,
Yardımçı olardı xalqına hər an.

**Həkim, şair, "Həsrət nəğmələri", "Hikmətli sətirlər", "Hicran dərdi" kitablarının müəllifi Əvəz Süleymanoğlu**
**Kopenhagen, 16.09.03**

## HƏYATI ÖRNƏK OLAN İKİ ALİM

Azərbaycan Tibb İnstitunda, tələbəlik illərində bir çox dəyərli alimlərdən, onların elmi potensialından bəhrələnmişik. Təbabətin dərin qatlarına işıq salan ziyalıların əqli gücündən pay götürmüşük. Bizim tibb dünyasında həyatı və fəaliyyəti örnək olan kifayət qədər elm xadimlərimiz var. Hər birinin zəhməti sayəsində bugün Azərbaycanda savadlı həkim kadrları və tibb mütəxəssisləri yetərincədir...

Belə tanınmış alimlərimizdən biri də oftalmoloq alim Ümnisə xanım Musabəyova idi. Elmimizi dünyada təbliğ edən, institutda tələbələr yetişdirən, ictimai işlərdə fəallığı ilə seçilən Ümnisə xanım institutda ən sevimli müəllimlərimizdən biri olub. O, bizi oftalmologiyanın sirlərindən hali edib. Çox mehriban, gözəl simalı, gülərüzlü xanım idi. Auditoriyanı çox asanlıqla ələ alan, tələbələrlə rahat dil tapan Ümnisə xanım geniş dünyagörüşə, hərtərəfli biliyə malik, zəngin intellekt sahibi idi. Mühazirələri aydın və səlis dildə oxuduğundan dediyi hər fikir anlaşılırdı. Onun keçdiyi dərslər o qədər maraqlı idi ki, hansı mövzudan söz açırdısa, bütün fikrimiz o istiqamətə yönəlirdi. Hətta mühazirə dinləməyi xoşlamayan tələbələr də Ümnisə xanımın danışığına valeh olur, sevə-sevə onun dərslərini izləyirdi.

Bu xanımda tələbəni özünə bağlamaq məharəti vardı. Elə gözəl danışırdı ki, mövzuyla səsinin ahəngi vəhdət təşkil edir, tələbəni dediyinə inandırırdı. Mövzuları özünküləşdirib, sadə el dilində danışdığından, tibbi terminologiyadan istifadəni ustalıqla etdiyindən hər sözü beynimizə yazılırdı. Göz xəstəlikləri barəsində söylədikləri necə varsa Ümnisə xanımın öz səsində, eləcə olduğu kimi də yadımda qalıb. Səsi qulağımda, yerişi, hərəkəti gözlərimin önündədir. Şirin ləhcəsində atalar sözlərinə üstünlük verdiyindən hər kəlməsi dürr kimi könül oxşayırdı. Bir sözlə, Ümnisə xanım, alim həmkarlarından, digər müəlimlərdən fərqli mühazirə demək cəhəti ilə seçilirdi.

Hətta Ümnisə xamının geyim tərzi də fərqliydi. Zövqlə geyinir, əyninə yaraşan libasları ilə hər zaman şux görkəmdə idi. Özünə yaraşan geyimlər seçir, onu ya çantası, ya da ayaqqabısı ilə eyni rəngdə tamamlayırdı. İndi də yadımdadır, hündürdaban uzun çəkmədə, düz yerişi, qəddi-qaməti...

Ümnisə xanım kübar ailənin övladı olduğunu geyimindən, hərəkətlərindən, davranışından büruzə verib. Əsilli, nəcabətli əsl Azərbaycan xanımı idi. Onun incə qəlbi, həssas münasibəti müəllim tələbə arasında ünsiyyət yaradır, bu iki varlığı bir-birinə doğmalaşdırırdı. Ümnisə xanımın tələbə kəsməklə arası yox idi, ancaq savadsız tələbəni də sevməzdi. Öz növbəsində tələbələr də bu fənnə biganə qalmaz, dediyini ona qaytarmağa çalışardılar. O, biliyi tələbəyə aşılamağı, savad verməyi bacaran müəllimə və verdiyini də tələbədən geri almağı bacaran əsl pedaqoq idi.

Ümnisə xanımın həyat yoldaşı İbrahim İsmayılzadənin özü də tələbələrə örnək olan şəxsiyyət olub. 1960-cı ildə əməkdar elm xadimi fəxri adına layiq görülən alim İsmayılzadə İbrahim Məmməd oğlu Ə.Əliyev adına ADHTİ-nin dəri-zöhrəvi xəstəlikləri kafedrasının müdiri, professoru idi. Bir dəri həkimi kimi onun elmi araşdırmalarından, kitablarından mütəmadi olaraq istifadə etmişik. Mənim şəxsən bir ixtisaslı kadr kimi yetişməyimdə professor İbrahim İsmayılzadəninin böyük rolu var. Şəxsən onu görməsəm də, alimin bizə, təbabətə ərmağan elədiyi mənbələrdən, tutarlı faktlardan yararlanmışam. Çalışdığım sahədə bu dəyərli həkimin tibbə gətirdiyi yeniliklər, elmi dəlillər maraqlı olduğundan hər zaman İsmayılzadə irsini öyrənməyə ehtiyac var.

Belə böyük alimlərin elmi və əməli fəaliyyəti tükənməz xəzinədir, zaman keçsə də bu qiymətli mənbələr yenə də öz dəyərini saxlayır, onların elmi varidatı, həyat yolu gənclərə örnək olur, əziz xatirəsi isə yaddaşlardan silinmir.

**ATU-nun Dermatovenerologiya kafedrasının müdiri, t.e.d., professor, əməkdar elm xadimi Zülfüqar Fərəcov**

## “ÜMNISƏ XANIMIN ETIMADINI DOĞRULTDUM”

Ümnisə xanım tələbəsini dəyərləndirir, hansı tələbənin nəyə qadir olduğunu o yaxşı bilirdi. Sonda özü seçim edirdi ki, kim hara layiqdir. İnstitun 5-ci kursunda Oftalmologiyadan semestr imtahanını məndən Ümnisə xanımın özü götürdü. Sullara yaxşı hazırlaşmışdım. Cavablarım deyəsən onu qane etmişdi, əlavə olaraq mənə bir neçə sual da verdi. Mənə dedi ki, sən oftalmoloq olmalısan, təyinat bölgüsü zamanı yadıma salarsan, mən sənin göz həkimi olmağın üçün təqdimat hazırlayaram.

Doğrudan da biz 6-cı kursda oxuyurduq. Bölgü zamanı hörmətli professor dediyi sözü yerinə yetirdi, onun təqdimatı əsasında mənə oftalmoloq ixtisasını verdilər. Ümnisə xanımın bu sözünə qədər mən fikirləşirdim ki, institutu bitirdikdən sonra mən ümumi cərrah olaram. Ancaq məni bu sənətə Ümnisə xanım yönəltdi. Onun mənə inamı sayəsində oftalmoloq oldum. Bununla da məsuliyyətli olmaq, peşəni dərindən öyrənmək missiyası üzərimə düşdü. Bir halda ki, bu alimin ən sevimli tələbəsi adını qazanmışdım, deməli mən onun etimadını doğrultmalı idim. Onun istədiyi kimi yetişməliydim. O vaxtdan üzü bəri bu amala xidmət edirəm ki, ən sevimli müəllimimdən öyrəndiklərimi mən də gənclərə tədris edə bilim...

Ümnisə xanım dünya miqyasında tanınan alim idi. Onun şöhrəti planetin hər tərəfinə yayılmışdı. Çox məğrur, geniş potensial biliyə malik ziyalı idi. İnternatura müddətində ondan praktiki cəhətdən çox məlumatlar öyrəndik. Hər həftə Ümnisə Musabəyova xəstələrə baxış keçirirdi. O baxışda Ümnisə xanımla bərabər iştirak eləmək bizə böyük təcrübə verirdi. Hər dəfə də oftalmologiyanın müxtəlif problemlərinə dair müxtəlif məlumatlara malik olurduq...

Həddindən çox savadlı, obyektiv, hər işə ədalətlə yanaşan alim idi. Eyni zamanda sadə və məğrurluğu ilə diqqət

çəkirdi. Həkimlərdən, tələbələrdən kim nə soruşsa idi, heç kimdən imtina etmədən məsələnin mahiyyətini ona izah edərdi. Həm də özü şərait yaradırdı ki, hər hansı xırda bir hadisə olsun belə, ondan rahatlıqla soruşa bilək. Bir dəfə də olsun kiminsə sözünə etinasızlıq göstərməmişdir. Həkimlərə, tələbələrə izahı elə verirdi ki, aydın olsun deyə, ta əmin oluncaya qədər sözünü bitirməzdi. Oftalmologiya peşəsinin sirlərini belə bir xanımdan, Ümnisə Musabəyovadan həvəslə öyrənirdik. Çətin problemlərin həllində hamının yardımçısı idi...

İnstitut illərində hətta o zəif tələbəyə də elə yanaşır, elə ustalıqla onu başa salırdı ki, dərsi oxumadığına görə həmin adam özü xəcalət çəkərdi. Alimin yanında hörməti aşağı olmasın deyə, dəridən-qabıqdan çıxar, sonda oxuyub, qarşısına gələrdi. Ümnisə xanımın bir fitri istedadı da, müəllim tələbə münasibətlərini qura bilməsi idi. Onda ən pis tələbəni ram etmək qabiliyyəti vardır.

Ümnisə xanımın sayəsində Oftolmalogiya üzrə gözəl alimlərimiz yetişdi. Akademik Zərifə xanım Əliyeva, Zəhra xanım Quliyeva, Paşa Qəlbinur və digər neçə-neçə adlı-sanlı Azərbaycan alimləri Ümnisə Musabəyovadan dərs alıblar.

Alim özü dünya göz cərrahlarının fəaliyyətini izləyirdi. Onların elmi yeniliklərini daima nəzərdən keçirərdi. Elmi əlaqələrin qurulmasında xidmətləri misilsiz idi. Bu Azərbaycan qadını dünya elmində baş verən hər bir uğuru mənimsəyir, özü beynəlxalq oftalmologiyaya bəşəri dəyərlər verən tədqiqat əsərlərinə imza atmışdı. Nəticədə adı dünyanın hər bir nöqtəsində çəkilir, alimin səsi-sorağı aləmə yayılırdı...

Ümnisə xanımın mənə həvalə etdiyi sahəni axıracan aparmalı oldum. Moskvada Göz xəstəlikləri institutunun aspiranturasını bitirdim və həmin məkanda da namizədlik dissertasiyasını müdafiə elədim.

Moskvada oxuyan zaman şahidi olurdum ki, ölkəmizdən kənarda Ümnisə xanımı necə yad edirdilər. Onun elmi tapıntılarından dönə-dönə danışan Moskva alimləri mühazirə-

lərdə dəfələrlə Ümnisə Musabəyovanın adını çəkərdilər. Təbii ki, bu da məndə bir qürur hissi doğururdu. Həmyerlimizin nailiyyətlərindən söz düşəndə özümdə fəxarət hiss edirdim ki, mən də Ümnisə xanımın yetirmələrindən biriyəm.

Ümnisə Musabəyovanın toxunduğu mövzular daima oftolmalogiya üçün aktualdır. Məsələn, hamiləlik zamanı göz didində olan patoloji dəyişiklikləri  alim geniş şəkildə öyrənmişdir.

Akkomodasiya sahəsində qiymətli fikirlər söyləmişdir. Akkomodasiya - gözün yaxın və uzaqda yerləşən cisimlərin aydın görmək üçün uyğunlaşma qabiliyyətidir. Ümnisə xanıma qədər dünya alimləri hesab edirdilər ki, akkomodasiya ancaq yaxına mövcuddur. Alim isə elmi dəlillərlə sübut etdi ki, akkomodasiya həm yaxına, həm də uzağa mövcuddur. Qlaukoma, traxoma, bir sözlə oftolmologiyanın bütün aktual problemlərinin öyrənilməsində Ümnisə Musabəyovanın əməyi var.

Zaman keçməsinə baxmayaraq alimin tapıntıları bugünün özündə də elm üçün dəyərlidir. Onun dərslikləri əsl elmi mənbədir.  Baxmayaraq ki, oftolmologiya sahəsində tərəqqi güclüdür, cərrahi yeniliklər gündən-günə vüsətlənir. Yenə də Ümnisə xanımın elmi əsərləri öz aktuallığını saxlayır.

**ATU-nun Oftalmologiya kafedrasının dosenti,**
**tibb elmləri namizədi**
**Rəhman Allahverdiyev**

## “BİBİM ÜMNİSƏ MUSABƏYLİ HAQQINDA UŞAQLIQ XATİRƏLƏRİM”

Hüquqşünas Süleymanbəy Musabəyovun ən kiçik nəvəsiyəm. Mən ailədə 15 ildən sonra doğulmuşam və babamın adını daşıyıram. Atam Şamilin mənə qoyduğu bu ada görə uşaqlıqda bibilərim, əmim məni həddindən artıq əzizləyir, “atamız” deyə, çağırardılar. Xüsusən, Ümnisə bibim qayğıma çox qalırdı. Yanımdan yel ötəndə narahat olardı. Yadımdadır ki, bir dəfə bərk xəstələnmişdim. Atamla birlikdə məni Pribaltikaya müalicəyə şəxsən özü göndərmişdi. Onun bu sözlərini həmişə xatırlayıram, deyərdi ki, “bu uşaq bizim atamızın adını yaşadır, ondan muğayat olmalıyıq”. O çox çalışqan bir insan idi və işlərinin çox olmasına baxmayaraq bizə də tez-tez baş çəkər, məndən xəbər tutardı...

Ümnisə xanıma tək bibi kimi baxmırdım, həm də müəllim kimi ondan çox şey öyrənirdim. Həmişə mənə dilimizi qorumağı məsləhət görərdi. Çünki orta məktəbə rus dilində getdiyim üçün danışanda arada rus sözlərini işlədirdim. Mənə bunu ciddi şəkildə irad tutardı. Deyirdi ki, “ya rus dilində danış, ya da ana dilində. Ancaq ana dilində danışanda onu korlama. Təmiz danış, dilə xətər gətirmə, öz dilində doğru-düzgün danışmağı bacar”.

Mən bir dəfə də görmədim ki, o kiməsə bərkdən qışqırsın. Çox səbirli və mülayim idi. Nizam-intizamı çox sevərdi. Planlı şəkildə işlərini qurardı. Dediyi sözü, verdiyi əməli vaxtında həyata keçirməyi sevən bir insan idi.

Ümnisə bibim xeyirxah olub. Yadımdadır ki, onun yanında bir tibb bacısı çalışırdı. Uşağı xəstə olduğundan işini itirmək təhlükəsi ilə üzləşəndə bibim o zaman həmin xanıma həyan oldu. Uşağının müalicəsini öz üzərinə götürdü. Ümnisə xanımın bu xeyirxahlığı haqqında hamı danışırdı. Atamla bir neçə dəfə onun iş yerinə getmişdim. İşçiləri ilə davranışını yaxşı xatırlayıram, hamı ona çox hörmətlə yanaşırdı...

Hər zaman arzulamışam ki, bibimə oxşayım, Ümnisə xanım kimi yaxşı həkim, əsl mütəxəssis olum. Mənim bacım xəstə idi və mən də uşaqlıqda həkim olmaq, onu sağaltmaq barədə düşünürdüm. Onun adı Vəsilə idi. Böyük bibimizin adını yaşadırdı. Vəsilə bibimin taleyi kədərli olub, əri ilə bərabər güllələnib. Bacım Vəsilə isə xəstəliklə mübarizə aparırdı, əfsuslar ki, onun da həyatı yarıda qırıldı.

Tale elə gətirdi ki, mən də həkimliyin sirlərinə yiyələndim. Sənətimi çox sevirəm. Peşəm, sənətimlə bağlı həyatımda yadda qalan günlər çox olub. 1990-cı il, 20 yanvar gecəsi növbədə idim, o gecə gördüyüm dəhşətləri ömrüm boyu unuda bilmərəm...

Bir müddət Təcili Yardım Stansiyasında işlədim, sonra Kardiologiya institutunda çalışdım, Azərbaycan ordusunda bir neçə vaxt xidmət etdim. Hava qoşunları yarananda mən öz ixtisasım üzrə bu sahəyə cəlb edildim. Ordudan tərxis olunandan sonra Türkiyədə çalışıram. Mən də bibim kimi xəstələrimi çox sevirəm, çünki onlar məndən çarə umurlar. Çalışıram ki, düzgün diaqnoz qoyulmaqla xəstəliyin qarşısı vaxtında alınsın.

Ümnisə bibimi anam sox sevərdi. Ona görə mənim ilk qız övladım doğulanda nəvəsinə Ümnisə xanımın adını verdi. Anam Sona xanım deyərdi ki, "Süleymanın böyüməyində Ümnisə xanımın böyük zəhməti var".

Bu gün onun adını daşıyan balaca Ümnisədə də bibimə oxşarlıq var. Onun kimi dil öyrənmək həvəskarıdır. Axı Ümnisə xanım bir neçə dil bilirdi və hətta yadımdadır ki, Yusif əmimlə evdə almanca danışırdı...

Bu gün elimiz, obamız Ümnisə xanıma böyük qiymət verir. Onun xeyli sayda ziyalı tələbələri var və onlar alimin adını yaşadırlar. Görkəmli elm xadiminin xatirəsini əziz tuturlar. Azərbaycan xalqı öz alim övladıyla fəxr edir..

**Həkim Süleyman Musabəyov**

## "ÜMNİSƏ MUSABƏYLİNİN ŞƏXSİ FONDU"

Ümnisə Musabəyli çox nadir şəxsiyyətlərdən biridir. Xüsusilə qadınlar arasında bu səviyyədə şəxsiyyətə hələ ki, rast gəlməmişəm.  O, dünya səviyyəli tanınmış göz cərrahı idi. Onun elmi xidmətləri misilsizdir, eyni zamanda ictimai xadim kimi də Ümnisə Musabəyli kütlə içərisində özünə rəğbət qazanıb. Arxivdə onun fəaliyyəti ilə bağlı kifayət qədər maraqlı məlumatlar, sənədlər öz əksini tapıb.

Sənədlərdə yazılıb ki, o, Qutqaşın ( indiki Qəbələ ) rayonundandır. 1902-ci ilin oktyabrında doğulub, Tağıyevin tikdirdiyi Qızlar gimnaziyasını bitirib. Tibb institutunda oxuyub. Ümnisə xanımın namizədlik dissertasiyasının həcmi cəmi 12 səhifədən ibarət olub. Bu 12 səhifədə qiymətli fikirlər öz əksini tapdığından, özündən xəbərsiz ona elmlər namizədi, alimlik dərəcəsi verilib.  Çox keçmədən doktorluq işini də tamamlayır və oftalmologiya aləminə öz yenilikləri ilə qədəm qoyur. Mən arxiv işçisi kimi onun elmi xidmətlərindən çox, digər sahələrdə gördüyü işlərə, ictimai fəaliyyətinə toxunmaq istəyirəm.

Ümnisə xanım yüksək səviyyəli insani xasiyyətə malik bir məxluq idi. Necə ki, o vaxtlar xalq şairi Səməd Vurğunun şeirləri dillərə düşmüşdü, hər yerdə, hər məclisdə şairin adı çəkilirdi, Ümnisə xanım da elə. Həkimin adı dillər əzbəri olmuşdu, ona şeirlər qoşulur, haqqında yazılar dərc edilirdi.

Tarixdə 1-ci dəfə xaricdə və SSRİ-də yeganə olaraq Ümnisə Musdabəyli anadangəlmə kor insanın gözlərini açmışdı. Tibb institutunun göz kafedrasına rəhbərlik eləyib. Bütün praktiki fəaliyyətini həmin klinikada həyata keçirib. Elmi cəhətdən ən çox Odessanın göz həkimləri ilə mübahisələri olub. Bununla bağlı arxivdə xeyli sayda sənədlər var. Ən sonda ölkə miqyasında onun fikirləri qəbul olunurdu.

Ümnisə Musabəyli Moskvaya beynəlxalq konqresə yola düşərkən təyyarədə "Oqanyok" jurnalının baş redaktoru

Fyodrova ilə tanış olur. Alimlə yaxından tanışlıq jurnalisti təsirləndirir. Bu söhbətdən sonra həmin jurnalda Ümnisə xanım haqqında böyük bir məqalə dərc edilir. Anadan kor doğulan uşağın gözlərini açmış cərrah haqqında yazılan yazı bütün dünyada əks-səda doğurur. SSRİ-nin hər tərəfindən, Azərbaycanın bütün yerlərindən Ümnisə xanımın yanına axın-axın insanlar gəlir. Həkimdən kömək istəyən yüzlərlə insan ona məktub yazır ki, "Ümnisə xanım, bizim də övladımızın gözünə şəfa verin, ona da kömək edin".

Arxivdə belə bir sənəd də var. 1956-cı ildə MK-nin tapşırığı, şəxsən Xruşovun göstərişi ilə hospitala rəhbərlik etmək üçün Misirə göndərilir. Ora çatanda deyirlər ki, bizdə bir neçə hospital var. Siz hansına rəhbərlik edəcəksiniz?. Deyir ki, mən bilmirəm hansına göndəriblər. Mənə ancaq kasıb uşaqların müalicəsini həvalə edin. Elə də olur, öz istəyi ilə yetim uşaqların yatdığı hospitalda çalışır. Həmin vaxt Misirdə İngiltərə, Almaniya, Yaponiya və s. ölkələrin alimlərinin iştirakı ilə beynəlxalq konqress keçirilir. Alimlər məruzəçilər arasında Ümnisə xanımın olmadığını görəndə təəccüblənirlər. Bir qrup mötəbər alim gəlir həmin hospitala ki, bəs siz niyə tədbirdə iştirak eləmirsiniz?. Deyir ki, yəqin mən Misirdə olduğum üçün məsləhət bilməyiblər. Sonra Ümnisə xanım qonaqların pərt olduğunu görür və onları çay süfrəsinə dəvət edərək bildirir ki, yarım saatdan sonra sizə elmi məruzəmi təqdim edəcəm. O, göstəriş verir ki, anadangəlmə kor doğulan, dünyanın bir neçə böyük dövlətlərində müalicəsi mümkün olmayan bir xəstəni əməliyyat otağına aparsınlar. Qonaqlarını, yəni həmkarlarını xəstə ilə tanış edir və onların gözünün qarşısında əməliyyat aparır. Bu əməliyyat, kor doğulan insanın gözünün açılması dünya tibb aləmində yenilik idi. Ümnisə xanım əməliyyatdan sonra həmkarlarına deyir ki, "bu da mənim məruzəm, baxın mənim elmdə yeniliyim budur, bu məsələ üzərində işləyirəm". Bu fakta dair sənədlər də şəxsi qovluqda mühafizə olunur..

Əlimizdə Odessa şəhərində anadan kor doğulan Slavik adlı bir oğlanın da gözünün açılması faktı var. Ümumiyyətlə, arxivdə bir neçə belə xəstə barəsində məlumat çoxdur...

Ümnisə xanım bəlkə də daha çox gözləri aça bilərdi. Ancaq o, ictimai xadim kimi də fəaliyyət göstərirdi. Azərbaycan Ali Sovetinin deputatı olmuşdu. SSRİ Ali Sovetinə iki dəfə deputat seçilmişdi. Onun bu sahədə də fəaliyyəti misilsiz idi.

Yenə faktlara nəzər salaq. Topçubaşov adına Kliniki İnstitut məhz onun rəhbərliyi ilə tikilib. Deputat Tibb institutunun rəhbərliyindən tələb edir ki, onu Moskvaya ezamiyyətə göndərsinlər. İnstitutdan bilirlər ki, Ümnisə xanım Azərbaycan Respublikası MK-i birinci katibinin, Nazirlər Soveti sədrinin yanında olub, onun təkliflərini hörmətlə dinləsələr də, köməklik edə bilməyiblər, indi də öz fikrini həyata keçirmək üçün mərkəzə gedir. Ona görə də ona maneə olmaq istəyirlər. İşi belə görən Ümnisə xanım özü öz vəsaiti hesabına Moskvaya yola düşür. Bir neçə nazirin qəbulunda olur, heç kəs onu eşitmək istəmir. Axırda məcburiyyət qarşısında qalıb SSRİ-nin rəhbəri olan Xruşovun yanına gedir. Deyir ki, "Nikita Sergeyeviç məni xalq deputat seçib. Sizin o gün sessiyadakı çıxışınız yaxşı yadımdadır. Siz dediniz ki, bu deputatların dediklərini yazın və əməl eləyin. Yanımda da SSRİ-nin maliyyə naziri Arbuzov oturmuşdu və sizin dediklərinizi o da yazırdı. Amma indi maliyə naziri bizə pul ayırmaq istəmir, deyir ki, gələn ilin büdcəsindən sizə pul verərəm. Mən istəyirəm ki, xəstəxananın tikintisinə vəsait indi ayrılsın." Xruşov maliyyə nazirinə zəng vurur, həmin gün pul Azərbaycana köçürülür.

Professor Zəhra Quliyeva danışır ki, Ümnisə xanımın Moskvaya getməsini istəmirdik. Fikirləşirdik ki, bir az əsəbidir, gedəcək, mübahisə eləyəcək, sözünü də eşitməyəcəklər, aləm dəyəcək bir-birinə. Onu hər səfərdən dönəndə böyük heyətlə qarşılayırdıq. Ümnisə xanım təyyarədən düşəndə yavaşcadan soruşdum ki, necə oldu, pul ala bildiniz. Dedi

əlbəttə aldım, bəs necə, elə bilirdiniz ala bilməyəcəm?. Həmin pulla Ümnisə xanımın rəhbərliyi altında Topçubaşov adına Respublika Klinik xəstəxanası qısa müddət ərzində tikilib, istifadəyə verilir. Əlimizdəki sənədlərə əsasən deyə bilərik ki, respublikada bir çox səhiyyə müəssisəsinin, xüsusilə, xəstəxanaların müasir tibbi texniki avadanlıqlarla təchiz olunmasında  Ümnisə xanımın əməyi var.

Onun şəxsi fondunda deputatlıq fəaliyyəti ilə bağlı gördüyü işlərə dair sənədlər də var. Naxçıvandan SSRİ Ali Sovetinə deputat seçilib. O, tez-tez öz seçicilərinin görüşünə gedib, onların ehtiyacları ilə maraqlanıb, istəklərini yerinə yetirib. Sadə camaat arasında olmaqdan zövq alarmış, onlarla ünsiyyətdən, təmasdan məmnun olarmış. Belə bir hörmətli insanın həddindən artıq sadəliyi, kənd ailələrində qonaq olması da naxçıvanlıların ona rəğbətini artırıb.  Umduqlarını, tələbatını deputatlarından gizlətməyiblər. Onların xahişi ilə Ümnisə xanım Ordubadda çörək zavodu tikdirir. Bu müəssisənin inşasına da şəxsən özü nəzarət edir. Yerli əhali ilə görüşəndə ondan soruşurlar ki, "Siz haradansınız?", deyir ki, Naxçıvandanam, sizin yerlinizəm, ona görə də sizin yanınızdayam. Onun içində ümumi bir azərbaycançılıq anlayışı var idi, qəlbi həmişə "Böyük Azərbaycan naminə" döyünürdü. Onun həddindən artıq mülayim rəftarını görənlər istəyirlər ki, Ümnisə xanımdan şəxsi məqsədlərlə də istifadə etsinlər. Baxırlar ki, kim ondan nə istəyirsə yerinə yetirir, hamıya yardım edir. Fürsətdən istifadə edərək bölgədə həkimə ehtiyac olduğu üçün bir qızın Tibb İnstitutuna yerləşdirilməsi xahiş olunur. Həmin qız Sovet sədrinin qohumu imiş. Deyir "gözlərim üstə, gəlsin yoxlayım, görək nə bilir". Qızın savadı onu qane eləmir, məktubunun üstünə yazır: "Tibb institutunda yox, Lenin adına APİ-də oxuya bilər". Bu məktub şəxsi fondun içərisindədir.

Naxçıvandan xırda ticarət üstündə iki nəfəri həbs edirlər. Həbs olunanlardan birinin 9 övladı olur. Naəlac qalan ana

ərinin tutulduğunu bildirir və Ümnisə xanımdan kömək istəyir. Deputat öyrənir ki, bu adamları kiçik bir cinayətə görə cəzalandırıblar. Onlar Xarkovdan Naxçıvanın kəndinə satmaq üçün nəlbəki gətiriblər. Deputatın Respublika prokurorunun birinci müavini Gülməmmədova yazdığı məktub fond materialları arasındadır. Yazır ki, "siz bir nəfəri məsuliyyətə almaqla cəmiyyətdə 9 cinayətkarın yetişməsinə şərait yaradırsınız. O körpələri kim tərbiyyə edəcək, onlara kim kömək olacaq və hansı yolla böyüyəcəklər?. Bir də nəyə əsasən onları həbs eləmisiniz?. O Naxçıvana nəlbəki gətirib ki, camaat mədəni qaydada çay içsin. Buna görə onlar cəzalanmalıdır?..." Deputatın gərgin səyi ilə tutulan vətəndaşların cinayət işinə yenidən baxılır və onlar tez bir zamanda azadlığa buraxılır.

Sənədlər deyir ki, Ümnisə xanıma Azərbaycanın hər tərəfindən məktublar yazılıb. Belə bir fakt da var.

Masallıdan bir nəfər ona dərdini yazır. Bu adam 6 ay xəstə olduğu üçün öz pedoqoji vəzifəsini itirir. Onu işinə bərpa etmək istəmirlər. Ümnisə xanım məktuba biganə qalmır, araşdırır və vətəndaşın haqlı mövqeyini müdafiə edir. Həmin şəxsin sonradan yazdığı minnətdarlıq məktubu da əlimizdədir.

Ümnisə xanımın həkimliyi günü-gündən püxtələşdiyi, elmi potensialı şaxələndiyi kimi, ictimai-siyasi fəaliyyəti də göz önündə idi. Hər iki sahədə paralel addımlayırdı. O, harada olurdusa, harada danışırdısa, orada Ümnisə xanımın izi qalırdı. Başdan-başa xalqının xidmətində idi, hətta dünya səhiyyəsi bu nadir, unikal şəxsiyyətdən bəhrələnirdi. ..

Xarici səfərləri arasında Vyetnamla əlaqələri daha çox maraq kəsb edir. Arxivdə bu barədə material var. O vaxtlar bu ölkədə ağır müharibə gedirdi. Vyetman xalqı dünya ictimaiyyətinə kömək üçün müraciət etmişdi. Ümnisə xanım ölkə rəhbərliyinin tapşırığı ilə köməyi öz boynuna götürmüşdü. Axı həm də Dünya Sülh Komitəsinin üzvü idi. Onun yola

salınan bağlamaların dəqiq hesabını aparması və yerlərdə ünvana çatdırılmasını yoxlayan sənədlər var. Yaponiyadakı konqresdə, Xirosima və Naqasakiyə atılan atom bombalarına qarşı etiraz dolu çıxışlarınında bu cümləni xüsusi ahənglə deyir: "Mən gündoğar ölkəyə gəlmişəm, başa düşün, özü də gündoğar ölkədən, Azərbaycandan gəlmişəm".

Ümnisə xanıma hamı inanırdı, bilirdilər ki, dediyini eləyəcək. Hətta dövlət başçıları da ona inanırdı. Ondan hamı yenilik gözləyirdi. Ölkəni daima o təmsil edər və hara getsə müsbət nəticə ilə geri dönərdi.

Qeyri-adi həkim olub. Xəstəyə təkcə həkim kimi yanaşmayıb, ona ana-bacı olub, yaxın dost kimi qəlbinə yaxınlaşıb. Əməliyyatdan öncə xəstəsi ilə yaxın münasibət qurarmış, onu psixoloji cəhətdən hazırlayıb, sonradan cərrahiyyə stoluna götürərmiş. Xəstəyə tez-tez baş çəkər, deyərmiş ki, "nə yatmısan, tez ol sağal, qalx, demişdim axı, səninlə teatra, kinoya gedəcəm, səni Bakıda gəzdirəcəm". Xəstə də ona inanırmış. Gözləri açılandan sonra Ümnisə xanıma məktub yazanlar var ki, bəs nə vaxt biz görüşə bilərik, şəhərdə birgə gəzə bilərik. Hətta Ümnisə xanım o məktublara da biganə qalmır və cavab verir ki, "mənim məqsədim, vəzifəm sənin həyata baxışını açmaq idi, indi yaşa özün üçün. Daha mənsiz də qala bilərsən, axı mən başqa xəstələrlə də çalışıram...". Bu məktublar da şəxsi arxivindədir.

İsmayıllı rayonundan 95 yaşlı bir kişi Ümnisə xanımdan gözlərini açmağı istəyir. Məktubdan sətirlər. "Deyirlər ki, siz anadangəlmə kor olan gözləri açırsınız, mənin gözlərim bir neçə ildir ki, görmür, əlac eləyə bilərsinizmi?". O şirin dillə cavab yazır ki, "sizin bu yaşda görməməyiniz təbii haldır və bu yaşdan sonra gözə nur vermək çətindir. Yaşadığımız hər günə görə tanrıya minnətdar olmalıyıq..."

1930-cu illərdən sonra Tibb institutunda Azərbaycan dilində ilk mühazirə oxuyan alimlərdən biri idi. Sənədlərində əvvəllər soyadı Musabəyli yazılıb, sonradan Musabəyova

olması dövrün tələbi olub, ancaq son fəaliyyət illərində də şəxsi imzalarında əvvəlki soyadını yaşadıb. Arxiv materiallarına əsasən 18 dəfə ölkədən kənarda, xaricdə oftalmologiyaya dair beynəlxalq tədbirlərdə iştirak edib, əksəriyyətində çıxışları olub, təkliflər səsləndirib, ideyalarını hamı bəyənib, fikirləri təsdiqlənib, adı yenilikçi alim kimi hallanıb.

Əksər elmi tədbirlərdə SSRİ nümayəndə heyətinə rəhbərlik ona həvalə olunub. Yaponiya, Vyetnam, İngiltərə, Türkiyə, bir sıra ölkələrə səfər edən nümayəndə heyətinə Moskvanın tapşırığı ilə Ümnisə Musabəyli rəhbərlik edib.

60-cı illərin əvvəlində Ümnisə xanım ayağından zədə alır, xəstəxaya düşür. Moskvada MK-nin klinikasında 85 saylı palatada müalicə olunur. Ümnisə xanımın adına həmin palataya təkcə Azərbaycandan yox, ittifaqın müxtəlif yerlərindən məktublar yazılır, hamı ona şəfa arzulayır. Yazırlar ki, “sizin əvəzinizə mən ölməyə hazıram, təki siz sağalın”. Bu misralar bir neçə məktubun içərisində var. O, insanları sevdiyi kimi, insanlar da onu sevirdi və onun ağır günündə öz məhəbbətini ondan əsirgəmədilər. O xəstə yatdığı illərdə hər gün kefedraya, əməkdaşlarına məktub yazırmış. Bir neçəsi şəxsi fondundadır. Soruşur ki, “kafedranın təmiri başlayıb, necə gedir, divara hansı rəngdə boya vuruldu, avadanlıq indi necə düzülüb, filan qrupda indi mühazirəni kim aparır, dərsi necə keçir, filan tələbə necə, yenə yaxşı oxuyurmu?, ona nəzər yetirin, daha da yaxşı oxusun”. Kafedrada işləyən Ümnisə xanımın tələbəsi olmuş Fəridə xanım hər gələn məktuba diqqətlə yanaşır, suallara təfsilatı ilə cavab yazır və bildirir ki, “professor hər hər şey yaxşı gedir, hamımız sizi gözləyirik”. Onun bütün həyatını peşəsinə bağladığı bu məktublardan bəllidir.

Ümnisə xanım şəfa tapdı, ayağa qalxdı, iş başına döndü. Ancaq bir neçə ildən sonra yenə də yıxılır və həmin yerdən ayağı sınır.

Bu dəfə isə ayağa qalxmaq müşkülə çevrilir. Bir müddət xəstəxana şəraitində yaşamaq məcburiyyətində qalır. Ancaq çarpayı dustağı olmağı ağlına gətirə bilmir. Professor Zəhra Quliyeva danışır ki, "istəmirdi onun yanına kimsə gəlsin. Dəfələrlə cəhd etsək də razı olmadı. Ancaq bir gün özü zəng vurdu ki, "...məndən inciməyin, indi gələ bilərsiniz". Gedib gördük ki, müəlliməmiz həyatla vidalaşıb".

Ümnisə xanım xəstə olanda dəfələrlə onunla telefon əlaqəsi saxladım. Şəxsi fondunu arxivə verməyini xahiş elədim, "çox yaxşı iş görürsünüz, ancaq narahat olmayın, mən hamısını toplayıb, sizə vaxtını deyəcəm, onda gələrsiniz" söylədi. Bir neçə dəfə cəhd eləsəm də "gözləyin"dedi. Əfsuslar ki, biz onun özündən heç nə ala bilmədik. Dünyasını dəyişdi. Arxivin işçisi Səfərov Feyruz alimin evindən qapısı bağlı olduğu üçün hər dəfə əliboş döndü. Ümnisə xanımın yeganə qızı Moskvada yaşadığından, onun yaşadığı mənzil qıfıllanmışdı...

Keçmiş 26-lar rayonunun katibi (indiki Səbael) həmin ünvana order verir və Ümnisə xanımın bütün əmlakı, əlyazmaları, kitabları, bir sözlə, otaqda olan hər şey küçəyə tökülür, qalaq-qalaq sənədlər ərazinin xadiməsi tərəfindən zibil bilib yandırılır. Biz, arxivin əməkdaşları bu məsələdən gec xəbər tutduq.

Ümnisə xanım haqqında biz digər mənbələrdən sənədləri topladıq. Uzun illər səhiyyə nazirinin müavini işləmiş, gözəl həkim olan Bala Məcidovdan xeyli sənəd əldə etdik. Səhiyyə nazirliyinin arxivində olan materialları götürdük, kafedradan kömək etdilər. Nəhayət, Ümnisə xanımın avtobioqrafiyası, həyatı, elmi, ictimai, siyasi fəalaiyyəti ilə bağlı 101 qovluq yarada bildik. Əgər vaxtilə arxivə zəng olunsaydı, biz onun evindən çox dəyərli məlumatları götürmüş olardıq. Çox heyf ki, Ümnisə xanımın mənzilinə köçənlər bizə xəbər vermədilər ki, alimin irsini arxivə köçürək...

Ümnisə xanımın şəxsi fondu sübut edir ki, o çox nadir şəxsiyyətlərdən biri olub. Bu Azərbaycanlı qadın dünyada ölkəsini fəxrlə təmsil edib və hər zaman da əməli fəaliyyəti, zehni təfəkkürü ilə Azərbaycana uğurlar gətirib. Belə insanları tarix unuda bilməz, belə simalar, millət naminə düşünənlər tarixdə əbədi yaşayacaq.

**Respublika Dövlət Elm və Texnika Sənədləri Arxivinin direktoru Şahsuvar Haşımov**

# MƏTBUAT SƏHİFƏLƏRİ

# İŞIQ SÖZÜ VƏ IŞIĞIN ÖZÜ, YAXUD ÜMNISƏ XANIM MUSABƏYLININ HƏYATINDAN FRAQMENTLƏR

"Səmada hər kəsin payına bir ulduz yanır", - deyirlər. Yəqin parlaq yanan ulduzlar o kəslərin payına düşür ki, elə onların həyatı da bu ulduzların işığına bənzəyir. Zənnimcə, parlaq işıqlı zöhrənin - Veneranın işığı o şəxslərin payına düşür ki, onlar elm və irfan sahibləri mərtəbəsini fəth etmiş şəxslərdir.

Zamanın dolanbac yollarından məhz belələrinin həyat yolu keçir, illərin zirvələrini adlayır, ömürdən-ömrə pay olmaqla əbədiyyətə qovuşur.

Belələrinin ömrü heç şübhəsiz dünyanın axırınacan davam edəcəkdir. Haqqında danışacağım Ümnisə xanım Musabəyli də belə bir ömür yaşayıb.

Tanıyanlar deyirlər ki, Ümnisə xanım mənən zəngin, təbiətcə kövrək və həlim, işgüzar bir insan olmuşdur. Ömrünü elə yaşamışdır ki, tanıyanların, müasirlərin xatirələrində dərin bir iz buraxmış, fəth etdiyi mənəvi üstünlük mərtəbəsi isə həmişə əlçatmaz görünmüşdür. Axar - baxarlı, zümrüd meşələri, dumduru göz yaşı kimi sərin bulaqları olan Qəbələdə əsrin əvvəllərində, 1902-ci ildə Süleyman kişinin ailəsində bir qız dünyaya gəldi. Hələ onda bir kimsə bilməzdi ki, bu qız əsrin ortalarında nəinki Azərbaycanın, bütöv keçmiş Sovet İttifaqının ən məşhur həkimlərindən biri olacaqdır.

Ümnisə xanım Musabəyli Allahdan ona verilmiş təbii qabiliyyəti, istedadı və hədsiz zəhmətsevərliyi, bacarığı ilə qarşısına çıxan maneələri dəf edərək elmin hələ açılmamış sirlərinə, ümumbəşər üçün qaranlıq olan dərinliklərinə doğru dönmədən əzmlə addımlamışdır. 24 yaşında ikən Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini bitirmiş, həmin sahədə ilk ixtisaslı həkimlərdən biri kimi fəaliyyətə başlamışdır. Az

vaxtda assistentlikdən Nərimanov adına Tibb institutunun professoru elmi mərtəbəsinədək yüksəlmişdir.

Ü.Musabəyli tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyasını 1936-cı ildə müdafiə etmiş, ikinci cahan müharibəsində göz cərrahı kimi böyük praktik iş aparmış, Azərbaycan elmini Sovetlər İttifaqında, habelə xaricdə nüfuzlu bir alim kimi dəfələrlə təmsil etmiş, elmi simpoziumlarda, konfranslarda dəyərli və qiymətli mühazirələri rəğbətlə qarşılanmışdır. Həmin dövrün ədəbiyyatlarında, zamanın mətbuatında böyük həkimin elmi fikirləri nüfuz sahibi olan bir alimin tezisləri kimi qəbul olunmaqla, həmin istiqamətlərdə elmi işlər aparıldığı göstərilir. 1960-cı il Azərbaycan Tibb jurnalının dördüncü sayında o vaxt Azərbaycan Oftalmoloji Cəmiyyətinin sədri olan Ümnisə xanım yazırdı: “Azərbaycanda geniş inkişaf yoluna çıxmış oftalmologiya elmi hazırda kifayət qədər ixtisaslı elmi kadrlara malikdir. Buna misal olaraq, respublika oftalmoloqlarının ölkəmizin (Moskva, Leninqrad, Xarkov, Odessa) elmi tədqiqat institutlarının elmi sessiyalarında iştirak etmələrini göstərmək olar”.

Mən həmin sitatdan belə bir nəticə çıxarardım. Azərbaycan Respublikasında yüksək ixtisaslı oftalmoloq kadrlarının yetişməsində Ü.Musabəylinin əvəzsiz rolu olmuş, onun elmi yaradıcılığı xüsusi elmi tədqiqat institutu xarakteri daşımışdır.

Xarici ölkələrdə çağırılan qurultay və sessiyalarda iştirak edən alimlərin böyük əksəriyyəti elə onun şagirdləri olmuşdur. Onun özünün dediyi kimi respublikamızın oftalmoloqları elmi-tədqiqat işləri apararaq əldə etdikləri məlumatlara əsasən gözün müayinələrinin və onun bəzi xəstəlikləri zamanı müalicəsinin müxtəlif üsullarını təklif və praktikada tətbiq etmişlər. Bütün bunlar göstərir ki, məşhur həkim həyatını bütövlükdə zülməti yarmağa, insanlara işıq paylamağa həsr etmişdir. Keçmiş Sovetlər İttifaqında və o cümlədən, Azərbaycanda oftalmologiya elminin əldə etdiyi nailiyyətlər

müəyyən mənada elə Ümnisə xanım Musabəylinin nailiyyətidir.

Ümnisə xanım elm fədaisi kimi iki yüzdən çox elmi əsərin müəllifidir. Onun "Sovet hakimiyyəti illərində Azərbaycanda oftalmologiyanın nailiyyətləri", "Göz xəstəlikləri", "Refraksiya, akkomodasiya və optik şüşələrin təyini", "Zabolevaniye qlaz pri patoloqii beremennosti", "Na afro-aziatskix oftalmoloqiçeskix konqressax" kimi əsərləri bu gün də əhəmiyyətini itirməmiş, dəyərli elmi mənbə, qiymətli tədris vəsaitləri kimi həm göz xəstəlikləri üzrə mütəxəssislərin, həm də kütləvi oxucuların stolüstü kitabları olmuşdur.

Azərbaycan Sovet Ensiklopediyasının yeddinci cildində onun haqqında verilmiş kiçik elmi məqalədə belə yazılıb: "Tədqiqatı əsasən traxoma, qlaukoma xəstəliklərinə, görmə sümüyünün patologiyasına" və s. həsr edilmişdir... Ümumdünya oftalmoloqlar (Brüssel 1958), Afrika-Asiya ölkələri göz həkimlərinin birinci (Qahirə 1958), ikinci (Tunis 1960), üçüncü (İstanbul 1964), dördüncü (Beyrut 1968) konqreslərinin iştirakçısı, Sovet Sülhü müdafiə Komitəsinin (1963-1974) üzvü, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri (1950-1974) olmuşdur. SSRİ Ali Sovetinə (V-VI çağırış), Azərbaycan SSR Ali Sovetinə (IV çağırış) deputat seçilmişdir.

Bütün bu faktlar qüvvətli alimin dünya elm aləmindəki rolunu və yerini aydın göstərir. Ümnisə xanım bu böyük ictimai və elmi fəaliyyəti ilə sübut etmişdir ki, bir ömürdə bir neçə ömür yaşamağa insanın gücü və qüdrəti çata bilər. Ümnisə xanımın doğulduğu Qəbələdə onun xatirəsi əziz tutulur. Vaxtilə onun adı və ünvanı sayılan yerlər bu gün də xatirə lövhələridir, həmyerlilərinin yaddaşlarında. Elə bircə fakta söykənək ki, "inqilaba qədər bütün Azərbaycan üzrə yalnız Bakıda şəhər xəstəxanasının 40 çarpayılıq bir göz xəstəlikləri şöbəsi var idi. Bu şöbə hələ 1922-ci ildə yenidən təşkil edilərək Oftalmologiya institutunun yerləşdiyi binada 130 çarpayılıq müstəqil xəstəxanaya çevrilib. Sonralar göz

xəstəliklərinə tam xidmət göstərə bilən müvafiq miqdarda tibbi kadrlarla təmin edilmiş müalicə-profilaktika müəssisələrinin geniş şəbəkəsi yaradılıb". Bu sözləri Ümnisə xanım inqilabdan sonrakı ilk illərdəki Azərbaycan haqqında deyirdi. Bütün bunlar göstərir ki, onun bütöv həyatı böyük elmi potensiala malik olan bir alimin zəngin elmi fəaliyyəti olmuşdur.

Ü.Musabəylinin elmi və ictimai fəaliyyəti yüksək qiymətləndirilimiş, orden və medallarla təltif olunmuş, hələ 1957-ci ildə ona əməkdar elm xadimi fəxri adı verilmişdir.

Onun haqqında yazılmış nekroloqu (böyük alim 1974-cü ildə vəfat etmişdir) respublikanın dövlət başçıları və elm aləminin korifeyləri imzalamışlar. Və həmin imzalardan birincisi Azərbaycan elmi fikrinin inkişafında böyük hami kimi çıxış edən H.Əliyevindir. 1967-ci ildən respublika Elmlər Akademiyasının müxbir üzvü seçilmiş Ümnisə xanım Musabəylinin tələbələri onun elmi yaradıcılığını bu gün də tədqiqata cəlb etməklə ondan öyrənir və Azərbaycan elminin göz xəstəlikləri üzrə müxtəlif istiqamətlərində tədqiqatlarını davam etdirirlər.

Kaktuslar tikanlı olur. Bu tikanların xəncər uclarında bu ekzotik bitki ecazkar gül yetirə bilir. Elmi araşdırmalar da buna bənzəyir. Böyük alim, oftalmologiya elmində elə nailiyyətlərə nail olmuşdur ki, bu uğurları kaktusların üstündə açılmış parlaq güllərə bənzətmək olar. Peyğəmbər əleyhissəlamın belə bir kəlamı var: O, deyib ki, "əvvəl peyğəmbərlər gəldi, sonra şairlər". Mənə qalsaydı üçüncü dəstəyə loğmanlar üçün qərar verərdim. Bəli, həyatımızda insanların ömrü, insanların taleyi keşiyində dayananların, insanların alın yazısını qoruyanların buna tam haqqı olardı. Ümnisə xanım Süleyman qızı Musabəyli Azərbaycanın parlaq bir ziyalısı, qüdrətli alimi və nəcib vətəndaşı kimi sıralarımızda bu gün də fəxri yer tutur. Arzumuz onun əslində yaşayan və daim

yaşayacaq xatirəsinin əbədiləşdirilməsi, nəsillərin mənəvi tərbiyəsində əbədi örnəyə çevrilməsidir.

2002-ci ildə Ümnisə Musabəylinin 100 illik yubileyinə həsr edilmiş elmi konfrans keçirilib. Konfransın məcmuəsi ayrıca kitab kimi buraxılıb. Mətbuatda müxtəlif xatirə yazıları dərc edilib.

**jurnalist Ramin Məmmədov**

## YAD ET MƏNİ!

*Əziz müəlliməm oftalmoloq, akademik*
*Ümnisə xanım Musabəyliyə*

Çoxdandır ki, görməyirəm insanların üzlərini,
Eşitmirəm, ürəkaçan, ruh oxşayan sözlərini!
Unutmuşam lalələrin, nərgizlərin xoş rəngini,
Unutmuşam dərə boyu axan çayın ahəngini!

Unutmuşam dostlarımı, dostlarımın adını da,
Unutmuşam, unutmuşam təamların dadını da!
Bir qaranlıq, işıq düşməz, dar bir yerdə tutdum qərar,
Üzümü yuyur yağışlar, başımı darayır rüzgar.

Duymayıram ətrini bənövşənin, qızılgülün,
Eşitmirəm cəh-cəh vuran naləsini bir bülbülün!
Ah! Bu yuxu nə ağırdır, eşitmirəm bir səs-səmir,
"Qalx, bu ağır yuxudan sən" heç kəs mənə demir, demir!

Bu diyarda mənim kimi, yuxu alıb yatan çoxdur,
Əbədilik ümmanına qərq oluban, batan çoxdur!
Bir çoxları ərimişlər, bədənləri külə dönmüş,
Dodaqları lalələrə, yanaqları gülə dönmüş!

Qəbristanlıq kainatın ən pərişan guşəsidir,
Hönkürtülər, hıçqırıqlar bu yerlərin nəğməsidir!
Ziyarətə gələn çoxdur, amma bir an gülməz üzlər,
Ağlayarlar, yaş yerinə al-qan ilə dolar gözlər!

Biz hamımız bu yerlərdə, bir yastığa baş qoyarıq,
Nə işimiz, nə gücümüz, nə daş üstə daş qoyarıq,
Bizim üçün fərqi yoxdur, günəş sönüb coşsa tufan,
Yəqin ki, çaylar tərs axıb, sökülsə dağlar binadan!

Gözlərimiz görməz olmuş, qulağımız eşitməzdir,
Əllərimiz tutmaz olmuş, ayağımız yeriməzdir!
Varlığımız dönmüş heçə, mümkün deyil görünməsi,
Okeanın damlasıyıq, kainatın bir hissəsi!

Bir zamanlar od alardım, günəşin al yanağından,
Min həvəslə ilhamlanıb ulduzların növrağından!
Öz əlimlə parça-parça nur payladım nursuzlara,
Əfsus indi günəş hara, işıq hara və mən hara!

Açıb bükülsə burda gül, bil ki, mənim nəfəsimdir,
Yarpaqların pıçıltısı söhbətimdir, həm səsimdir!
Aydın səma gülüşümdür, tufan mənim qəzəbimdir,
Böylə təsəvvür et məni! Xəyal kimi bu bəsimdir!

Biz bilmərik payızmıdır, qışdır, yoxsa bahar gəlir,
Bir işıqlı nöqtə belə görmək bizə naçar gəlir!
Aman allah! Yoxmu çarə, əbədidir bu yer mənə,
Yalvarıram məni bilən hər bir kəsə dönə-dönə!

Eşidəndə insanlardan ürək açan şirin sözlər,
Xumarlanıb məclislərdə, süzüləndə qara gözlər!
Məst etdikcə çahargahın, muğamatın səsi məni,
Mərhəmətlə, ehtiramla bir anlığa yad et məni!

Sədaqətdən, etibardan, məhəbbətdən söz düşəndə,
Bahar çağı min həvəslə bülbül güllə görüşəndə!
Dost busəsi oxşadıqca nəvazişlə gül çöhrəni,
Mərhəmətlə, ehtiramla bir anlığa yad et məni!

Keçmə qəbrim önündən Sən saymazyana, dayan, dur,
Əgər ayaq saxlamasan qızıl qan axar yaramdan!
Vüqarımı yadına sal, cəlb eləyim diqqətini
Mərhəmətlə, ehtiramla bir anlığa yad et məni!

Yad et bahar axşamında, qışın soyuq çiləsində,
Qızıl payız günlərində, yazın sərin gecəsində!
Dərdlərimdən kədərlənib, yaş tutmasın gözlərini,
Yalnız bir anlığa, bir anlığa yad et məni!

Yad et məni albalılar, şaftalılar gül açanda,
Yad et məni, yad et məni qaranquşlar dil açanda!
Hiss edərəm bunu bilin, nə qədər də ağır yatsam,
Çünki ruhum hey dolanır kainatı aram-aram!

Əziz vətən-əziz vətən torpağında canım qalsın!
Çaylarında, göllərində damla-damla qanım qalsın!
Əfv et məni! Rəva bil ki, o müqəddəs daşlarında,
Varlığımdam bir xatirə adım qalsın, sanım qalsın!

**Rəfiqə Axundova**
**1974-cü il**

## ŞƏFALI ƏLLƏR

Uşaqlar anadan bəzən niyə kor doğulurlar?

Yüzlərlə ananı düşündürən bu sual, Azərbaycan Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor Ümnisə Musabəyovanı da narahat edirdi. Axı Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda bu problemlə bilavasitə o məşğul olur, bu xəstəliyin vaxtında qarşısını ala biləcək vasitələr axtarırdı. Bir neçə ilin axtarışları xəstəliyin yalnız törəmə səbəblərini müəyyən etməyə imkan verdi: ilk hamiləlik dövründə ana bəzən lazımi yeməklərlə qidalanmır. Orqanizmdə vitamin azalır. Əlbəttə, bu hal ana bətnində olan uşağın inkişafına pis təsir edir. Uşağın görmə üzvlərində lazımi maddələr çatışmır, buynuz qişasının bulanması halları baş verir və nəticədə o, kor olur. Hamilə qadının orqanizmində baş verən müxtəlif zəhərlənmələr və maddələr mübadiləsinin pozulması da uşağın kor doğulmasına səbəb olur. İndicə əməliyyat olunacaq bir yaşlı Rəhilə də belə bir patoloji prosesin qurbanı olmuşdur.

...Professor cərrahiyyə otağına yollandı. Burada tam sakitlik idi. Yalnız xəstənin xırıltısı eşidilirdi. Professor onu diqqətlə nəzərdən keçirib nəbzini yoxladı, yod sürtülmüş göz qapaqlarını qaldırdı. Gözün bəbəyi nazik pərdə ilə örtülmüşdür. Bu professorun diqqətini cəlb etdi. 36 illik təcrübəsində o, daha ağır xəstələrə rast gəlmişdi. İnsan gözü üzərində üç mindən çox mürəkkəb cərrahiyyə əməliyyatı aparmışdı. Yüzlərlə körpəni qaranlıqlar aləmindən qopararaq işıqlı həyata qaytarmışdı. Lakin hər xəstənin öz yeri, hər əməliyyatın öz xüsusiyyəti vardır. Odur ki, həmişə ehtiyat edirdi. Zəif uşağın gözləri tutulmuşdu. Bulanmış büllurdan əlavə gözdə başqa dəyişikliklər də vardı. Əməliyyat qorxulu idi. Qana bulaşan parlaq alətlər tez-tez dəyişdikcə təhlükə də sovuşub gedirdi. Cərrahiyyə otağından çıxanda Musabəyova artıq özündə bir yüngüllük hiss edirdi.

1956-cı il professorun həyatında ən əlamətdar il oldu. Çətin elmi axtarışlar hədər getmədi. Hamiləliyin düzgün getməməsinin gözdə ilkin əlamətləri aşkar edildi. O öyrəndi ki, gənc qadınların qan təzyiqi artdığı zaman gözdə müəyyən dəyişikliklər aşkar edilə bilər. Bu növ patoloji hadisə hamiləliyin nəticəsini qabaqcadan müəyyənləşdirməyə imkan verirdi.

Hamiləliyin düzgün getməməsinin ilk əlamətləri göz dibində əmələ gəldiyi üçün oftalmoloqların müayinəsinin əhəmiyyəti öyrənildi. Aparılan təcrübələr ilk dəyişiklikləri aşkar etməyə imkan verdi və beləliklə, müxtəlif müalicə üsulları nəticəsində müəyyən fazada belə halların ləğvi üçün şərait yarandı. Çox çəkmədən Musabəyova "Hamiləliyin patologiyasında göz xəstəlikləri" adlı əsərini tamamladı. Polşa professoru Milanovski, yapon professoru Akira Hakadima, belçikalı göz həkimi Paul Lö Krann, SSRİ Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi Merkulov və başqaları bu əsəri yüksək qiymətləndirdilər.

Nədənsə bu böyük iş professora çox sadə görünürdü. Axı həyatda onun öz məqsədi vardı. Xəstələrə şəfa vermək hələ onun gənclik illərinin idealı idi. O, bu məqsədlə Tibb institituna girmişdi. Bu məqsədlə namizədlik, sonra da doktorluq dissertasiyası müdafiə etmişdi. Gözün fizioligiyası və patologiyasına aid 80 elmi əsəri də bu məqsədlə yazmışdı. Tibb institutunun tələbələri üçün hazırladığı "Göz xəstəliklərinin istilahları", "Hipertoniya xəstəliyində göz dibində əmələ gələn dəyişikliklər", "Büllurun çıxıqları və onların müalicəsi", ingilis və ərəb dillərində "Traxomalı xəstələrin gözlərində cərrahiyyə əməliyyatının xüsusiyyətləri" və sair əsərlər meydana gələrkən, tibb elmi sahəsində xidmətlərinə görə əməkdar elm xadimi fəxri adına layiq görülərkən, 2 dəfə SSRİ Ali Sovetinə deputat seçilərkən bunu vətəndaşlıq borcu hesab etdi.

Professor Musabəyovanın respublikamızda gənc həkimlərin yetişdirilməsi sahəsində də xidmətləri böyükdür. Elmi fəaliyyəti müddətində 7 tibb elmləri namizədi və bir tibb elmləri doktoru hazırlamışdır.

Hazırda kafedrada oftalmologiyanın bir sıra sahələrində böyük tədqiqat işləri görülür. Bunlardan biri də "Qanqleron" preparatının təkmilləşdirilməsiidr. Bildiyimiz kimi, son illər müalicə məqsədi ilə çoxlu dərmanlar tətbiq olunur. Bunlardan bir çoxu sinirlərə müsbət təsir göstərməklə, orqanizmdəki ağrını da rədd edir, ürəyin fəaliyyətini artırır, beyin damarlarını genişləndirir. Beləliklə də insan orqanizmində gedən ağır proseslərə fəal təsir göstərir. Yeni tapılan "Qanqleron" preparatı da bu qəbildəndir. Lakin klinikanın əməkdaşları bu preparatın gözə təsirini öyrənərkən, onun mənfi xüsusiyyətlərini də aşkar etmişlər. Bir çox illərin tədqiqatı təsdiq etmişdir ki, bu preparat gözün təzyiqini artırır və buynuz qişasının bulanmasına səbəb olur. Zaqafqaziya fizioloq, farmokoloq və biokimyaçılarının Üçüncü qurultayında bu haqda məruzə edən Ümnisə Musabəyova və onun peşə dostları hazırda "Qanqleron" preparatındakı mənfilikləri ləğv etmək üçün geniş dairədə eksperimentlər aparırlar.

Klinikada professor Ümnisə Musabəyovanın rəhbərliyi altında aparılan elmi-tədqiqat axtarışlarının hansının müsbət nəticə verib-verməyəcəyini qabaqcadan demək çətindir. Lakin bu axtarışlar arxasında insanın sağlamlığı keşiyində duran nəcib insanların fədakar əməyi görünür.

**Süleyman Paşayev**
**Elm və həyat jurnalı, 1963-cü il, Nömrə 1.**

## “GÖRKƏMLİ ALİM, SEVİLƏN İNSAN”

Tarixin müxtəlif dövrlərində xalq üzünü daim vaxtın yaddaşında iz qoymuş parlaq şəxsiyyətlərə tutur və özünün sabaha uzanan yolunu onların işıqlı, saf, parlaq əməllərində aydınlaşdırır. Məşhur alim, böyük ziyalı, əsl müəllim, respublikanın əməkdar elm xadimi tibb elmləri doktoru, professor Ümnisə Musabəyova xatırlanarkən həm də onu zirvəyə ucalan insan adlandırırlar.

Çünki o, insanda müxtəlif əxlaqi keyfiyyətləri, istedadı, qabiliyyəti, mərdliyi, təmizliyi, bütövlüyü həmişə yüksək qiymətləndirirdi. Ümnisə Musabəyova yaradıcı münasibəti, davranışı, saf mənəviyyatı ilə yaşadığı zəmanədə də, müasir dövrümüzdə də hər kəsə nümunədir.

Böyük alim 1902-ci ildə Azərbaycanda qulluqçu ailəsində anadan olmuşdur. 1926-cı ildə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsini bitirdikdən sonra elə orada göz xəstəlikləri kafedrasında ordinator saxlanılmışdır. 1930-cu ildə kafedranın assistenti, 1932-ci ildə dosenti seçilmişdir. 1935-ci ildə namizədlik, 1936-cı ildə isə “Büllurun qazanılma çıxıqlarının patologiyasına dair” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1943-cü ildə professor seçilmişdir.

Ümnisə xanım 1945-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Tibb İnstitutunun göz xəstəlikləri kafedrasına rəhbərlik etmişdir.

O, Böyük Vətən müharibəsi illərində kafedrada işləməklə yanaşı, Bakı şəhərində neyrocərrahiyyə hospitalında məsləhətçi kimi fəaliyyət göstərmişdi. Alimin elmi fəaliyyəti nəzəri və kliniki oftalmologiyanın mühüm məsələlərinə həsr olunmuşdur. Onun tədqiqatlarına Azərbaycan üçün vacib olan problem - traxoma xəstəliyi ilə mübarizə də daxil idi. Bu müayinələr traxomanın diaqnostikası, klinikası və müalicəsi ilə əlaqədar idi.

Ümnisə Musabəyova orqanizmdə müxtəlif xəstəliklərin yaranması nəticəsində gözdə baş verən dəyişikliklərlə maraqlanaraq, malyariya, hipertoniya və hamiləliyin patologiyası

zamanı görmə qabiliyyətindəki dəyişiklikləri, zədələnmələri tədqiq edib öyrənmişdi. Onun bir sıra müayinələri qlaukomanın klinikası  və müalicəsi görmə sinirinin xəstəliklərinə həsr olunmuşdur.

Professor görmənin fiziologiyasına aid olan məsələlərlə, xüsusilə akkomodasiyanın öyrənilməsi ilə də məşğul olmuşdur. Qeyd etmək lazımdır ki, bu müayinələr akkomodasiyanın öyrənilməsində yeni istiqamət yaratmışdır.

Ümnisə Musabəyova respublika oftalmoloq elmi kadrlarının hazırlanmasında böyük rol oynamışdır. Onun rəhbərliyi altında iki namizədlik, iki doktorluq dissertasiyası müdafiə edilmişdir. Sovet oftalmoloji nəşrində hamiləlik patalogiyasına dair ilk monoqrafiya - "Hamiləlik patologiyasında göz xəstəlikləri" onun qələminə məxsusdur.

Ümnisə Musəbəyova iki yüzdən çox elmi əsərin müəllifidir, bunlardan on dördü xaricdə çıxan oftalmoloji ədəbiyyatlarda nəşr olunmuşdur. Azərbaycan dilində iki dərsliyin, latın- Azərbaycan dilində terminalogiyanın və Azərbaycanda traxomanın diaqnostikası, müalicəsi və profilaktikasına  dair metodik tövsiyyənin müəllifidir. Bundan başqa o "Göz almasının quruluşu, refraksiyası və akkomodasiya" mövzusunda filmin ssenarisini yazmış və elmi məsləhətçisi olmuşdur.

Məhşur sovet oftalmoloqu kimi 1975-ci ildən "Vestnik oftalmoloqi" jurnalının redaksiya şurasının, 1955-ci ildən Azərbaycan Tibb jurnalının, Azərbaycan Sovet Ensiklopediyasının redaksiya heyətinin və keçmiş SSRİ Səhiyyə nazirliyi Elmi Şurasının üzvü, 1957-ci ildən isə Azərbaycan Oftalmoloqlar cəmiyyəti idarə heyətinin sədri və Ümumittifaq Oftalmoloqlar cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur.

Professor Ümnisə Musabəyova dəfələrlə xarici ölkələrdə müxtəlif oftalmoloji konqreslərdə nümayəndə kimi iştirak etmişdir. O, 1956, 1960, 1964, 1968, 1972- ci illərdə Avroasiya konqreslərində sovet nümayəndə heyətinin rəhbəri olmuş, traxoma, qlaukoma, görmə siniri patologiyasına dair məruzələr etmişdir.

Ümnisə Musəbəyova 1960-cı ildən Avroasiya oftalmoloji konqreslərinin daimi təşkilat komitəsinin üzvü idi. O, bu təşkilata 1964-cü ildə İstanbulda, 1968-ci ildə Beyrutda, 1972 - ci ildə Tokioda seçilmişdir.

Ümnisə Musəbəyova ictimai xadim kimi də zəngin bioqrafiyaya malik idi. O, 1955-ci ildə Sovet Sülhü Müdafiə komitəsinin üzvü kimi bir çox xarici ölkələrə səfər etmişdir. 1961-ci ildə Yaponiyada nüvə silahının qadağan olunması ilə bağlı Beynəlxalq konfransın iştirakçısı olmuşdur. Dostluq cəmiyyətinin xətti ilə Böyük Britaniyada, Norveçdə, Fransada, Kanadada mədəniyyət və incəsənət xadimlərinin dekadasında iştirak etmişdir.

Ü.Musabəyova V və VI çağırış SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. Onun iştirakı və elmi fəaliyyəti dəfələrlə dövlət mükafatlarına layiq görülmüşdür. " Lenin ordeni", "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə", "Böyük Vətən müharibəsində fədakar əməyə görə", "Əməkdə fərqləndiyinə görə" və s. təltiflər sahibi idi.

1957-ci ildə ona əməkdar elm xadimi adı verilmişdir.

1967-ci ildə isə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Tibb elminin korifeylərindən biri Ü. Musabəyova öz amalına, əqidəsinə fanatik dərəcədə sadiq qalan, qarşıya qoyduğu məqsədinə nail olmaq üçün inadla, axıradək mübarizə aparan, rəhbərlik etdiyi kollektivi lazımi məqamda istiqamətləndirməyi bacaran təşkilatçı idi.

Bu il Ü.Musabəyovanın anadan olmasının 100 illiyidir. Görkəmli oftalmoloq alim, ictimai xadim, öz bilik və təcrübəsini xalqın rifahına sərf edən Ümnisə xanım Musabəyovanın xatirəsi onu tanıyanların, yetirmələrinin, tibb ictimaiyyətinin qəlbində daimi yaşayacaqdır.

**Professor Zəhra Quliyeva**
**Professor Paşa Qəlbinur**
**Azərbaycan qəzeti, 30 oktyabr 2002**.

## MUSABƏYOV OCAĞI
*(Poema)*

*Göz cərrahı, professor Ümnisə Musabəyovanın əziz xatirəsinə*

Budur həyat yollarında
Gedir mənim qəhrəmanım,
Addımlayır yavaş-yavaş.
Sirri çoxdur bu həyatın,
Kim çıxarıb ki, ondan baş?!
Gedir, gedir…
Yola düşüb bir kor gedir,
Peşimandır, dilxor gedir.

Qulağında ürəyində gizlətdiyi
Bir nəğmənin zümzüməsi,
Tək günahı gözlərinin görməməsi.
Gedir, gedir...
Yollar ona zülm eləyir,
O  da, yola zülm eləyir.

Toxunduqca keçənlərə
Biri sağa itəliyir, biri sola itəliyir.
Gedir, gedir, əlində də əl ağacı
Çiynindəsə bu dünyanın
Dağdan ağır ehtiyacı.
Yola düşüb bir kor gedir,

Gözlərində nur yoxsa da,
Nurdur bəsirət dünyası.
Gedir, gedir, görən nədir
Yaradandan təmənnası?!
Bir qədər də kövrəkləşib,

Bir qədər də həssaslaşıb
İncədən incə duyğusu,
Gedir, gedir,
Onun da var öz əzabı,
Onun da var öz qayğısı.

Niskili çox, kədəri çox
Yoldan keçən baxır ona,
Ah, biganə baxışlardan xəbəri yox.
Biri görür, qulaq çəkir,
Biri görür, lağa qoyur.
Kor düşünür: “Aman allah
Qazmışdılar bax bu yeri,
Sol tərəfdə bir quyu var”...

Addımını bir-bir sayır.
Yolda qalıb tapdandıqca
Ona baxıb gülüşürlər,
Korluğunu qaxınc edib,
Arsız-arsız irişirlər.

İnsan taleyin quludur,
Qismətindən qaça bilməz
Fələk bağlayan qapını
Kimsə vurub aça bilməz.

Neyləsin ki, gözü görmür
Gözlülər var gözsüzlərə,
Göz versə də işıq vermir.

Mənasız söz nəyə gərək
İşıqsız göz nəyə gərək
Zülüm zillət keçiribdir
Bu dünyanı caynağına,

Gör kimləri kötəkləyir
Fələk qatıb qabağına...

Asta-asta bir kör gedir
Ağacını döyə-döyə,
Gah dolaşır, gah ilişir
Səkilərə dəyə-dəyə.

Gedir, gedir,
Ürəyində öz ağrısı
Kimsə onu söyüb qaçır,
Bir yandan da söz ağrısı.
Ehtiyacı qalaq-qalaq,
Eh onlara baş vuraraq
Gedir yazıq, yazıq...

Ürəyində gizlətdiyi
Nəğmə susur,
Baş qaldırır bir hıçqırıq,
Sıxıntılar süzür onu.
Gedir, gedir,
Yol yoldaşı qorxu, təlaş.
Yolda yıxılmasın deyə
O yeriyir yavaş-yavaş.

Aman Allah,
Bu anlarda nələr gəlir
Gözlərinin qabağına?!
Xəyalında gedir yenə,
Özünün qəm otağına.
Gedir, gedir tək başına,
Birdən başı zərblə dəyir
Yolda duran bir maşına.

Pəncərəni açıb hirslə,
Boynu yoğun bir bəxtəvər
Qışqıraraq onu söyür,
Söyüşündən ləzzət alıb, özün öyür.
“Yoldan çıx ə, balqabaq!
Maşın səndən bahadır.
Bilmirəm o əlində ağacdır, nə soxadır?
Andırını dala çək, danaboyun boz eşşək”!
Xa-xa, xa-xa, xa-xa
Qəhqəhə ilə qaqqıldayır
Çəpik vurub şaqqıldayır”.
“Amma yaman yağladım ha,
Sinəsini dağladım ha”.

Dağladığı həmin sinə
Hardan bilsin, necə duysun
Başdan-başa özü dağdır,
Yazıq korun faciəsi
Bu mühitdə yaşamaqdır.

Yola düşüb bir kor gedir,
Axşamacan işlərini görməlidir.
Onun da var alacağı,
Onun da var verəcəyi,
Almalısın almalıdır,
Verməlisin verməlidir.

Gedir, gedir,
“Şükür allah”,  deyə-deyə.
Əl üzübdür insanlardan,
Öz qəlbini açıb göyə.

Göz görmürsə nə eybi var,
Bu sadəcə əlillikdir.

Vay o gündən qəlb kor ola,
Bax bu korluq, zəlillikdir.
Gördüyünə göz yumanlar
Korluq deyil, bəs bu nədir?!
Kor deyirəm o kəsə ki,
Ətrafına biganədir.

Korlar var ki,
Görənlərdən yaxşı görür,
Yaradanın xilqətinə
Bəzi, bəzi "sağlamlar"dan
Daha gözəl dəyər verir.

Budur, həyat yollarında
Gedir mənim qəhrəmanım.
Bütün günü iş dalınca
Ora bura gedə-gedə
Üzüldü o, yoruldu o.
Axşam evə qayıdanda
Gəlib yenə qələminə sarıldı o.

Dərddən yazdı, qəmdən yazdı,
İlahidən nur istəyib,
Gözdən yazdı, şəmdən yazdı:
"Şimşəklər oynadı, ildırım çaxdı,
Susub xəyallara dalanda gözlər.
Zülmətə qərq edib, könlümü sıxdı,
Bəxtimi daşlara çalanda gözlər.

Minnətlər görəndə, kömək dalında,
Ağladım bəxtimin göynək dalında.
Utanıb, gizlətdim, eynək dalında,
Gözümü gözlərdən salanda gözlər.

Dünyanı doyunca gəzə bilmədim,
Vurulmaq nə imiş gözə, bilmədim.
Verdiyi dərdlərə dözə bilmədim,
Ehtiyac içində qalanda gözlər.

Bir işıq kəşf edib, könlümdə gördüm.
Ölməzlik yaşayır ölümdə, gördüm.
Möcüzə var imiş əlimdə, gördüm.
Bir zaman əllərim olanda gözlər.

Gözlərim göz deyib, haray qopardı,
Təkcə gözlərimi alsa nə vardı,
Ömürlük nəşəmi yuyub apardı
Bulud tək boşalıb, dolanda gözlər"...

Zaman çətin, dövran çətin...
O özünə ümüd verib:
Dözməlisən, dedi, Mətin!

Dizlərini yerə qoyub dua etdi.
Əllərini göyə açdı.
Mələklərin qanadında
Uçdu Mətin, göyə uçdu.

Yaradana səcdə qılıb, dua etdi:
"Mən gəlmişəm qonaq, yerdən
Günah dolu nahaq yerdən.
Ey İlahi, sən yox yerdən
Mənə işıq əta elə.

Doğulmuşdum gözü qara,
İstəyənin üzü qara
Mən bu halda gedim hara?
Mənə işıq əta elə.

Alçalmayım şər yanında
Durmuşam müstər, yanında.
Görmürsən məgər yanımda?
Mənə işıq əta elə.

Zülüm yetsin nəhayətə,
Bir gün çıxıb səyahətə,
Gedim çatım səadətə,
Mənə işıq əta elə.

Görüm quşlar necə uçur?
Gül-çiçəklər necə açır?
Nur zülmətdən necə qaçır?
Mənə işıq əta elə.
Qışa bənzər bahar kimi,
Baxmasınlar naçar kimi,
Qoy çıxmasın israr kimi,
Mənə işıq əta elə.

Yaşamağa ay qalıbsa,
Günlərimi say, qalıbsa
Yox yerdən bir pay qalıbsa,
Mənə işıq əta elə...

Tanrı ona unutdurdu
Az da olsa nisgilini.
Dözüm verdi
Çəkmək üçün müşkülünü.
“Son qoy dedi:
Ey İlahi əzablı gündüzlərimə”
Xəyallara dala-dala
Yuxu getdi gözlərinə...
Maraqlı bir yuxu gördü:
Ağ papaqda, ağ xalatda,

Gülə-gülə şən ovqatda,
Kimsə ona çıraq verdi.
Qadın idi, ya kişi idi
Mələy idi, yoxsa nə idi?

"Eşidirsən məni oğlum,
Ümnisədir mənim adım.
Səsə tərəf gedincə o,
Yoxa çıxdı həmin qadın .

"Aman allah, o kim idi?
Bəlkə elə bu həyatda
Gözlərimi açmaq üçün
Axtardığım həkim idi?!
Ümnisə?!,
Çıraq?!"
Diksinərək qalxdı Mətin
Yuxu ilə əlaqəsi var
Düşündü ki, həqiqətin.

Yaxın dostu Ümüd idi.
Həyəcanla zəng eləyib
Yuxusunu nəql elədi:
"Yəqin gözüm açılacaq,
Görəcəyəm mən!"-söylədi.

Qəribədir, çox qəribə
Çin olaydı kaş bu yuxu.
Adı nə idi o qadının?
Ümnisə?
- Hə-hə Ümnisə.
Ümid bir az fikrə daldı:
- "Ümnisə, Ümnisə"...
Qəzetdənmi oxumuşdu,
Tanış gəldi, bu ad nəsə.

Dünən qəzet almışdım mən,
Həkimlərdən yazmışdılar.
Alimlərdən,
loğmanlardan yazmışdılar.
Bu dünyanın işığından
Məhrum olan
İnsanlardan yazmışdılar.

- Qəribədir, çox qəribə,
Çin olaydı kaş bu yuxu
Gör hardadır, həmin qəzet,
O yazını mənə oxu.

Tilsimlənib qaldı Mətin
Yuxu ilə əlaqəsi var,
Düşündü ki, həqiqətin.
Ümid dedi,
- Tapmalıyıq o həkimi,
Mütləq Mətin!
Gözlərini qoymaq olmaz
Caynaqlarında zülmətin.
Gəl Allaha üz tutub,
Demə dərdin böyükdür,
Get üz tutub dərdinə,
De ki, Allah böyükdür.
Dur əyilmə zülmətə,
Bundan sonra qismətə,
Qoy yaxşı şey yazılsın.
Yol vermə ki, həyatda,
Dərd yaxandan asılsın.
Sən dərdlərin önündə,
Səbr edib dözsən bir az.
İşıq olar hər tərəf,
Dünya qaranlıq olmaz.

Kimin ki, iç dünyası,
İşıqlıdır həmişə,
Özümüzlə yanaşı,
Bax onlardan yazaq biz,
Qəlbi görən kəslərin,
Adlarının yanından,
Gəl pozanı götürüb
Kor sözünü pozaq biz...
Unutmadı bir an belə
Mətin Ümnisə adını
Ordan-burdan soraqlayıb,
Bir gün tapdı o qadını.

- Gəzib gəldim yüz həkimi,
İndiyədək gördüklərim
Olubdular söz həkimi.
Aç gözümü, göz həkimi!
İlahiyə mən baş əyib,
Gəlmişəm
Qurban olum, ay həkim,
Səni deyib gəlmişəm!

“Gör nə vaxtdır,
Sınaqdayam, sınaqda
Şəfa verən
Bir dərman yaz, ey təbib.
Arzu dolu illərim var qabaqda
Həsrət qalıb,
İşığa göz, ey təbib.

Tez-tez tutur gözlərimin sancısı,
Çağır gəlsin yenə şəfqət bacısı.
Üzür məni bir həsrətin acısı,
Dərmanımdır, de şirin söz ey təbib .

Dözmək olmur,
Bəxt düşəndə tərsliyə,
Alışıram,
Od qarışıb tüstüyə.
Səndən başqa
Kimdi yanan xəstəyə?,
Qoy sağalım,
Nazıma döz ey təbib.

Qurban olum o qayğılı gözlərə,
Layiqsiniz ən dəyərli sözlərə,
Ömür boyu dua edib, sizlərə,
Çox borcluyuq
Həyatda biz, ey təbib.

Birdən yenə Mətinin qulağına səs gəldi:
-"Eşidirsən məni oğlum,
Ümnisədir mənim adım",
Səsə tərəfə gedincə o,
Yoxa çıxdı həmin qadın....

Aman Allah,
O yuxu necə müqəddəs idi!
Ümnisəni tanıdı,
Bu səs həmin səs idi.
Dayanmışdı,
Həkimlə Mətin indi üz-üzə,
Ürəyində Ümnisə,
Allahdan nur istədi,
İşıq uman bu gözə.
O nə qədər sadə idi.
Sözlərindən nəvaziş,
Ədasından xanımlıq,
Səmimiyyət yağırdı.
Üz-gözündən qadının

Bir mərhəmət yağırdı.
-Həkim, sizi ilk dəfə
Mən röyamda görmüşəm,
Mələk kimi o gecə
Siz yuxuma girdiniz,
Adınızı söyləyib,
Mənə çıraq verdiniz.

- Çıraq?!
Çıraq işıq deməkdir,
Çıraq ki, nur deməkdir.
Aç gözünü can bala,
Möcüzədir, möcüzə,
Yuxuların hikməti.
Açar sənin gözünü
Yaradanın qüdrəti.
Hər sınağın sonunda
Mükafat var deyirlər,
Səbir eləyib dözənə
Xoş həyat var deyirlər.

- Aç gözünü, geniş aç.
İşıq varmı gözündə?!
- Əvvəl bir az görürdüm,
Dərman kara gəlmədi,
Bu gözümdən sonra da
O birisi tutuldu.
- Gözün çoxmu ağrıyır?
-Bəli həkim, ağrıyır,
Bəzən yata bilmirəm,
Gecələr çox ağrıyır.
- Əllərini Tanrının
Ətəyindən üzmə sən,
Oğlum, Allah böyükdür,
Ümüdini kəsmə sən.

Bir az burada qalıb,
Sən müalicə alarsan.
Düşünürəm inşallah
Bir gün gözü açılıb,
Gedənlərdən olarsan...

Zaman güldü,
Dövran güldü, vaxt güldü.
Tale güldü,
Qismət güldü, baxt güldü.
Mətin öpdü həkimin
Şəfa verən əlindən,
Qurtulmuşdu gözləri
Qaranlığın selindən...

Aylar ötdü, gün keçdi.
Yavaş-yavaş Ümnisə
Yaşa dolub qocaldı,
Şəfa verən bir insan
Ayağını itirib
Bu həyatda özü də
Həkimə möhtac qaldı.
Tapılmadı çarəsi…
Nur paylayıb gözlərə
İşıq verən bir adam,
Qəsd eləyib canına
Bir gün köçdü dünyadan.

Qəlbi külə dönənə,
Göz vermişdi Ümnisə,
Neçə-neçə gözsüzə
Göz vermişdi Ümnisə.
Bəhrələnib elmindən
Tələbələr boy atdı,
Sənətini alimin

Davamçılar yaşatdı.
Bir vaxt onun əlindən
Su içənlər yaşatdı;
Gülərüzlü mehriban,
Saf ürəkli Zərifə,
Zəhra, Qəmər, Fəridə,
Çingiz, Solmaz,
Paşa, Tamella
Ümnisənin ömründə,
Onun sənət yolunda
Hərəsi bir səhifə...
Sadalasaq çox olar,
Adlarını çəkməsəm
Hansısa incik qalar.

Onun adı düşmədi
Xəstələrin dilindən,
Danışırlar hələ də
Şəfa verən əlindən.

Neçə-neçə ölkəyə
Yayılmışdı sorağı,
Hər kəsə bir ibrətdir
Musabəyov ocağı.

**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, "Beynəlxalq Əlillər Cəmiyyəti"nin sədr müavini, "Əlillər Dünyası" qəzetinin redaktoru, "Qızıl Qələm" media mükafatçısı, şairə-jurnalist**
**Ülkər Atəş.**

## “Ümnisə Musabəyli 110”
### (elmi-nəzəri konfrans)

AMEA-nın və Tibb universitetinin birgə təşkilatçılığı ilə Ümnisə Musabəylinin anadan olmasının 110 illik yubileyinə həsr olunan elmi-nəzəri konfransa toplaşan görkəmli ziyalılar, alimin oftalmoloq tələbələri sevimli müəllimlərini xoş xatirələrlə yada saldılar. Ümnisə xanımın fəaliyyətini əks etdirən fotostendə tamaşa edən həkimlər ötən illəri kövrək pıçıltılarla xatırladılar.

Tibb universitetində, konfransın keçirildiyi salonda Ümnisə Musabəylinin xalça üzərində toxunan ağ xalatlı, nur çöhrəli portreti tər çiçəklərlə bəzənmişdir. İlmələrin naxışında əbədiləşən böyük alim sanki tələbələri qarşısında özü dayanıb, hər biri ilə ayrıca görüşürdü. Elə bil salon onun nuru ilə işıqlaşmışdı. “Ümnisə xanım ölməyib, onun ruhu burada, indi aramızdadır” deyən oftalmoloqlar onun ürəklərdə daima yaşadığını söyləyirdilər.

Böyük ehtiramla xatırlanan alimin vəfatından illər keçməsinə baxmayaraq, yubiley iştirakçıları onun haqqında dünənki kimi danışır, bu fədakar xanımın həyatından söz açırdılar.

Əslində bura yığışan ziyalıların əksəriyyəti ilə tanış idim. Onların hər birinin ayrı-ayrılıqda Ümnisə xanımla bağı xatirələrini dinləmişdim. Yubiley tədbirində Ümnisə xanımı yaxından tanıyan həkimlərlə yanaşı, onu heç bir dəfə də olsun görməyib, ancaq onu öz munisi bilən oftalmoloqlara da rast gəldim. Ümnisə Musabəyli adına Sumqayıt rayonlararası Göz xəstəxanasının cərrahı Validə Novruzova danışır ki, “bizim xəstəxanada Ümnisə Musabəylinin böyük portreti qoyulub. O portret ilin bütün fəsillərində, yay-qış hər gün çiçəklərlə bəzənmiş olur. Daima güllərin əhatəsində olan Ümnisə xanım təbəssümlə üzümüzə boylanır, göz həkimlərinə baxışları ilə nəisə pıçıldayır. Mən hər gün xəstəxanaya gələndə birinci onun mülayim baxışları ilə salamlaşıram, ruhuna

salavat çevirib, işə başlayıram. Oturduğum stol da o portretlə üz-üzədir. 20 ildir ki, hər dəfə əməliyyata girəndə ilk öncə Umnisə xanımın ruhunu köməyə çağırıram, onun xeyir-duasını alaraq, cərrahiyyə otağına girirəm. Baxmayaraq ki, Ümnisə xanımı həyatda görməmişəm, müəllimlərim tələbəlik illərində onun haqqında o qədər müsbət fikirlər səsləndirib ki, bütün oftalmoloqlar onu özünə məktəb bilir. Umnisə xanımın 100 ilik yubileyində iştirak edəndən sonra, mən bu xanımı daha çox sevdim və özümə munis bildim. Son 10 ildə də Ümnisə xanımın ruhunu öz yanımda, həyatımda daha yaxından hiss eləyirəm. O mənim səcdə elədiyim bir ocağa çevrildi....”

Tədbiri ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov açaraq böyük alimin elmi xidmətləri barədə nitq söylədi. Ümnisə Musabəylinin elmi fəaliyyətinə geniş toxunan rektor belə yubiley tədbirlərinin keçirilməsinin zəruriliyini qeyd edərək, təbabət tarixində iz qoyan insanların böyük məktəb olduğunu xatırlatdı.

Bu məsələyə AMEA-nın birinci vitse-prezidenti, akademik Arif Həşimov da geniş münasibət bildirdi. İki yüzdən çox elmi əsərin, Azərbaycan dilində iki dərsliyin, latın - Azərbaycan dilində terminalogiyanın və müəllifi olduğu bir neçə əsərin adını çəkdi. Xüsusən tibb terminləri haqqında lüğəti yada salaraq hələ ötən əsrdən alimin azərbaycan dilinə böyük önəm verdiyini söylədi. Akademikin sözlərinə görə alimin illər öncə arzuladığı, dilimizi yaşatmaq üçün çap etdirdiyi bu kitab bugünümüzlə uzlaşır. O alim əsil zəka sahibidir ki, öz uzaqgörənliyi ilə əsrlərin arxasından aydınca görünür, səsi, sözü eşidilir.

Ümummilli liderimiz Heydər Əliyevin sayəsində müstəqil dövlətimizin reallaşdırdığı dil siyasəti Ümnisə xanım kimi ziyalıların arzusunu çin etdi. Ölkə prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı isə vacib ədəbiyyatın, lazımi kitabların yenidən nəşri ilə nəticələndi.

Akademik Arif Həşimov elm xadimlərinin hər birinin özünəməxsus məktəb olduğunu xatırlatdı və böyük simaların gənc nəsilə tanıdılması üçün dövlət başçısı tərəfindən AMEA-nın qarşısına xüsusi öhdəliklər qoyulduğunu bildirdi. Hər zaman dühaların məktəbindən yararlanmağın vacib olduğunu və keçirilən yubiley tədbirlərinin də məhz bu məqsədi daşıdığını qeyd etdi…

Yubiley tədbirində alimin sonuncu tələbəsi, vaxtilə Ümnisə xanımın rəhbəri olduğu göz kafedrasına hazırda başçılıq edən professor Paşa Musayev (Qəlbinur) Ümnisə Musabəylinin həyatı və elmi fəaliyyəti haqqında geniş məruzə etdi. Paşa müəllim çıxışında Ümnisə xanımı okeanda üzən aysberqə bənzədərək, ruhuna ehtiramını bildirdi…

Professor İbadulla Ağayev poetik və kövrək notlarla zəngin nitqində Ümnisə xanımın vətən təbabətinə adı qızıl hərflərlə yazılan alim olduğunu söylədi.

Zərifə Əliyeva adına Göz xəstəlikləri institutunun kollektivi adından direktor müavini, tibb elmləri namizədi Hicran Namazova alimin oftalmoloqlar üçün örnək olduğunu, onun hazırladığı elmi kadrların da böyük uğurlara imza atdığını qeyd etdi.

Yubiley tədbirinin sonunda alimin ailəsi adından həkim Zakir İsmayılzadə Ümnisə xanım haqqında ictimaiyyətə bəlli olmayan bəzi faktları açıqladı. Belə ki, Ümnisə xanım öz doğma qızı Dilarədən başqa öz qaynı övladını, yəni Zakirin atası Ziyanı da himayəyə götürüb, həyat yoldaşı İbrahim İsmayılzadənin qardaşı uşaqlarından dörd nəfərə ana əvəzi olub, onların bütün ehtiyaclarını ödəyib, qayğılarına qalıb, hamısının ali təhsilli olmasına çalışıb. Həmin uşaqlar da Ümnisə xanımın adına layiq vətəndaş kimi yetişib, içərisində professor olanı da var.

Zakir İsmayılzadə yubileyin təşkilində xidməti olan insanlara, xüsusən ölkə başçısına minnətdarlığını bildirdi…

Yubiley tədbirində Ümnisə Musabəylinin tələbələrindən biri olmuş, uzun müddət Gəncə Göz xəstəxanasının baş hə-

kimi işləmiş Tuğyan Məlikovun qızı Sürəyya xanımdan da maraqlı söhbətlər eşitdim. O danışır ki, “Atam Ümnisə xanımın yaxın qohumu idi. 1945-50-ci illərdə Tibb institunda ondan dərs alıb. Elə həkimlik, xüsusən göz həkimi olmaq istəyi ona Ümnisə xanımdan keçib. Atam bu xanımı o qədər çox sevirdi ki, ömrü boyu onun adını ailəmizdə yaşatdı. Onun bu tibb ocağına rəhbərliyi illərində, 80-ci illərin sonlarında Gəncə Göz xəstəlikləri xəstəxanasına Ümnisə Musabəylinin adı verildi. Atam həm də Gəncənin baş oftalmoloqu idi.

Bizim ailədə Ümnisə xanımın xatirəsi həmişə ehtiramla anılır. Çünki, atamın xahişi və arzusu ilə, ondan sonra bacım Nərmiyə və mən də oftalmoloq ixtisasını seçdik. Mən hazırda Gəncədə Ümnisə xanımın adını daşıdığı və atamın bir vaxtlar rəhbəri olduğu həmin Göz xəstəlikləri xəstəxanasında direktor müavini vəzifəsində çalışıram. Uzun illərdir ki, bu müqəddəs peşəni sevərək yaşayıram və insan gözünün nurunu qorumağa çalışıram. Bacım Nərmiyə xanım isə Respublika xəstəxanasının Göz xəstəlikləri şöbəsində işləyir…”

Yubiley tədbirinin sonunda Ümnisə Musabəyli haqqında çəkilmiş film nümayiş olundu. Ekranda alimin gülərüz siması görsəndi. 1969-cu ildə “Azərbaycanfilm” kinostudiyası tərəfindən lentə alınmış Ümnisə xanım düz 43 ildən sonra, 110 yaşında tələbələrinə gülümsəyə-gülümsəyə təqdim olundu. Nə yaxşı ki, bu sənədli film, qiymətli kadrlar qorunur və gələcək nəsillərə ötürülür.

Ümnisə Musabəylinin 110 illik yubileyi münasibəti ilə keçirilən elmi-nəzəri konfransın ikinci hissəsində isə gənc oftalmoloqların elmi məruzələri dinlənildi. Gənc mütəxəssislər göz cərrahiyyəsinin müasir yeniliklərinə aid olan dörd yeni cərrahiyyə üsulu haqqında ətraflı məlumat verdilər. Ölkə oftalmologiyasının uğurlarına işarə olan bu çıxışlar Azərbaycan otalmologiyanın banisi Ümnisə xanım Musabəylinin 110 illik yubileyində, böyük müəllimin ruhu qarşısında səslənən hesabat idi.

## MÜƏLLİFİN SON SÖZÜ

Ömür yoluna işıq salmaq istədiyim, oftalmologiya aləmində dünyaca məşhur olan Ümnisə Musabəylinin haqqında topladığım bu xatirələr toplusu 20 illik jurnalistlik fəaliyyətimdə deyərdim ki, müraciət etdiyim ən kövrək mövzulardan biri idi. Arxiv materiallarına istinadən alimin fəaliyyətini geniş şəkildə işıqlandırmaq mümkün olduğu halda, əslində məni daha çox onun tələbələrinin söylədikləri düşündürürdü. "Nədən bu xanıma bu qədər dəyər verirdilər?", "Niyə Ümnisə xanım həmkarlarından fərqli idi?", "Niyə Ümnisə xanıma qeyri-adi qadın deyirdilər?", "Ümnisə xanım tələbələrini niyə çox sevirdi?" bu və ya müxtəlif mövzuda saysız -hesabsız suallarla Ümnisə xanımın dərs dediyi tələbələrin qapısını döydüm. Görüşdüyüm insanların hər biri ad-san qazanmış, bütün titullara yiyələnmiş, elm aləmində imzalarını təsdiqləmiş ziyalılar idi və onlarla həmsöhbət olandan sonra gözlərimin önündə "Böyük Ümnisə xanım"ın portreti yarandı. Üzünü görmədiyim bir alimin məğrur siması canlandı. Güclü iradəsi ilə bütün sədləri dəf edən bu xanımı daha dərindən, "qəhrəmanımı" daha da yaxından tanımaq istəyim hədər getmədi. Sağlığında könüllərdə əbədiləşən, ürəklərdə heykəlləşən Ümnisə Musabəyli həyatım boyu mütaliə etdiyim bütün ədəbi obrazlardan, həyatda rastlaşdığım surətlərdən daha təsirli oldu və oxşamaq, bənzəmək istədiyim ən müqəddəs idealıma çevrildi. Kaş ki, bu cümlələrin müəllifi və bütün ziyalı qadınlarımız Ümnisə xanım kimi cəsarət sahibi olaydı, qarşıya qoyduğu məqsədə doğru irəliləməkdən usanmayaydı…

"Qaranlıqdan İşığa" kitabı üzərində işləyərkən qəti əmin oldum ki, bu nur pərisinin ibrət dolu həyatı və fəaliyyəti taleyimə təsirsiz ötüşməyəcək. Ümnisə xanımı xatırladıqca, tanıdıqca onun o saf və mübarizələrlə dolu həyat yolu örnəyə çevrildi, paklığından, zəngin mənəvi dünyasından pay ummağa başladım…

Mən sonda Ümnisə xanımı mənə yaxınlaşdıran ***«Nasir» nəşriyyatının direktoru Famil Kərimova*** təşəkkürümü bildirirəm ki, onun istəyi ilə ömür yoluna nəzər saldığım bu alimin həyat mübarizəsinin şahidi oldum.

Xatirələri toplayıb, respublikanın əməkdar rəssamı İsmayıl Məmmədovdan kitabın üz səhifəsi üçün kompozisiya qurmağı xahiş etdim. Rəssama zülmətləri yaran, sabahları aydınladan bir cərrahın həyatından qısa anlar danışdım. Hörmətli rəssamın köməyi ilə "Qaranlıqdan İşığa" körpü salan Ümnisə Musabəylinin ruhunu şad etmək naminə bu təsvir quruldu.

Dəyərli oxucular, professor Ümnisə xanım Musabəyli, akademik Zərifə xanım Əliyeva və bu kitabda adı çəkilən məşhur alimlərin hamısı Azərbaycanımızın qismətinə düşən Tanrı işığıdır. Onların hər biri yurdumuzun əqli gücünü, mənəvi sərvətini dünyaya tanıdıb, odlar yurdunun həm də intellekt aləmi olduğunu varlıqları ilə sübut ediblər. Doğru deyirlər ki, Azərbaycanımızın öz bəşəri şəxsiyyətləri ilə öyünməyə tam haqqı var.

**Şəlalə Məhyəddin qızı**

## İstifadə olunan mənbələr


1. “Ümnisə Musabəylinin şəxsi fondu”, Respublika Dövlət Elm və Texnika Sənədləri Arxivi.
2. ATU-nun Arxiv materialları
3. Qəbələ rayon Tarix Diyarşünaslıq Muzeyinin arxiv materialları.
4. “Mənəviyyat tariximizin örnəyi”.N.Əliyeva, Yeni Azərbaycan qəzeti, 2010, 27 aprel, s 5.
5. “Ömrün mənalı anları”. Z.Qurbanqızı, Respublika qəzeti, 2008, 28 noyabr, s 4.
6. “Böyük nəslin dastanı”. N.Şəmsizadə, 525-ci qəzet, 2010, 28 aprel, s 4
7. “Əsrdən uzun yol”. M.Rəhimzadə, Azərbaycan qəzeti, 2009, 20 may, s 6.
8. “Ümnisə xanım Musabəyova - Qəbələ sultanlığının yadigarı”. Azərbaycan Tarixi Şəcərə Cəmiyyəti Xəbərlərinin 7-ci buraxılışı, 2010.
9. “İnsanlara nur bəxş edən alim ömrü”. S.Zeynalova. 2003, Xəzər nəşriyyatı.
10. “Görkəmli alim, sevilən insan”. Z.Quliyeva, P.Qəlbinur. Azərbaycan qəzeti, 2002-ci il, 30 oktyabr.
11. “Vətən və ana məhəbbətinin qaynağı ilə yaşanmış ömür”. V. İmanov. Xalq qəzeti, 2008, 28 noyabr, s 5.
12. “Səfalı əllər”, S.Paşayev. Elm və həyat jurnalı, 1963-cü il, nömrə 1.
13. “Qəbələ ziyalıları”. R. Məmmədov. 2005, Şirvannəşr.

## Elektron mənbələr

www.zarifa-aliyeva.az
www.mehriban-aliyeva.org
www.amu.edu.az
www.adhti.edu.az
www.atueye.com
www.sehiyye.gov.az
www.eye.az
www.anl.az
www.trend.az
www.ayna.az
www.qebele-ih.gov.az
www.fotobank.az
www.eluca.org
www.gebele-mks.com
www.diyarshunasliq.az
www.qabala.aztelekom.org
www.milli.az
www.education.gender-az.org
www.milliarxiv.gov.az
www.aztv.az
www.ikisahil.com
www.qebele-medeniyyet.com

## MÜNDƏRICAT


Ön söz ........................................................................ 3
Ü.Musabəylinin həyatından qısa fraqmentlər .............. 5
Akademik Zərifə Əliyeva ............................................ 18
Ü.Musabəylinin yetirmələri ........................................ 25
Ü.Musabəyova - Qəbələ sultanlığının yadigarı..............33
Musabəyovlar haqqında bir neçə kəlmə, yaxud əziz xalam Ü. Musabəyli ilə bağlı xatirələrim ..................... 38
"Ü.Musabəyli -110". Məramı dünyada qalan qürurlu insan, böyük alim, bənzərsiz müəllim ........................... 49
Vətən təbabətinə adı qızıl həriflərlə yazılan insan ........ 55
Ü.S.Musabəyovanın xatirəsinə.......................................64
Ümnisə xanım nəinki həm böyük alim, həm də gözəl insan idi ..................................................................... 66
Günəşin eşqilə ..............................................................71
Hansı qəhrəman ........................................................... 72
Ümnisə Musabəylinin ölüm günü ................................. 73
Ümnisənin qızları...........................................................74
Müəllimlər müəllimi, alimlər alimi ............................... 76
Oftalmologiyanın mayakı Ümnisə xanım ................... 79
Həyatıma düşən işıq ..................................................... 82
Yaddaşlara yazılan əbədi insan.................................... 87
Təkrarsız Ümnisə xanım .............................................. 90
Azərbaycanın dünya şöhrətli qızı ..................................94
Haqqında çox eşitdiyim Ü. Musabəylinin əziz xatirəsinə ......................................................................99
Ümnisə xanım əsl müəllim doğulmuşdur ..................... 104
Fenomen yaddaşı ilə seçilən müəllim .......................... 107
Alimlər anası ................................................................109
Müqəddəs müəllim, gözəl insan .................................. 113
Ümnisə xanım Azərbaycanın çırağı idi ....................... 115
İnsanı kəşf edənlər ...................................................... 119
Xatirələrdə yaşayan nurlu insan .................................. 122

Həyatı örnək olan iki alim .......................................... 125
Ümnisə xanımın etimadını doğrultdum ....................... 127
Bibim Ümnisə Musabəyli haqqında uşaqlıq xatirələrim130
Ümnisə Musabəylinin şəxsi fondu ................................ 132
Mətbuat səhifələri........................................................ 141
İşıq sözü və işığın özü......................................................142
Yad et məni! .............................................................. 147
Şəfalı əllər .................................................................. 150
Görkəmli alim, sevilən insan........................................ 153
Musabəyov ocağı......................................................... 156
«Ümnisə Musəbəyli 110» ............................................. 170
Müəllifin son sözü........................................................ 174
İstifadə olunan mənbələr ............................................. 176
Elektron mənbələr ....................................................... 177

Şəlalə Məhyəddin qızı.

«Qaranlıqdan işığa»

Nəşriyyatın direktoru: F.Kərimov

Çapa imzalanıb: 20.12.2012
Kağız formatı: 60x84 1/16
Fiziki çap vərəqi: 12
Tirajı: 200

«Nasir» nəşriyyatı

Tel: (050) 314 09 37



**Ümnisə Musabəylinin ailə şəkli: atası Süleyman bəy və anası Məryəm xanım. Ailənin 7 övladı dayələri ilə**



**Tağıyevin Qızlar seminariyası. Soldan, orta cərgə, 8-ci Vəsilə Musabəyova, 11-ci Ümnisə Musəbəyli**






**Ümnisə Musabəylinin anası** **Ümnisə xanımın qardaşı**

**Məryəm xanım**

**Əmir Musabəyov**



**Ümnisə Musabəyli gənc yaşlarında**



**Ü.Musabəylinin qardaşı professor Y.Musabəyov**



...ется в Академию Наук СССР

Форма Б

ИХ СИЛ СССР (КУНИС)

тел. 2-39-87

научных работников СССР,
форме и возвратить запол-
для новых персональных
изучения научных сил.

Просьба прислать для портре-
тного портрет (*) с автогра-
фом и указанием времени
съемки

...ьба писать разборчиво!

И. Мussabeili

Транскрипция фамилии латинскими буквами

Фамилия, имя, отчество (полностью)

Место, число, месяц и год рождения (по старому стилю)

Член СНР, ИТС (подчеркнуть)

Полное название мест работы и занимаемые должности

2. Специальная

Подробный адрес и телефон (домашн. и служебн.)

Нет отца
Рабочий
Научный работник, специалист
Служащий
Крестьянин-кулак
Крестьянин-середняк
Крестьянин-бедняк
Кустарь
Торговец
Владелец пром. заведения
Служитель культа

Нет
Да

# Ü.Musabəylinin ATU-nun arxivindəki şəxsi qovluğu 1924-33-cü illərə dair sənədlər




**Tibb institutunun 5-ci buraxılışı, Ü.Musabəylinin və İ.İsmayılzadə müəllim kollektivi arasında**



**Ümnisə Süleyman qızı Musabəyli**
**həyat yoldaşı prof.İ.İsmayılzadə ilə**





**Ü.Musabəylinin yeganə qızı Dilarə**

**Ü.Musabəyli**



**ATİ-nin oftalmologiya kafedrasının və Elmi Tədqiqat institutunun əməkdaşları. 1946-cı il**



**Ü.Musəbəyli. Sağdan 6-cı. Qahirə Ərəb tibb işçilərinin toplantısında. 1960-cı il**



**Ortada prof. Ü.Musabəyli  tələbələri ilə.**



**Ümnisə xanım Azərbaycana gələn xarici nümayəndə heyəti ilə**



**Ü.Musəbəyli (ortada) ABŞ. 1962-ci il**



**Ü.Musabəyli prof. Zəhra Quliyeva ilə**



**Prof. Ü.Musabəyli tələbələri ilə xəstənin gözünü müayinə edir. (Sağdan Ləzifə və Zərifə Əliyevalar, Tamara Səfərova, Rəfiqə Axundova)**



**Ü.Musabəyli əyləşib.**
**(Soldan ikinci Zərifə xanım Əliyeva) 1951-ci il**



**Ümnisə Musabəylinin xalça üzərində portreti alimin 100 illik yubileyində həmyerlisi DAĞLAR SƏFƏROV tərəfindən toxunub**


Ümnisə Süleyman qızı Musabəyli. 110